BƏYBALA XANKİŞİYEV

Ö M R Ü MÜN İZLƏRİ

Qüvvət elmdədir, başqa cür heç kəs,
Heç kəsə üstünlük eyləyə bilməz!
Hər uca rütbədən biliniz, fəqət,
Alimin rütbəsi ucadır ancaq!
Nizami Gəncəvi

Bakı, Gənclik – 2009

AZ
Bə 46
BBR 45.2.2.

Bə 46 Bəybala Xankişiyev. “ Ömrümün izləri ”.
Bakı, “ Gənclik ” nəşriyyatı, 2009, 220 səh.

Kitab Azərbaycan Respublikasının
Əməkdar iqtisadçısı, professor
Bəybala Xankişiyevin
70 illik yubileyinə həsr edilmişdir.

Kitab görkəmli alim, maliyyə sahəsində ilk azərbaycanlı professor, respublikanın əməkdar iqtisadçısı Xankişiyev Bəybala Aslan oğlunun keçdiyi şərəfli həyat yolu və əmək fəaliyyətinə həsr edilib. Bəybala müəllim ömrünün 51 ilini Azərbaycan Respublikası Maliyyə və Təhsil Nazirliyi sistemlərində çalışmaqla respublikamızda kadr hazırlığı işində böyük xidmət göstərmişdir.

Böyük Nizami Gəncəvinin “insan yaranmayıb yeyib yatsın”, Sədi Şirazinin “kiçik bağçada yetişər çinar” və “ömrün yollarını öyrən, sonra yaşa, yarat və sonra yaz” kimi ifadələrini özünə həyat amalı seçən Bəybala Xankişiyev həmişə çalışıb elə yaşasın ki, həyatda yaxşı izi qalsın və ailəsi ona görə heç vaxt utanmasın.

70 yaşını qeyd etməyə hazırlaşan müəllif kitabında keçdiyi həyat və əmək fəaliyyəti barədə yazıları, dostlarının ürək sözləri və həyatın anlarını əks etdirən foto-şəkillərlə əks etdirməyə çalışıb.

Müəllif kitabının ərsəyə gəlməsində Əliyev Şahrza Hacı oglunun təkidi və böyük əməyini xüsusi qiymətləndirərək ona öz minnətdarlığını bildirir. Bəybala müəllim kitabın nəşrinin təşkilatçısı Mirisrafil Misirxan oğlu Həsənova, kitabda öz əksini tapan xatirələrini yazan dostlara, nəhayət sonda kitabın yazılmasında, çap olunmasında və işıq üzü görməsində əməyi olan bütün insanlara təşəkkür edir.

“Ömrümün izləri” kitabı geniş oxucu kütləsinin müzakirəsinə təqdim edilir.

X 4702060204 qrifli nəşr
M 653 (07) 2009

© Gənclik, 2009
© B. Xankişiyev

İSBN 5-5020-1452-8

ÖMRÜN ANLARI

Mən zəngin bir həyat yolu keçmişəm. Bir mütəxəssis kimi müxtəlif təşkilatlarda, müxtəlif vəzifələrdə işləmişəm. Yaşımın bu çağlarında da - yəni elin sözü "yetmişimdə"də əlimi işdən-gücdən soyutmuram. Misqal–misqal yığdığım biliyimi, bacarığımı heç vaxt, heç kimdən, tələbələrimizdən, işçilərimdən əsirgəməmişəm. İndilər yenə də elmi – pedaqoji fəaliyyətimi davam etdirirəm. Elə hesab edirəm ki, təcrübəmi görüb-götürdüklərimi tələbələrimlə bölüşməkdən aldığım mənəvi həzzi heç nədən, heç yerdən almaq mümkün deyil.

Bəlkə özüm haqda yazmaq istədiklərim, deyəcəklərim kiməsə də lazım oldu. Çünki, biz yaşlıların örnək ola biləcək fəaliyyəti gənclərə həmişə gərəklidir. Hər bir insan ömrü öz dəyəriylə, sahilsiz ümmana bənzəyir və həm işıqlı, həm qaranlıq, həm də sirli tərəfləriylə çox qiymətlidir.

Bir də o var ki, dünya binnət olandan insan tarixin bir ucundan yol başlayıb gəlir. Hər bir kəs öz tarixini, şəcərəsini yarada-yarada həm də öz kökü üstə yol gəlir. Dünyanın bütün sivil xalqlarının nümayəndələri olan tarixçilər, ayrı-ayrı şəxsiyyətlər də öz xalqlarının, hətta ailə tarixlərini belə yazıb özlərindən sonra gələnlərə həm yaddaş, həm də yadigar qoyublar. Bu da ən azı hər nəslin kök-şəcərə tarixi kimi qalıb bir çox qaranlıqlara aydınlıq gətirib. Düzünü etiraf eləsək, belə ailə-nəsil səcərə tarixi bizlərdə ya az yazılıb, ya da heç yazılmayıb. Ona görə də əksər hallarda ulu babaların kimliyi unudulur, bir çox məsələlər isə qarışdırılır yer-yurd haqda məlumatlar saxtalaşdırılırdı.

Həyatımın bəzi anlarından qələmə almaq istədiyim bu

səhifələrin təbii ki məqsədi də aydındır. El-obanın hər kəsdən belə bir tələbi var ki, insan "Yeddi arxa dolananını tanımalıdır" Doğrudanmı, bizim hamımızın yeddi arxa dönənimizdən xəbərimiz var?

Bu isə haqlı bir sualdır.

Aqillərimizin belə bir deyimi var ki, hər bir insan doğulub boya-başa çatdığı yerinə-yurduna bənzəyər. Bəlkə də məhz buna görədir ki, rastlaşdığın, tanış olduğun adama ilk sual da "Haralısan",- dəyə verilir. Bəzən bizlərdə "haralısan" sualına insanlarda yerliçilik hissi doğurduğuna görə mənfi münasibət bəslənilir. Bu əslində düzgün mövqe deyil. Belə ki, bu sualı insanlara daha çox adi bir səbəbdən; qarşındakı adam haqqında doğulduğu torpaq, yer-yurdddan irəli gələn hansı xarakterik xüsusiyyətə malik olduğu haqda müəyyən təsəvvür əldə etmək istədiyin üçün verirsən. Təbii ki, insan canında, qanında mənsub olduğu millətin, yaşadığı torpağın, ərazinin, düzün, dağın, çayın, dənizin-dəryanın, daha nələrin kodlarını-irsi əlamətlərini daşıyır. Bu mənada doğulduğum torpağın, bölgənin səmtindən, yönündən danışmağı ömrümün maraqlı səhifələrindən hesab edirəm.

Doğma yurdum Sabirabad rayonu, ona mənsub olan kəndlər, eləcə də digər qonşu rayon və kəndlər Muğan düzündə yerləşir. Muğan düzü adı kimi böyük, geniş, "istiqanlı" bir ərazidir. "İstiqanlı" sözünü ona görə işlətdim ki, bu torpağa nə atsan cücərəndi, bitib məhsul verəndi. Bu torpağı sevən, əziyyət çəkib tər tökən heç vaxt ac qalmaz. İnkişaf etmiş əkinçilik, maldarlıq, qoyunçuluq, bağ-bağat bu torpağın-Muğanın üz ağlığı, bərəkətidi.Vaxtilə S.Vurğun "Muğan" poemasında yazırdı.

Muğan muğan olsa biri üç eylər,
Muğan tufan olsa üçü heç eylər.

Bu misralar Muğan düzünün, burada yaşayan elatın, camaatın xarakterik xüsusiyyəti kimi səslənir. Bəli, Muğanın həm biri üç edən həm də tufan üzü var.

Muğan düzü geniş ərazini əhatə edir. Belə ki, ərazisinin

çox hissəsi respublikamızda yerləşir davamı Cənubi Azərbaycana qədər gedib çıxır. Bu ad özündə çox böyük mənalar ehtiva edərək, böyük bir tarixi yaşadır. Çox güman ki, Muğan adı qədim muğ tayfalarının adıyla bağlıdır. Bu tayfanın adı ədəbiyyatda maqlar kimi də işlənib. Bu da tanrının adıyla bağlı olub və mifoloji əsasları var. Hətta bəzi mütəxəssislərin dediyinə görə rus dilində işlənən "boq" sözü də muğlarla, maqlarla bağlıdır. Təbii ki, mən toponimika ilə məşğul olmadığımdan bu sözün etimologiyası, Muğan toponimi haqda çox danışmaq istəmirəm. Bu barədə daha fundamental sözü təbii ki, tarixçi alimlər, etnoqraflar deyə bilərlər.

Əgər belə hesab etsək ki, Muğan böyük bir eli, mahalı birləşdirən ərazidir, onda deməliyik ki, mahal özündə mərkəzi Qalaqayın qalası olmaqla çox oymaqları, kənd-kəsəkləri birləşdirərək Cavad xanlığına daxil olub.

Zaman-zaman uzaq Çindən gətirilən ipək, eləcə də pambıq, yun parçaları, dulusçuluq məmulatları bu ərazilərdən keçərək gələn karvanların yükü olub. Bu karvanlar Midiya ərazilərindən keçib Bizansa, o cümlədən, bütöv Avropaya yüklər daşıyıblar. Bu yerlər qədim "İpək yolu"- ticarət yolu idi. Odur ki, şəhər mədəniyyəti bu yerlərə hakim bir mədəniyyət olduğundan burada şəhərlər, qəsəbələr inkişaf etmişdir. Bu mövzu yenə də tarixçi-etnoqrafların apardıqları elmi araşdırmaların tədqiqat obyektidir.

Mənim doğulduğum Qalaqayın kəndi əsasən hazırkı Sabirabad rayon mərkəzinin yerləşdiyi ərazidir. Belə ki, Sabirabad inzibati ərazi, rayon mərkəzi kimi 1930-cu ildə təşkil olunub və əhalisi 100 min nəfərdən çoxdur. Rayon ərazisində bir şəhər, bir qəsəbə, 75 kənd vardır.

Rayonun əvvəlki adı Petropavlovsk olub ki, bu da rusların Qafqazda işğalçılıq yürüşlərinin acı nəticələrindən biri idi.

Təbii ki, Qalaqayın toponimi də özündə maraqlı fakt və tarixi yaşatmamış deyil. Qala ilə bağlı həm Azərbaycanda, həm Qafqazın çox yerlərində yer-yurd adları olub, bu toponimlər indi

də qalır. Bizim milli toponimlərimizin nüvəsində isə həm tayfa, həm şəxs, həm də tarixi izlər olduğundan Qalaqayın toponiminin özünün də məhşur tayfa adlarından biri ilə bağlı olduğunu yəqin etmək olar. Doğma el-obamla bağlı bu xırda tarixi, etnoqrafik gəzişmələri, şəxsi fikrimi oxucularla bölüşməyi özümə mənəvi borc hesab edirəm..

Mən, Bəybala Aslan oğlu Xankişiyev, 1939-cu ilin oktyabr ayının 10-da Azərbaycan Respublikasının Sabirabad rayonunun Qalaqayın kəndində dəmirçi ailəsində anadan olmuşam. Anam söyləyirdi ki, mən dünyaya gəldikdən sonra ayağım sayalı olduğundan var-dövlətimiz artmağa başlayıb.

Atam sənətkar olduğundan (kolxozda dəmirçi işləyib) müharibəyə aparmayıblar, ona xüsusi "bron" veriblər. Onu arxa cəbhədə işləmək üçün Sabirabad rayonunda fəaliyyət göstərən (MTS) Maşın Traktor Stansiyasında yüksək ixtisaslı mütəxəssis kimi işə götürüblər. Atam söyləyərdi ki, o çar Rusiyası dövründə "Nikolay" adında bir ustanın şagirdi olub, dəmirçilik sənətini də ondan öyrənib, bu sənət də onu ömrü boyu çörək yiyəsi eləyib.

Atamın dediklərindən o da məlumdur ki, bizim Qalaqayın kəndində mənim ulu babam Xankişinin güclü təsərrüfatı olub. Onun dörd oğlu və iki qızı (oğlanları Kalba Əsəd, Qara, Dadaş, Əhəd, qızları Güllü və Salatın) var imiş.

Araz çayı ilə Kür çayı bizim kəndin yuxarı hissəsində Narlıq deyilən yerdə birləşir. Hər il yaz aylarında çaylarda su artanda bizim kəndi su aparar, evləri uçurarmış.

Bizim Qalaqayın kəndinin tarixi uzaqlara gedib çıxır. Dediyim kimi, kəndimiz Kürlə Arazın qovuşduğu yerdə məskunlaşıb. Mən istərdim ki, bu məsələyə də tarixi aspektdən yanaşaq. Bu da məlumdur ki, tarix boyu iki çayın qovuşuğu münbit bir ərazi, yaşayış üçün yararlı bir yer kimi xüsusi olaraq seçilib. Dünyanın ilk sivilizasiyaları da daha çox iki çay arası-vadilərdə təşəkkül taparaq inkişaf edib. Bu həm təsərrüfatın inkişafı həm də ticarət baxımından əhəmiyyətli olub. Qədim türk

mədəniyyətləri də əsasən iki çay arası mədəniyyət hesab olunur. Dəclə-Fərat, Sır dərya-Amu dərya, Kür-Araz məhz belə çay qovuşuqluqlarındandır. Tarixdə ilk dövlətçilik quruluşunun yaranması, böyük Şumer mədəniyyətinin formalaşması, Mesapatomiya deyilən Dəclə-Fərat çaylarının qovuşuğu-vadisi ilə bağlıdır. Orta Asiya mədəniyyəti də, iki çay qovuşuğunda yaranan sivilizasiya örnəyidir.

Məhz iki çay qovuşuğunda yerləşən Kür-Araz ovalığı da dünyanın qədim mədəniyyət mərkəzlərindən biri hesab olunur. Bu ərazidə arxeoloji qazıntılar zamanı aşkar edilmiş insan məskənləri, yaranmış dövlətlər, dövlətçilik ənənələri haqqında toplanmış məlumatlar tarixi baxımdan çox qiymətlidir.

IV-XII əsrlərdə geniş əraziləri və mədəniyyətləri özündə birləşdirən Qalaqayın kəndi müxtəlif dövrlərdə Qayım qala, Qayım oba kimi də adlanıb. Bu kənd tarixi mənbələrdə müxtəlif xalçalar, əşyalar, pambıq, yun məhsulları satılan ticarət mərkəzi kimi göstərilir. Bu ərazi haqda Dədə Qorqud dastanlarında da müəyyən məlumatlar var. Bu tarixi ərazi haqqında çox qısa şəkildə dediklərim hər bir Muğan əhlinin, hər bir azərbaycanlının ömür kitabına yazılanlardır. Bunlar Muğan torpağının övladı kimi bötövlükdə ömür kitabımın şanlı səhifələridir. Sözümün bu yerində daha çox ailəmizlə bağlı fikirlərimi sizlərlə bölüşmək istəyirəm.

Biz ailədə beş bacı, beş qardaş olmuşuq, ancaq beş nəfərimiz sağ qalıb. Böyük qardaşım Əlibala Vətən müharibəsində həlak olub. O biri bacı, qardaşlarım müxtəlif xəstəlikdən dünyalarını dəyişiblər. Qalan bacılarım və qardaşım ev-eşik, övlad, nəvə-nəticə sahibi olublar. Bacım Xanbikə Qəhrəman anadır. O biri bacılarım Cəvahir və Gülbikə, qardaşım isə Əhədağadır.

Bəzən elə olur ki, ailədə övladlar arasında kiməsə ata, ana tərəfindən hörmət, qayğı daha çox olur. Mən məhz belə bir uşaq olmuşam. Ata-ana qayğısını hamıdan çox hiss eləmişəm, heç vaxt valideynlərimin qəzəbinə tuş gəlməmişəm. Elə özüm də qəzəbə,

hirsə səbəb ola biləcək hərəkətlərə yol verməmişəm.

Onu da deyim ki, ulu babam Xankişinin törəmələri, yüzlərlə nəvə-nəticələri hazırda ABŞ-da, Avropa ölkələrində, Rusiyada, Türkiyədə, Türkmənistanda yaşayır, fəaliyyət göstərirlər.

Xankişinin kiçik oğlu-mənim babam Əhəd kişinin beş oğlu və bir qızı olub (oğlanları mənim atam Aslan, əmilərim Nuşiravan, Səməd, Əliqulu, Dadaş və bibim Mirvari). Əmim Nuşiravan o vaxtlar Azərbaycan SSR Nazirlər Sovetinin sədri Nəriman Nərimanovun mühafizəçisi işləyib. O biri əmilərimdən Səməd kolxozda baş mühasib, Əliqulu müəllim, bibim Mirvari kolxozçu idi. Əmim Dadaş isə cavan yaşlarında vəfat etdi. Əmi uşaqlarım müxtəlif sahələrdə çalışırlar. Səməd əmimin oğlu Xankişi Xankişiyev hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetində "fakültə dekanı" dır, həm də İqtisadi Nəzəriyyə kafedrasının dosenti vəzifəsindədir.

Hələ o vaxtlar Sabirabad rayonu üzrə ən böyük təsərrüfatı olan bizim Qalaqayın kəndi idi. Kənddə iki 7 illik ümumtəhsil məktəbi fəaliyyət göstərirdi.

Mən 1946-cı ildə 1 №-li kənd ümumtəhsil məktəbinin 1-ci sinfinə getmişəm. İlk müəllimim Müslüm müəllimdən əlifbanı, Nəsir müəllimdən hesabı öyrənmişəm, Abdul müəllim tarix müəllimi kimi həmişə diqqətimdə olub. Şagird yoldaşlarımdan Arif Zeynalovu, Vaqif Nəsirovu xüsusi olaraq qeyd eləmək istərdim. O vaxt məktəbimiz balaca idi, siniflər çox kiçik otaqlarda yerləşirdi. Məktəbin binasında əvvəllər molla məktəbi fəaliyyət göstərib, burada məhərrəmlik mərasimləri keçirərlərmiş. Mən 1953-cü ildə 7-ci sinifi bitirdikdən sonra Sabirabad şəhər orta məktəbin 8-ci sinifinə daxil olaraq 1956-cı ildə 10-cu sinifi müvəffəqiyyətlə başa vurdum. Mənə dərs demiş, təlim-tərbiyə almağımda əməyi olan müəllimlərimi Ağadadaşı, Murtuzanı, Mehdini, Mustafanı, Böyükxanımı, Ağasadığı Nübahı ömrümün bütün zamanlarında xatırlamışam. Nəhayət təhsilimi davam

etdirmək üçün Bakı şəhərinə gəldim. Onu da deyim ki, çox erkən yaşlarımdan fiziki əməyə alışmışam. Həm dərsimdən əla qiymətlər alırdım, həm də ata-anama təsərrüfat işlərində kömək eləyirdim. Elə uşaqlıqdan üzüyola olmuşam. Tapşırılan işin canla-başla öhdəsindən gəlməyə çalışmışam. Əsil kənd uşağı idim və əlim hər işə yatırdı.

Konkret işlərim belə idi; ailəyə bütün mövsümü işlərdə kömək etmək, qış üçün meşədən odun yığıb araba ilə gətirmək, mal-qara üçün ot biçmək və əksər vaxtlarda şəlləyib gətirmək. Onu da deyim ki, bu işləri bütün kənd uşaqları görərdi. Bu həm də bizim taleyimiz idi. Ən çoxu da bu dövrlərdə kənddə işıq, qaz olmadığından lampa işığında dərs oxuyurduq, odun peçindən istifadə edirdik.

Xankişi babamın qızı Güllü bibimin oğlu Dəmirov İsrafil Adiş oğlu Azərbaycan Tibb Universitetinin kafedra müdiri, professor, farmakologiya sahəsi üzrə tibb elmlər doktoru idi. 1956-cı ildə ilk dəfə Bakıya gələndə onlara gəldim ki, məsləhət alım, işlərimi qaydasına salım. O, mənə sənədlərimi öz sahəsi üzrə Azərbaycan Dövlət Tibb İnstitutuna verməyi məsləhət bildi. Mən isə Azərbaycan Politexnik İnstitutunun Avtomobil Nəqliyyatı ixtisasına həvəsim olduğunu bildirdim və sənədlərimi həmin instituta verdim. Həmin ixtisas üzrə böyük müsabiqə olduğundan instituta daxil ola bilmədim. Kəndə boş qayıtmamaq üçün yenidən sənədlərimi Bakı Maliyyə-kredit texnikumuna verdim və iki fəndən imtahan verərək "Dövlət büdcəsi" ixtisası fakültəsinə qəbul olundum.

Maliyyə-kredit texnikumunun direktoru Müslüm Babayev, tədris hissə müdiri Tuqay Qənbər oğlu Rəhimov idi. Mənim həyatımda Tuqay Qənbər oğlu Rəhimovun rolu böyük oldu. O mənə sığorta müfəttişliyində işlədiyim dövrdə atalıq, onun həyat yoldaşı Misirxanova Sənubər xanım isə analıq qayğısı göstərmişdilər. O vaxtlar Sənubər xanım AzDİU-də xarici dillər kafedrasının müdiri işləyirdi. Sənubər xanım mənim Bakı

şəhərində işləyə bilməyim üçün onların qohumları Safura Melikyeqanova xanımın mənzilində qeydiyyata alınmağıma səbəb oldu. Yalnız bundan sonra mən Sabirabaddan köçürmə yolu ilə Bakı şəhəri Kirov rayonuna (indiki Binəqədi rayonu) sığorta müfəttişliyinə inspektor vəzifəsinə işə qəbul olundum. Artıq o vaxtlar T. Rəhimov Maliyyə Nazirliyi Baş Dövlət Sığorta idarəsində rəis müavini işləyirdi.

1956-cı il Bakı şəhəri, tələbəlik, yataxana həyatı... İnsanın heç vaxt yaddaşından silinmir. Tələbə dostlarımdan Vaqif Kərimov, Əli İbrahimov, Ziyyədin Əsgərov, Nəriman İmanov, Bilal Hüseynov və Rəşid Vəliyevlə bir otaqda yaşayırdıq. Müəllimlərimizdən, Əşrəf Hüseynovu, Alxazovu, Samid Adıgözəlovu, Akifi, Əli Rüstəmovu, Məhbud Məmmədovu, Müslüm Babayevi, Sabir İbadovu, Tuqay Rəhimovu xüsusi olaraq qeyd etmək istərdim. Onlar mənim bir gənc kimi formalaşmağımda, düzgün yol seçməyimdə nümunə və örnək oldular.

1958-ci ilin aprel ayında Texnikumu fərqlənmə diplomu ilə bitirdim. Maliyyə Nazirliyinin təyinatı ilə gənc mütəxəssis kimi əvvəl Bakı şəhəri Baş Dövlət Sığorta idarəsində inspektor, sonralar Sabirabad rayonunda sığorta müfəttişliyində böyük mühasib vəzifələrində işlədim. 1960-cı ildə sənədlərimi Azərbaycan Dövlət Universitetinin İqtisad fakültəsinin axşam şöbəsinə verdim və qəbul olundum.

Mən həmin il köçürmə yolu ilə Azərbaycan Respublikası Maliyyə Nazirliyi Baş Dövlət Sığorta idarəsinin Binəqədi rayon Sığorta Müfəttişliyinə sığorta müfəttişi vəzifəsinə göndərildim. Bakının Xırdalan, Hökməli, Xocahəsən, Masazır, Pirşağı, Binəqədi, Fatmayı, Göradil, Digah və s qəsəbələri üzrə sığorta işləri mənim nəzarətimdə idi. Yadımdadır; bir dəfə bərk yağış yağmışdı. O vaxtlar nəqliyyat vasitəsi yox dərəcəsində idi. Masazırdan şəhərə gəlmək üçün mənə uzunqulaq verdilər. Yağışdan sonra zığdan, palçıqdan yollarda yerimək mümkün

deyildi. Uzunqulağı da mənə bu məqsədlə verdilər ki, minib şəhərə gedim. Heyvan sahibindən soruşdum ki, bəs uzunqulağı necə qaytaracam?- O sualıma təbəssümlə: "harda buraxsan özü gələcək",- dedi. Elə beləcə də oldu. Bununla da mən heyvanlarda güclü hissiyatın olması şahid oldum. Mən Xırdalana gəldim və qəbiristanlığın yanında ulağı buraxdım. Sonralar öyrəndim ki, ulaq gedib sahibinə çatıb. Mən bir dəfə də motorolerin yedəyində (kuzasında) gecə vaxtı Masazırdan Binəqədiyə getmişəm və qəribə yol macəraları ilə qarşılaşmışam.

O vaxtlar ağır illər idi. Müharibənin vurduğu ağır yaraların yeri hələ də sağalmaq bilmirdi. Kəndlərdə, qəsəbələrdə çoxlu problemlər vardı. Təsərrüfatlar inkişaf prosesində axsadığından, bizim də işlərimiz ləng gedirdi. Odur ki, biz gecə-gündüz çalışmaq məcburiyyətində qalırdıq.

Əksər halda aylıq icbari sığorta planını yerinə yetirmək üçün gecələr qəsəbələrdə yatıb qalırdım. Səhər saat 4-də sakinlər satdıqları südün haqqını alan zaman mən icbari sığorta haqqını toplayırdım. Hər ay planı 120% yerinə yetirirdim. Yadımdadı, bir dəfə işdən çıxmaq üçün ərizə yazmışdım. Respublika Baş Dövlət Sığorta idarəsinin rəisi Baxşəli Baxşəliyev işçilərə mənim necə işlədiyimi öyrənib məruzə etmək tapşırığı verdi. Məlum oldu ki, mən aylıq planı 120% yerinə yetirmişəm. O mənim ərizəmi götürmədi, əmək haqqımı 20 manat artırdı. Həm dövlət universitetində təhsil almaq, həm də Bakı şəhərinin ayrı-ayrı uzaq qəsəbələrinə gedib- gəlmək çox çətin idi. Axır ki, çox xahişdən sonra mən iş yerimi dəyişə bildim. Bakı Axşam Neft Texnikumuna baş mühasib vəzifəsinə işə qəbul oldum. O vaxtlar mühasib vəzifəsində azərbaycanlı kadrlar çox az idi. Sonralar Ali və Orta təhsil komitəsi sahəsində baş mühasib işlədim. Baş mühasiblər arasında yeganə azərbaycanlı idim ki, 1961-ci ildə komitədə işə təyin ediləndə, komitənin sədri akademik A. Qarayev mənə belə bir sual verdi: "Oğul, oturmağı bacarırsanmı? O stuldan durdu və yenidən oturandan sonra- belə oturmağı deyirəm,– dedi. Sözünə

davam edərək: “Bizimkilər oturmağı sevmirlər, alverə, ticarətə, sürücülüyə daha çox meylli olurlar”-dedi. Dedikləri indiki kimi yadımda qalıb.

1964-cü ilin sentyabr ayına kimi Bakı Axşam Neft Texnikumunda baş mühasib işlədim və tədris ilinin əvvəlindən başlayaraq “Müəssisələrdə istehsalın və iqtisadiyyatın təşkili” fənni üzrə müəllim vəzifəsinə təyin olundum. Dərs yükümün az olması məni darıxdırırdı. 1964-cü ilin noyabrında Azərbaycan Dövlət Universitetinin mətbəəsində baş mühasib, az sonra Universitetdə baş mühasibin müavini vəzifəsinə keçdim. 1966-cı ildə Azərbaycan Dövlət Universitetinin bazası əsasında Azərbaycan Xalq Təsərrüfatı İnstitutu yaradıldı və mən Ali və Orta İxtisas Təhsil Nazirliyinin əmri ilə instituta Baş mühasib vəzifəsinə təyin olundum. Həmin ildən başlayaraq “Maliyyə - kredit” kafedrasında “Büdcə uçotu və hesabatı” fənni üzrə saat hesabı olaraq dərs deməyə başladım. Paralel olaraq Bakı Axşam Neft Texnikumunda “Neft və qaz müəssisələrində iqtisadiyyatın təşkili”, “Maşınqayırma müəssisələrində iqtisadiyyatın təşkili” fənləri üzrə saat hesabı olaraq dərslər aparmağa başladım.

1968-ci ildə alimlik dərəcəsi almaq üçün Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun aspiranturasına daxil oldum. “Büdcə idarə təsərrüfatı uçotunun təkmilləşməsi” mövzusunda tədqiqat işinə başladım. O vaxtlar Azərbaycanda, Gürcüstanda, Ermənistanda büdcənin icrasının uçotu sahəsində alimlər olmadığından elmi rəhbər axtarmaq üçün Moskva şəhərinə getdim. Moskva Maliyyə İnstitutunun “Büdcə uçotu” sahəsində yeganə professor Evgeni Povloviç Dedkovun razılığını aldım və o mənə elmi rəhbər təyin olundu. Elmi işim üzərində ciddi axtarışlara başladım. Maraqlı məlumatlar, faktlar əldə eləyirdim. Həm mərkəzi, həm respublika arxivlərində, kitabxanalarda işləməli olurdum. Təcrübəli yoldaşların, müəllimlərin məsləhətləri həmişə karıma gəlirdi.

Tədqiqat işimi vaxtından bir il qabaq kafedraya təqdim etdim. Namizədlik işim “Maliyyə-kredit”, “Mühasibat uçotu və

təsərrüfat fəaliyyətinin təhlili" kafedralarının birgə iclasında müzakirə olundu və müdafiəyə təqdim edildi.

1974-cü ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun Elm Müdafiə Şurası mənə iqtisad elmləri namizədi alimlik dərəcəsi verdi. Birinci opponentim Moskva Maliyyə İnstitutunun kafedra müdiri professor, Rusiya Federasiyasının əməkdar elm xadimi Vladimir Sergeyeviç Rojnov idi. Aspranturada oxuduğum dövrdə Moskva Maliyyə məktəbinin professorlarından, Moskva Dövlət Universitetinin kafedra müdiri, əməkdar elm xadimi prof Anatoli Daniloviç Seremetlə, MDU-nun professoru Valeri İvanoviç Rıbinlə, prof Bacurinlə, prof Vasili Petroviç, Koserevlə, Bariç Feodoroviç Andropovla, Dmitrey İvanoviç Cuprunovla, İqor Vladimiroviç İvanovla, Feodr Sergeyeviçlə və digər elm adamları ilə ailəvi dostluğumuz baş tutdu. Bu dostluq və ünsiyyətin mənim bir alim kimi, insan və vətəndaş kimi yetişməyimdə, təkmilləşməyimdə çox güclü rolu oldu. O zamankı SSRİ-nin az da olsa açıq pəncərələrindən dünyaya baxa bildim. Bir kadr kimi uzun bir təkmilləşmə yolu keçdim. Dostluq elədiyim o insanlar, sonralar mənə Azərbaycan Təhsil Nazirliyində işlədiyim vaxtlarda köməklik etdilər. Respublika təhsil sistemi sahəsində mövcud problemlərin həllində mənə köməkçi oldular. Onu da etiraf etməliyəm ki, Moskva mühiti, o cümlədən o zamankı SSRİ miqyasında tanınan adlarını çəkdiyim o alimlərdən mən çox şeyləri, müsbət keyfiyyətləri əxz elədim. Özümdə yüksək arenalara çıxa bilmək gücü duyurdum. O, alimlərin hər birində şəxsi, əxlaqi keyfiyyətlər güclü idi. Həm insana münasibətdə, tələbkarlıqda, apponentə düzgün yol göstərməkdə məsləhət verməkdə o insanlar əvəzsiz idilər. Xüsusən tələbələrlə münasibət qurmaqda onlardan aldığım təcrübələr sonralar da çox karıma gəlib. Təhsil Nazirliyində işlədiyim vaxtlar demək olar ki, hər bir sahədə dönüş illəri idi. Məişətdə, təsərrüfatda sənaye və kənd təsərrüfatı sahələrində bir yüksəliş hiss edilirdim. Yeniliklər qabarıq şəkildə özünü biruzə verirdi. Bu dövrlərdə xaricdə, o cümlədən Moskva, Leninqrad, Kiyev, Novosibirsk, Voronej və s.

şəhərlərdə bir sıra ixtisaslar üçün müsabiqədən kənar yolla təhsil almaq üçün respublikada kadr hazırlığı aparılır, əlavə tələbə qəbulu həyata keçirilirdi. O vaxtlar Ulu öndərimiz Heydər Əliyevin tapşırığı ilə ittifaq şəhərlərində hər il 1000-1200 nəfər tələbə üçün yer almaq lazım idi. Tələb olunan əlavə yerlərin alınmasında mən bilavasitə iştirak etmişəm. Onu qeyd etmək lazımdır ki, o vaxtlar Rusiyanın mərkəzi şəhərlərində çoxlu tələbələrimiz təhsil alırdı. Vaxtı ilə oxumaq üçün göndərilən tələbələrdən çoxları orada qalaraq aspirantura təhsili də aldılar, yerlərdə qalıb işə başladılar. Hal-hazırda eloğlularımız Azərbaycanın Rusiyadakı diasporasiyasını yaradıblar. Onu da qeyd eləməliyəm ki, bu illərdə Bakı şəhəri ümumittifaq şəhərləri arasında öz yeri, nüfuzu ilə seçilirdi. Şəhərimizin ali məktəblərində həm xaricdən, həm də ittifaqın digər yerlərindən gələn tələbələr təhsil alırdı. Bakıda müxtəlif ümumittiifaq tədbirlər keçirildi. Mənim təklifim, 1982-ci ildə SSRİ Dövlət Təhsil Komitəsinin əmri əsasında Müttəfiq Respublikaların iştirakı ilə Azərbaycan Neft-Kimya İnstitutunda gənc mütəxəsislərin ümumittifaq konfransı keçirildi. Bu illərdən ictimai işlərdə, tədbirlərdə fəal iştirak edirdim. Hələ 1979-cu ildə SSRİ Dövlət Təhsil Komitəsinin və Həmkarlar İttifaqının əlaçı döş nişanı ilə təltif olundum, 1989-cu ildə isə "Fəxri Fərman" a layiq görüldüm.

1975-ci ildə Ali və Orta Təhsil Naziri Qurban Həsən oğlu Əliyevin təşəbbüsü ilə plan-maliyyə idarəsinə rəis vəzifəsinə irəli çəkildim və 1993-cü ilə qədər orada işlədim. 1981-ci ildə Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsinin katibliyinin qərarı ilə Nazirliyin Kollegiyasının üzvü oldum. Bu işdə Azərbaycan KP MK-nın birinci katibi H.Əliyevin şəxsi razılığını xüsusi qeyd etmək istəyirəm. Ümummilli liderimizin o zamankı şəxsi razılığı mənim həyatımda böyük hadisə idi. Bu məni yeni uğurlara səsləyirdi. 1988-ci ilə qədər Azərbaycan Təhsil Nazirliyinin kollegiya üzvü kimi əmək fəaliyyətim olub.

1990-cı ildə Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə mənə Azərbaycan Respublikasının "Fəxri iqtisadçısı"

fəxri adı verildi. Onu da qeyd edim ki, 1988-ci ildə SSRİ-də Təhsil sahəsində köklü islahatlar keçirildi. Maarif, Ali və Orta İxtisas təhsili Nazirliyi və Texniki Peşə Təhsili Komitəsi ləğv edilərək mövcud baza üzərində Respublika Xalq Təhsili Nazirliyi yaradıldı. Mən yeni yaranan Təhsil Nazirliyinin iqtisadiyyat idarəsinin rəisi təyin olundum.

1989-cu ildə Azərbaycan Respublikası Təhsil Nazirliyi nəzdində SSRİ-də bənzəri olmayan **Təhsilin Problemləri Laboratoriyası yaradıldı** və mən bu sahəyə rəhbərlik etdim. Mənim rəhbərliyimlə laboratoriyada bu qurumda uşaq baxçalarından tutmuş, ümumtəhsil məktəblərinin, texniki peşə məktəblərinin, texnikumların, ali məktəblərin, ixtisas artırma kurslarının müasir vəziyyəti təhlil olunur, perspektiv planlar işlənib hazırlanır rəhbərliyə təqdim olunurdu. Bu sahədə işlərimiz çox olurdu. Ona görə ki, tədqiq elədiyimiz sahələr problemli sahələr idi. SSRİ dövründə təhsildə müəyyən irəliləyişlər olmasına baxmayaraq, bu sahə həmişə problemlərin çox olduğu sahələrdən biri idi. Mənim bu qurumda gördüyüm işlər kifayət qədər məsuliyyətli, həm də deyərdim ki, şərəfli iş idi.

İş görən adama həmişə iş tapılır. İş isə fəaliyyətlə, əməklə, zəhmətlə müşaiyət olunur. Bəzən xırda, hətta gərəksiz bildiyimiz işlər çox böyük işlərə başlanğıc olur. O vaxtlar respublikada müxtəlif mövzularda seminar və konfranslar keçirilirdi ki, insanlarımızın, gənclərimizin formalaşmasında o tədbirləri vacib hesab etmək olar və təhsil sahəsində belə tədbirlərin keçirilməsi həmişə mənim maraq dairəmdə olub.

Respublikada təhsilin inkişafı demək olar ki, Təhsil Nazirliyinin iqtisadiyyat idarəsi ilə birbaşa bağlıdır. Təhsil Nazirliyində, uşaq baxçalarında qrupların sayı, ümumtəhsil məktəblərində şagird kontingentinin sıxlığı, peşə məktəblərində, texnikumlarda, ali məktəblərdə və s. sahələrdə tələbə qəbulu planları, gənc mütəxəssislərin müqavilələr əsasında işlə təmin olunması, təhsil müəssisələrinin maddi texniki-təchizatı, onların maliyyələşdirilməsi bilavasitə iqtisadiyyat idarəsinin əsas

vəzifələrindən biri hesab edilirdi. Təhsildən sonra ali və orta ixtisas məktəblərini bitirmiş və istehsalatda çalışan gənc mütəxəssislərlə iş aparmaq üçün ali və orta ixtisas məktəblərində xüsusi işçi qrupu fəaliyyətdə idi ki, onlarla ali və orta ixtisas məktəblərini bitirdikdən sonra bir il ərzində əlaqə saxlayır və onlara qayğı göstərilirdi. Onlar üçün mütəmadi olaraq seminarlar və konfranslar təşkil olunurdu. Bu işlərin təşkilatçılığı bilavasitə mənə- Bəybala Xankişiyevə tapşırılmışdı. Radio və Televiziyada vaxtaşırı çıxışlar edirdim. Kadr hazırlığında, bilavasitə tədris işində fəal iştirakım olurdu. Beləliklə, mənim tələbəlik dövründən bu yana gördüyüm işlərin, iş yerlərimin, daşıdığım vəzifələrin qrafikini cızmalı olsaq belə bir mənzərə alınar. 1963-cü ildən hələ Bakı Dövlət Universitetinin tələbəsi ikən Bakı axşam Neft Texnikumunda "Müəssisələrin istehsalının təşkili və iqtisadiyyatı" fənnindən dərs demişəm. Texnikumda Pedaqoji və müəllimlik fəaliyyətim 1974-cü ilə qədər davam edib. 1966-cı ildən hal-hazıra kimi, Azərbaycan İqtisad Universitetində və respublikanın digər bir sıra ali məktəblərində aspirant, magistr, bakalavr pillələrində ayrı-ayrı fənlər üzrə mühazirələr və seminar məşqələləri aparıram.

Bakı Biznes Universitetində yeni "Maliyyə-kredit" kafedrası yaradılandan ona rəhbərlik (1996-2000-ci illərdə) etmişəm.

Azərbaycan Respublikası Prezidenti yanında Azərbaycan Dövlət İdarəetmə Akademiyasında "Maliyyə Nəzarəti", "Sığorta işinə dövlət nəzarəti" və s. mövzularda dövlət qulluqçularına mühazirələr oxumuşam. "Audit", "Maliyyə və uçot", "Audit və iqtisadiyyat", "Straxovoy polis" və s jurnallarda müxtəlif mövzularda elmi yazılarla çıxış etmişəm.

Yuxarıda qeyd elədiyim kimi, həmişə ictimai işlərdə də fəal iştirak etmişəm. 1963-cü ildə Bakı Axşam Neft Texnikumunda həmkarlar ittifaqının sədri, 1966-cı ildə DOSAF-da Təftiş Komissiyasının iki dövr (1975-ci ildən 1995-ci ilə qədər)Ali, Elm və Maarif işçiləri həmkarlar ittifaqının, Respublika Komitəsində təftiş Komissiyasının sədri seçilmişəm.

Naxçıvan musiqi məktəbi, Lənkəran musiqi məktəbi, Azərbaycan İnşaat Mühəndisləri institutu (indiki Memarlıq və İnşaat Universiteti), Gəncə Texnologiya Universiteti, Gəncə Avtomobil Texnikumu, Naxçıvan Dövlət Pedoqoji İnstitutu (indiki Naxçıvan Dövlət Universiteti), Azərbaycan Dövlət Xalq Təsərrüfatını idarəetmə institutu və s. ali və orta ixtisas məktəblərinin yaradılmasında, ayrı-ayrı universitet və institutlarda yeni ixtisasların, kafedra və fakültələrin açılmasında əməyim olub.

Mən 1999-cu ildə Maliyyə Nazirliyinə işləməyə gələndən sonra həmin ili Maliyyə Nazirliyi üzrə Yeni Azərbaycan Partiyasının Nəsimi rayon şöbəsinin ilk partiya təşkilatını yaradanlardan biri kimi, həm də idarə heyətinin birinci müavini seçildim. Indi geriyə dönüb keçdiyim həyat yoluma nəzər salanda mənə baş aşağılığı gətirə biləcək heç bir iş görmədiyimə görə tanrıma çox şükürlər edirəm. Azərbaycanda iqtisad elmi sahəsində az da olsa xidmətlərim olub. Bütün gördüyüm şərəfli işləri xalqım üçün eləmişəm. Elmi-pedaqoji fəaliyyətimdə yüksək ixtisaslı tələbələrimin yetişdirilməsində çəkdiyim zəhmətlər məni daha çox sevindirir. Bank, Maliyyə-kredit və digər sahələrdə çalışan çoxlu tələbələrimlə fəxr edirəm ki, onlar dünya standartlarına uyğun gələn ixtisas sahibləridirlər.

Bir müəllim kimi dərs prosesində, imtahanlar vaxtı tələbələrimlə münasibətimi sağlam, qarşılıqlı hörmət əsasında qururam. Tələbələrimdən həmişə müəllim adına hörmət görmüşəm. Hətta xeyli əvvəl tələbələrimin biri mənə öz hörmətini şeirlə ifadə eləyib, təbii ki, indi arxivimdən tapdığım bu şeir parçasını bəlkə də heç şeir adlandırmaq da olmaz, amma bu şeir parçası tələbəmin mənə qarşı olan səmimi hisslərinin ifadəsi olduğu üçün çox qiymətlidir.

Şeiri, 1994-cü ildə Az.DİU-nin Maliyyə-kredit fakültəsinin tələbəsi, mənə həsr edib:

Parlaq bir keçmişi vardır
Əcdadı əsl xandır,

Bizim Bəybala müəllim
Hörmətli bir insandır.

Eynəyinin dalından
Zəhmlə baxdığı an,
Düşünürsən: Vay aman!
Nə yaman zəhmlidir,
Beləsinin əlindən
Can qurtarmaq çətindir.

Gah danışır büdcədən,
Bəzən də ki, təftişdən,
Dərsdə səs-küy salanda
Dad çəkir bu millətdən.

Çox da yorma kəndini,
Onsuz da bilən bilir
Bilməyənsə birtəhər,
Öz başını girləyir.

Keçmişə çox aldanma,
Bu gün əsl bəy bizik.
Müəllim-zad deyilik,
Biz əsl bankirlərik.
Hələ cocuq da olsaq,
Bu günün sahibiyik.

“ Bu günün sahibləriyik” deməklə tələbə həm yarızarafat, həm də yarıciddi olsa da məlum bir həqiqəti doğrudan da sağlam gəncliyin cəmiyyətin gələcəyi olması fikrini ifadə etmiş olur. Gənclik bizim gələcəyimizdir, biz yaşlılar geniş həyat yolu keçmişlər də gənclərimizin, gələcəyiyik.. Çünki bu gələcək bizlərdən , bizlərin düzgün təlim-tərbiyəsindən başlayır.

AİLƏM HAQQINDA BİR NEÇƏ SÖZ

Hər quşun yuvası özünə doğma və əzizdir. Hər bir insan üçün ailə məhz belə isti yuvadır, ana qucağıdır. Dünya insanın həyata ilk göz açdığı yerdir. İnsan doğulduğu torpaqda, yurdda, böyüyür, qol-budaq atır. İnsanın doğulduğu məkan vətənin bir zərrəsi kimi onun ömrünə hopur, bu torpaqdan irəli gələn irsi xüsusiyyətlər insan beynində, yaddaşında iz salır- kodlaşır və Gələcək həyatında həlledici bir amil olur. Biz olduqca yurdsevər, vətənə bağlı bir xalqıq. Yurd-vətən hissi bizim qanınmızda-canımızdadır. Bu kökü qədimlərə gedən bir hiss kimi bütün türklərə məxsus bir xüsusiyyətdir. Biz vətəndə yaşayıb həyata göz açdığımız bir parça yurd -göbəyimiz kəsilən yerdən bir at mənzili o tərəfə qəriblik çəkən, qəribsəyən bir millətik, xalqıq. Qəriblik hissi bizim həyat fəlsəfəmizdə çox ciddi, ciddi olduğu gədər də maraqlıdır və araşdırılmalı bir məsələdir.

Ailə isə yurd üstə sığındığımız, ilk gözümüzü açandan ata-ana gördüyümüz, nənə-baba səsi eşitdiyimiz sirli-sehirli bir dünyadır.

Ailə bizim üçün hər şeydir: böyük mətləblərdir, gələcəkdir, uzaqlardan gətirdiklərimiz bir kök ağacıdır.

İndi mən ailə ilə bağlı fikirlərimi, gördüklərimi oxuyub-öyrəndiklərimi qələmə alsam böyük bir kitab alınar, kitab içində kitab olar. Odur ki, mən daha müxtəsəri, kəsə yolla getməyi lazım bilib öz ailəm atam-anam, övladlarım haqda qısa da olsa danışmaq istəyirəm.

Əvvəla onu deyim ki, mənim ailəm həmişə mənim qayğımı çəkib. Gərgin işdən sonra ailə üzvlərimin qayğısını hiss edib yorğunluğumun yox olduğunu çox görmüşəm. Bizim ailədə qarşılıqlı hörmət həmişə birinci yerdə olub və bu ailəmizə baş ucalığı gətirib. Mən ailədə qarşılıqlı hörməti, zəhmətkeşliyi dünyaya gəldiyim ailədən, atamdan, anamdan öyrənmişəm. Odur ki, ömrüm boyu onlara rəhmət oxuyuram. Əlbəttə, qədir bilməsək, bizim də qədrimiz bilinməz, çünki dünya həm də əvəz-əvəz dünyasıdır. Bunu unutmaq olmaz, bu keyfiyyətlər mütləq gənclərə aşılanmalıdır.

Atam Aslan Əhəd oğlu – bizim Qalaqayın kəndində dəmirçi Aslan kimi tanınırdı. O, çox zəhmətkeş, həm də olduqca zarafatcıl bir insan idi. Bir dəfə kəndə prokuror gəlir və klubda hüquq sahəsində maarifləndirmə ilə əlaqəli məruzə edir və soruşur ki, kimin sualı var. Atam əlini qaldırıb sualım var deyir. Sual belə olur: "Mən evlənən zaman zaks yox idi, kəbinimizi molla kəsmişdi. Indi həyat yoldaşım məni evdən çıxarır ki, çıx bu evdən get. Onun məni evdən çıxarmaq hüquq var, ya yox". Prokuror soruşur ki, neçə uşağınız var. Atam cavabında deyir ki, 5 uşağımız var. Daha sonra prokuror atamdan soruşur ki, bəs uşaqlar kiminlə qalmaq istəyir? Uşaqlar anası ilə qalmaq istəyir, -deyir atam. Prokuror da cavabında onda sənin həyat yoldaşının səni evdən çıxarmağa ixtiyarı çatar,- deyir. Klubda bir qaqqıltı qopur. Prokuror başa düşür ki, kişi zarafat edirmiş. O anlayır ki VVAQ şöbələrində izdivacı olmayan ailələrin möhkəmliyi həyat müdrikliyinə arxalanır.

Bir dəfə atamın köməkçisinin oğlu gəlib, atasını soruşanda kişi uşağa deyir ki, dünən atan sənə paltar almışdı, xoşuna gəldimi. Uşaq yox, atam mənə paltar alıb gətirməyib -deyəndə atam deyir ki, yəqin o biri arvaddan olan oğluna aparıb. Uşaq tez qaçıb eşitdiyini anasına nəql eləyir. Bunların evində qalmaqal baş verir. Kişi nə qədər çalışır ki, arvadını başa salsın, arvad inanmır ki inanmır. Axırda kişi arvadıyla bizə gəlir, atama deyir ki, bu gecə

biz yatmamışıq. Bizim bu arvadı başa sal ki, sən zarafat eləmisən. Əhvalatın sonu gülüşlə qurtarır.

Atam eyni zamanda xeyriyyəçi bir adam idi. Mən uşaq ikən o, evimizə özü ilə bir uşaq gətirdi və dedi ki, bu gündən Əliheydər adında bu oğlan sənin qardaşındı. Onlar iki qardaşdılar. Ataları müharibədə həlak olub, anaları isə xəstəlikdən vəfat edib. Əliheydərin atası atamın dostu olub. Atam mənə nə alırdısa, ona da eyni əşya alardı (məktəb çantası, ayaqqabı, corab və s.). Əliheydər uzun müddət bizim ailədə yaşadı. Sonralar böyük qardaşı gəlib onu öz yanına apardı.

Kəndimizdə Bahar adında qapı-qapı dilənən bir qadın var idi. Bahar bir dəfə bizim həyətə gəlmişdi. Atam o qadına bəsdir qapı-qapı gəzdin, -dedi, gəl bizim yay damını verirəm sənə orda yaşa nə qədər istəyirsən. Biz nə yesək sən də ondan yeyərsən.O da uzun müddət bizimlə yaşadı. Mən Bakıdan kəndə qayıdanda həm anama, həm də Bahar xalaya hədiyyə alırdım.

Mən Bakı Dövlət Universitetində oxuduğum zaman, həm də işləməyimə baxmayaraq, atam mənə hər ay poçt ilə 120 manat pul göndərirdi ki, birdən rüşvət-zad alarsan. Mən sənə özüm bu pulu rüşvət göndərirəm, -deyirdi. Mən atamdan çox mərdliklər görmüşəm və atam haqqında çox sayda xatirələr söyləyə bilərəm. O həmişə başına gələnlər haqda söhbət edəndə mənə ustalıqla dolayısı yolla nəsihətlərini çatdırardı. Mən onun sətir altı dediklərindən başa düşürdüm ki, həyatımda səhvlərə yol verməməli, zəhmətimlə dolanmalı və başqalarına qarşı xeyirxah münasibətdə olmalıyam.

1968–ci ildə mənə xəbər gəldi ki, atam meyvə dərərkən, ağacdan yerə yıxılıb. Mən tez kəndə getdim, şükürlər hər şey yaxşı qurtardı. O vaxtdan atam üçün hər il sentyabr ayında qurban kəsib qonşulara paylayırdıq. Atam 1974-cü ildə evdə xəstə yatırdı. Xəbər elədi ki, daha qurbanı kəsməsin. Həmən ili 87 yaşında dünyasını dəyişdi. Mənə elə gəlir ki, o həyatda ürəyi istəyən qədər-doyunca yaşadı. Ona görə doyunca deyirəm ki, o bizlərə çox

həqiqətləri öyrədib həyatdan köçdü.

Anam Nobar İskəndər qızı – atam kasıb kəndli ailəsindən olsa da anamın ata-babası imkanlı olublar. Anam gözü tox, tədbirli, mehriban bir qadın idi. Müharibədən sonrakı dövrdə hamı kimi bizim də dolanışığımız heç də yaxşı deyildi. O, süfrə başında təmkinlə hamıya yemək paylayardı, hiss edərdik ki, özünə heç bir şey qalmadı. Anam naharsız qaldığını bizə sezdirməz, özünü tox göstərərdi. Bütün analar kimi qayğımızı çəkər, bizə əsil arxa, dayaq olardı.

Atam mənə öz peşəsini öyrədib, məni də dəmirçi görmək istəyirdi. O, yaxşı bilirdi ki, peşə sahibi heç vaxt çörəksiz qalmaz. Anam onun əksi olaraq, qoy uşaq oxusun, - deyərdi. Elə də oldu, mən kənddə ata-anama ev işlərində kömək edir, həm də oxumağımdan qalmırdım. Odur ki, yuxarıda qeyd etdiyim kimi orta məktəbdən sonra Bakıya gəldim, əvvəl texnikumda, sonra isə ali məktəbdə təhsil aldım. Təhsil vaxtları yenə kəndə gəlib ev işlərində ailəmizə köməklik eləyirdim.

Bir gün anam məndən soruşdu ki, ay oğul, qonşular hey soruşur ki, oğlun nə peşənin sahibi olacaq. O zamanlar təbii ki, kənd yerlərində hamı istərdi ki, övladı müəllim, həkim, uzaqbaşı aqranom olsun. İqtisadçı peşəsinin nə olduğunu bilən az idi. Odur ki, iqtisadçının nə demək olduğunu praktik olaraq anama başa salmalı oldum. Anam nahara iki cücə kəsdirərdi, biri şorba üçün, digəri isə çığırtmalıq.

Bir gün anamdan xahiş elədim ki, bu gün günorta yeməyini mən hazırlayım. Mən iki cücə əvəzinə bir cücə tutdum. Cücənin qanadlarını, sümüklü yerlərini şorba üçün hazırladım, ətli hissələrindən isə çığırtma elədim. Bununla mən anama peşəmin məğzini izah etdim. O, iqtisadçılığın nə olduğunu başa düşdü. Əlbəttə, anam mənim gələcək peşəmlə sənətimlə fəxr eləməli olurdu, həm də narahatçılığını da gizlətmirdi. Deyirdi ki, oğul indi başa düşürəm ki, sənin işin məsrəfçiliyə qarşı olacaq. Elə Quranda da məsrəfçilik çox pis işlərdən sayılır. Sən öz işində həm möhkəm

olmalısan, həm də diqqətçil. Sovet hökuməti tələ quran adam kimidi, (bizim yerlərdə tələyə cələ də deyirlər) tez-tez gəlib tələsini yoxlar, iraq-iraq çalış tələyə düşmə. Anamın dedikləri sırğa kimi ömürlük qulaqlarımda qaldı. Rəhmətlik bir də deyərdi ki, gördün ki, milçək eyni yerə tez-tez qonur, demək o yer çirklidir. Çirkli yerdən xeyir gəlməz, oranı təmizləmək lazımdır. Əlbəttə, bunlar anamın həyatdan götürdükləri, həyat fəlsəfəsi idi.

1984-cü ilin mart ayında Novruz bayramı ərəfəsində kiçik dayım Ərrəhman mənə zəng elədi ki, bacım, Nobar xanım bizdədi, axşam bizə gələrsən. Mən dayımgilə getdim, anamla görüşdüb, xeyirdimi? - soruşdum. Adətən biz qohumlar, dayılar, bacı uşaqları bizlər hər il bayramda anamı yoluxmağa qedər, bayram payı apararddıq. Xüsusən mənim ildə bir neçə dəfə kəndə getməyim anamı narahat edərdi. Odur ki, bu Novruzu özü dayımla şəhərə gəlmək qərarına gəlir. Anamla öz evimizə gəldik. O ili Novruzumuzu şəhərdə anamla birgə keçirdik. Ancaq üç gündən sonra qan təzyigi artdı və anamın vəziyyəti pisləşdi. Onu kəndə apardıq və çox çəkmədi ki, o əbədi olaraq gözlərini həyata yumdu. Mən sonralar anladım ki, o doğmaları ilə vidalaşmaq üçün şəhərə gəlibmiş.

Yuxarıda dediyim kimi, anam gözütox, yetkin, həyatın bütün dərslərini mənimsəmiş bir insan idi. Ömrü boyu məsrəfçilik etmədi, hər çöpün qədrini, qiymətini bilirdi. O həm də həddən artıq qıyımçıl idi.

Anamın vəfatından sonra onun sandığından Nikolayın qızıl pulu, bir də mənim hər kəndə gələndə ona verdiyim xərclik bükülü halda çıxdı.

Mənə elə gəlir ki, anam da atam kimi həyatda doyunca yaşadı, ağlı-qaralı günlər gördü, ömür sürdü. Anam deyərdi ki, baban Əhəd bir gün atla evə gəlir, atdan düşür və yatağa girir, uşaqları yanıma çağırın, vəsiyyətimi eləmək istəyirəm, -deyir. 10-15 dəqiqənin içində vəsiyyətini eləyib, dünyasını dəyişir. O, da doyunca yaşayıb, həyatdan nakam getməyib. Anam deyərdi:

"Bizdə aşığ-aşığ oyunu var, qumar oyununun bir növüdür. Aşığ qumar oyunu zamanı çox qiymətli olur. Əgər oyunda istifadə edilmirsə, sadəcə olaraq adi sümükdür. Pul da elə bir şeydir. Əgər istifadə olunmasa sandıqda qalsa adi bir kağız parçası olur. Yox, əksinə istifadə olunursa (əsasən yaxşı məqsədlərə) onda pul qiymət kəşb edir. Ona görə də pulun düzgün istifadəsi çox böyük səmərə verir, öz yerində işlənmədikdə isə ancaq bədbəxtlik gətirir.

Əlbəttə pulun elmi, iqtisadi tərifləri çoxdur, bunlar öz yerində. Mən deyərdim ki pul necə xərclənməyi, hara xərclənməyi dəqiq sevir. Bunlar mənim anamdan əxz etdiyim qiymətli mühakimələrdir.

Həyat yoldaşım Gülarə İsgəndər qızı Kərimova - Azərbaycan Respublikasının Tovuz rayonunda Dönük Qırıxlı kəndində anadan olub. B.Lenin adına Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki Azərbaycan Pedoqoji Universitetinin) fizika–istehsalat, riyaziyyat fakültəsini bitirib. Uzun müddət Bakı Yüngül Sənaye Texnikumunda müəllimə vəzifəsində işləyib. 1964-cü ildə ailə qurmuşuq və hal-hazırda birgə yaşayırıq. Dörd uşağımız, altı nəvəmiz var. Uşaqlar – Məlahət, Səadət, Sevinc, Arzu. Nəvələr – Nubar, Teymur, Əlibəy, Nazlı, Ayşən, Xəlil. Nubar "Memar", Əlibəy "Maliyyə" ixtisası üzrə Azərbaycan Memarlıq və İnşaat universitetində, Teymur isə "Neft və qaz" ixtisası üzrə Azərbaycan Neft Akademiyasında təhsil alırlar.

Qızım Məlahət – Azərbaycan Dövlət Tibb İnstitunun (indiki Azərbaycan Tibb Universiteti) müalicə fakültəsində təhsil alıb, hazırda Azərbaycan Fövqəladə Hallar Nazirliyi sistemində həkim vəzifəsində çalışır.

Qızım Səadət – Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) riyaziyyat fakültəsində təhsil alıb. Hal-hazırda Azərbaycan Dövlət Pedoqoji Universitetində dosent vəzifəsində çalışır.

Qızım Sevinc – Azərbaycan Dövlət Neft–Kimya İnstitutunda (indiki Azərbaycan Dövlət Neft Akademiyası) iqtisad

fakultəsində təhsil alıb və hazırda Bank sistemində işləyir.

Qızım Arzu – Azərbaycan Respublika Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında bakalavr, İngiltərənin Nottingem Trent Universitetində magistr təhsili alıb, hazırda Azərbaycan – İngiltərə birgə müəssisəsində fəaliyyət göstərir.

XEYİRXAHLARIM

Mənim həyatım boyu tale qarşıma yaxşı adamlar çıxarıb. Göydə tanrı, yerdə atam-anam bir də yaxşı adamlar mənə həyatda düzgün yola yönəldiblər.

Sözümün əvvəlində, elm yolunda mənə göstərilən qayğılardan söz açmışdım. Xüsusən Moskva alimlərinin xeyirxaxlığından, onlardan aldığım təəssüratlardan danışmışdım. Bir ziyalı kimi yetişməyimdə Azərbaycan alimlərinin, müəllimlərimin, işlədiyim iş yerlərində vəzifə adamlarının mənə göstərdikləri qayğılar, xeyirxahlıqlar isə həddən çoxdur. Əgər bunları təfərrüatıyla qələmə alsam, yenə də deyirəm, kitab içində kitab alınar.

Amma xeyirxahım olmuş adamlardan bəziləri haqda bir qədər geniş danışmaq istəyirəm.

Tuqay Qənbər oğlu Rəhimov – Tuqay müəllimlə mənim tanışlığım Bakı Maliyyə-Kredit Texnikumunda təhsil aldığım dövrə təsadüf edir. Mən texnikumu 1958-ci ildə bitirən zaman o artıq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Baş Dövlət Sığorta İdarəsinin rəis müavini vəzifəsində işləyirdi. Həmin dövrdən başlayaraq o mənə atalıq qayğısı göstərirdi.

Mən texnikumun "Dövlət büdcəsi" ixtisasını bitirdiyimdən sığorta sahəsini mükəmməl bilmirdim. O mənə sığortanın incəliklərini öyrədir, həm də ürək-dirək verirdi ki, çətinliklərdən qorxmayım. Məni Baş Dövlət Sığorta idarəsində müfəttiş vəzifəsinə işə götürdülər və həm də kursa göndərdilər ki, sığorta işinin təşkili qaydalarını incəliklərinə qədər öyrənim. Tuqay müəllimin özü bu işə şəxsən nəzarət edirdi. Sonralar mənə

Sabirabad rayonu Sığorta müfəttişliyində baş mühasib vəzifəsi təklif olundu. Mən razılıq verdim, əmrim verildi və işə başladım. Tuqay müəllm mən rayonda işləyndə də məsləhətlərini, qayğısını məndən əsirgəmirdi. O, sığorta sahəsini çox mükəmməl bilən bir mütəxəssis idi özü də Moskva Maliyyə İnstitutunda təhsil almışdı. Sonralar bizim münasibətlərimiz ata-oğul münasibətlərinə çevrildi.

Tuqay müəllim mənim həyat qurmağımda da da yaxından iştirak edib. Atamla birgə elçiliyimdə oldu, bizə xeyir- dua verdi. Mən həyatda nə qazanmışamsa, hansı təcrübəyə malik olmuşamsa bu onunla bağlıdır; Sabirabaddan Bakıya gəlməyim, Bakı şəhərində onun qohumlarının evinə qeydiyyata alınmağım, Maliyyə Naziri B.Baxşəliyevlə tanışlığım, onun həyat yoldaşı Sənubər xanımın (Xalq Təsərrüfatı İnstitutunda Xarici dil kafedrasının müdiri işləyirdi) mənə oğul, qızları Amalya, Nüşabə, oğlanları Rəfael və Babək isə həmişə qardaş demələri və s.

Tuqay müəllim çox səmimi, mehriban, qonaqsevən, qohumlar və işçilər arasında sevilən gözəl insan idi. Ona zəng etsəydin, ancaq cavabı can eşidərdin. Onların evindən heç vaxt qonaq əksik olmazdı. Sənubər xanım yaxşı şüyüdplov hazırlayardı. Bir dəfə kafedrada müəllimlərə deyir ki, Bəybala mənim oğlumdur. Müəllimlərdən biri, Sənubər xanımı kənara çəkib soruşur ki, sənin Tuqay müəllimindən əvvəl başqa ərin olub? Bu söhbəti eşidənlərin hər biri qəh-qəhə çəkib gülür. Sənubər xanım deyərdi ki, oğul, mən sənlə balam kimi fəxr edirəm. Mən artıq onların ailəsinin bir üzvünə çevrilmişdim.

Mən bir hadisəni xüsusi ilə vurğulamaq istəyirəm. 1983-cü ildə Tuqay Qənbər oğlu Rəhimov dünyasını dəyişəndə vəsiyyətinə görə biz onu anadan olduğu Şuşa şəhərinə apardıq. Dəfn mərasimində çox adam iştirak edirdi. Bakıdan bir-neçə avtobusla çıxmışdıq. Mən özümlə ehsan vermək üçün lazımı qədər pul götürmüşdüm. Yeməkxananın müdirinə yaxınlaşdım və xahiş etdim ki, rəhmətliyin böyük oğluyam, xərclərin pulunu ancaq

məndən alın. Müdir məni içəri dəvət elədi, kassadan bir konvert çıxartdı və dedi ki, bunu rəhmətlik Tuqay müəllim bir ay qabaq Şuşaya gələndə verib, kim məni ziyarət eləsə xərclərini bu konvertdən hesablayarsan, - deyib. Tuqay müəllim belə bir insan idi. Allah ona rəhmət eləsin!

İllər keçsə də heç vaxt onun şəxsiyyətini, mənə elədikləri yaxşılıqları unutmaram.

Mən 2004-cü ildə Azərbaycan Respublikası Maliyyə Nazirliyində dövlət sığorta nəzarəti şöbəsinə rəhbərlik edən zaman nazirin razılığı ilə Bakı şəhərində onun qohumlarının, yaxınlarının və sığorta sahəsində çalışan işçilərin iştirakı ilə Tuqay Qənbər oğlu Rəhimovun 90 illik yubiley gecəsini təşkil etdim.

İndi mənim bir müqəddəs arzum var; Şuşa düşmən tapdağından azad edilsin və mən ora gedib Tuqay müəllimin qəbri üstünə tər qərənfillər düzüb onu ziyarət edim.

Qurban Həsən oğlu Əliyev – Mənim həyatımda rastlaşdığım, iş həyatımda gördüyüm, birgə çalışdığım və ən çox görüb-götürdüyüm insanlardan biri, bəlkə də birincisi Qurban müəllim olub. Qurban Əliyev nazir olanda mən Xalq Təsərrüfatı İnstitutunda baş mühasib işləyirdim. 1975-ci ildə aspiranturanı bitirdikdən sonra məni Maliyyə Nazirliyinə idarə rəisi vəzifəsinə dəvət etdilər. İşdən azad olmaq üçün Ali və orta Təhsil Nazirliyinə ərizə yazdım. O vaxtlar işdən çıxmaq istəyənlərin ərizələrinə nazir özü dərkənar qoyardı. Bir gün ərizəmlə bağlı Qurban Əliyev məni yanına dəvət etdi və işdən getmək istəməyimin səbəbini bilmək istədi. Mənimlə 45 dəqiqə söhbət apardı. Sən demə o mənim bilik səviyyəmi yoxlayırmış. Sonra o təkidlə məni rəhbərlik etdiyi nazirliyin plan-maliyyə şöbəsinə müdir təyin etdi.

Bir dəfə Nazirlər Sovetinə təqdim etmək üçün məktub hazırlamışdım. Məktubu nəzərdən keçirən Qurban müəllim məndən icazə istəyərək iki yerdə düzəliş apardı, məktubu bir də diqqətlə nəzərdən keçirməyimi xahiş etdi. Mən nazirin dediklərini yerinə yetirdim, amma düzəlişlərin biriylə razılaşmadım. Açığını

desək nazirlə razılaşmamaq o gədər də düzgün iş deyil. Təbii ki, nazirin dedikləri yerinə yetirilməlidir. Onu da deyim ki, nazir Qurban Əliyev bütün tapşırıqlarını xahiş formasında verərdi. Bu xüsusiyyət onun böyüklüyündən irəli gəlirdi. Səhəri gün öz iradımı ona bildirdim. Qurban müəllim gülüb: "səndən xoşum gəldi, biz burada iş yoldaşıyıq, işin xeyrinə mübahisə etməli, bir-birimizi anlamalıyıq, ən düzgün qərarı verməliyik. Bundan inciməyə heç birimizin haqqı yoxdur," - dedi. Qurban müəllim belə sadə bir insan idi. Onun daxili enerjisi, iş qabiliyyəti, ən doğrunu seçmək bacarığı, işçilərlə polemikaya girə bilmə vərdişləri, bir də aristokrat tərbiyəsi hamımıza sirayət edir, xasiyyətimizə yüksək keyfiyyətləri aşılayırdı. Mən Qurban müəllimlə dəfələrlə səfərdə olmuşam. Bir dəfə Şuşada, Stepanakert musiqi məktəbinin filialında olduq. Filialın müdiri şikayət edərək bildirdi ki, Stepanakertdən həmişə onların işlərinə müdaxilə edilir. Onların sərbəst işləmələrinə mane olurlar (axı Şuşa xanəndələr, musiqişunaslar diyarıdır). Qurban Əliyev bu məsələni SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyində müzakirəyə çıxararaq həmən filialın sərbəst, müstəqil musiqi Texnikumu kimi fəaliyyət göstərməsi üçün icazə aldı. Şuşa şəhəri düşmən tapdağında olduğundan Hazırda həmən musiqi texnikumu Bakıda fəaliyyətini davam etdirir.

O zaman Lənkəranda Pedoqoji məktəb vardı. Qurban müəllimlə birlikdə Lənkərana səfərə getmişdik. Lənkəranlıların xahişini nəzərə alan nazir həmən məktəbin nəzdində məktəbəqədər tərbiyəçi ixtisası şöbəsinin açılmasına nail oldu. O vaxtlar hər bir məsələ Moskva ilə razılaşdırılırdı. Bu çətinliklərə baxmayaraq Qurban Əliyev o dövrdə bir sıra ali və orta təhsil ocaqlarının, o cümlədən, Azərbaycan İnşaat Mühəndislər İnstitutunun, Gəncə Texnologiya İnstitutunun, Naxçıvan Pedaqoji İnstitutunun, Xarici Dillər İnstitutunun, Naxçıvan və Lənkləran musiqi texnikumlarının, Bakı, Gəncə, Sumqayıt şəhərlərində bir sıra texnikumların yaradılmasına nail oldu.

Qurban Əliyev 1987-ci ildə təqaüdə gedəndə mənə yarızarafat, yarı ciddi: "Bəybala, sənin qələmindən çox şey asılıdır, qələmin "yox" desə, təhsil müəssisəsinin işində problemlər yaranar, əgər "hə" desə, təhsil ocaqlarına həyat bəxş edər. Sən də çalış həmişə qələmin "hə" desin. Çünki bu, millətin xeyrinə olar", - dedi.

Bu sözlər vəzifədən gedən insanın bir töhfəsi-məsləhəti idi. Çünki, o həmişə xalqı üçün çalışan bir ziyalı idi. Mən Qurban Əliyevdən həmişə mehribançılıq, dostluq, qardaşlıq, atalıq qayğısı görmüşəm.

Tanrıdan ona rəhmətlər diləyirəm

Baxşəli Həsən oğlu Baxşəliyev – Baxşəli Baxşəliyev Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Baş dövlət sığorta idarəsinin rəisi işləyirdi. Mən o vaxtlar Bakı şəhəri Kirov rayonunda (indiki Binəqədi) sığorta müfəttişliyində müfəttiş vəzifəsində işləyirdim. O vaxtlar iş həm çətin idi, həm də nəqliyyat vasitələri olmadığından uzaq kəndlərə gedib-gəlmək əsil qəhrəmanlıq idi. Xırdalan, Hökməli, Masazır, Fatmai, Digah, Goradil və s qəsəbələr mənim işlədiyim sahə idi. Şəraitinin çətinliyini nəzərə alıb işdən getməyim üçün ərizə yazdım. Baxşəli müəllim məni yanına çağırdı, bir neçə sual verdi, işdən getməməyi məsləhət elədi sonra göstəriş verdi ki, Bəybala Xankişiyevin əmək haqqını artırsınlar. Mənə işə davam etməyi tövsiyə eldib, məni gələcəkdə Maliyyə Nazirliyinə işə götürəcəyinə söz verdi.

Müdrik insanlar haqqında fikir söyləmək o qədər də asan iş deyil. Mən onunla 27 il (1960-1987) demək olar ki, daima təmasda olmuşam.

Azərbaycan Respublikasının iqtisadiyyatının inkişafında Baxşəli Baxşəliyevin böyük xidmətləri olmuşdur.

Bu da inkar olunmaz həqiqətdir ki, yetmişinci – səksəninci illər Azərbaycan maliyyəsinin inkişaf dövrüdü. Heç şübhəsiz bu uğurların qazanılmasında, iqtisadiyyatın inkişafında və idarə olunmasında, təşkilində onun rolu az olmadı.

Mənim onunla daha yaxın münasibətdə olduğum 1975-1987-ci illərə təsadüf edir. O, vaxt mən Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyində plan-maliyyə idarəsinin rəisi vəzifəsində çalışırdım.

Həmin dövrdə Dövlət büdcəsinin layihəsi əvvəl Respublika Nazirlər Sovetində, sonra Mərkəzi Komitədə bəyənildikdən sonra razılaşdırılmaq üçün Moskvaya-SSRİ Maliyyə Nazirliyinə göndərilirdi. Moskvanın öz tələbləri, öz ölçü-biçisi var idi. Cari və perspektiv planları əsaslandırmaq heç də asan iş deyildi. Bunun üçün həm bilik, həm də nüfuz tələb olunurdu. SSRİ Maliyyə Nazirliyində çalışan işçilər yüksək ixtisas almış, uzun müddət xarici ölkələrdə təcrübə keçmiş, səriştəli insanlar idi. Onlardan maliyyə məsələlərini aşırmaq heç də asan iş deyildi. Bunu yalnız Baxşəli Baxşəliyevin təşəbbüsü, onun verdiyi tövsiyyələri, məsləhətləri ilə həll etmək mümkün idi. Onun SSRİ Maliyyə Naziri Qarbuzovla dostluq əlaqəsi də var idi.

Hər il Dövlət büdcəsinin müzakirəsi zamanı SSRİ Maliyyə Nazirliyinin binasında onun üçün ayrıca iş otağı ayrılırdı. Nazirliyin ayrı -ayrı idarələrində müzakirə zamanı yaranmış fikir ayrılıqları yarandıqda mütləq özü iştirak edərdi. Əgər Dövlət büdcəsinin layihəsində nəzərdə tutulmuş vəsaitlərin qəbul edilməsinə nail ola bilməsəydik biz ona şəxsən məruzə edirdik və səbəbini aydınlaşdırırdıq. Çox sərt söhbətlər olardı. Bununla yanaşı onun sadəliyi, həssaslığı və qayğıkeşliyi insanda ona qarşı həmişə xüsusi inam və dərin ehtiram duyğusu yaradırdı.

O, Respublikanın təhsilinin inkişafına xüsusi qayğı göstərərdi. Bakı İnşaat Mühəndislər İnstitutunun, Gəncə Texnologiya İnstitutunun və bir sıra yeni texnikumların yaradılmasında onun xüsusi xidməti çox idi. O, həmişə deyərdi, o tədbirlər ki dövlət tərəfindən qanunla müəyyən olunub onun həyata keçməsi üçün həmişə maliyyə vəsaiti olmalıdır.

Axırıncı dəfə onunla 1987-ci ilin noyabr ayının 6-da telefonla danışdıq. Qurban Əliyevlə birlikdə vaxtımızı xoş

keçirmək üçün sakit bir yerdə əyləşməsini xahiş etdim. O, isə oğul, noyabr bayramından sonraya qalsın,-deyin.

1987-ci ilin noyabrın 10-da artıq o həyatda yox idi. Allah ona rəhmət etsin!

Əliyev Şahrza Hacı oğlu və Quliyev Rövşən Hənifə oğlu – mən bu iki şəxsi heç vaxt bir-birindən ayıra bilmərəm. Ona görə ki, onların hər ikisi mənim üçün çox əzizdirlər. Hər ikisi 1961-ci ilin yanvar ayında Rövşən Füzulidə, Şahrza isə Lerik rayonunda dünyaya göz açıblar. Mən Ali və Orta İxtisas Təhsili Nazirliyində işləyən zaman Nazirlik sistemində iqtisadçı kadrlara ehtiyac var idi. Məhrum Nazir Qurban Əliyevdən xahiş etdim ki, o mənə icazə versin ki, təyinatla nazirlik sistemində işə qəbul etmək üçün Azərbaycan Xalq Təsərrüfat İnstitutundan on (10) nəfər gənc mütəxəsssis seçim. İnstitutun gənc mütəxəssislərinin bölgü komissiyasında iştirak etdim. Heç kimin müdaxiləsi olmadan əlaçı tələbələrə bizim nazirlik sistemində işləmələrini tövsiyə etdim. Bunların içində mənim diqqətimi Şahrza Əliyev xüsusi olaraq cəlb etdi. O məndən soruşdu ki, bizə nə qədər əmək haqqı ödəniləcək. O vaxtlar sıravi mütəxəssislərin əmək haqqı aşağı idi. Mən: "əlavə əmək haqqı almaq üçün sizə dərs yükü verərlər", - dedim. Beləcə onları işə götürdük. Sonralar həmin on nəfər gənc mütəxəssis ali və orta ixtisas məktəblərində işlə təmin olundular. İki ildən sonra onlardan iki nəfərini - Şahrza və Rövşəni aparata işə qəbul etdik. Bu iki gənc mütəxəssis gül kimi açıldılar. Şahrza maliyyələşmə, Rövşən isə planlaşma (proqnozlaşma 5-10 illər üçün) sahəsində püxtələşərək öz bacarıq və istedadlarını göstərdilər. Sovetlər dövründə kadr hazırlığının planlaşdırılması Moskvada SSRİ Dövlət Plan Komitəsində, Təhsil Nazirliyində, maliyyələşməsi isə SSRİ Maliyyə Nazirliyində razılaşdırılırdı. Mənimlə hər il Şahrza və Rövşən Moskvaya gedər orada planlaşma və maliyyələşmə məsələlərinin müdafiyəsində iştirak edərdilər. Onlar qısa müddət ərzində plan-maliyyə məsələlərini dərindən öyrəndilər. Artıq onlar sərbəst olaraq ittifaq əhəmiyyətli

tədbirlərdə iştirak edirdilər. Onlar axşam gecə saatlarına qədər işləyirdilər, yorulmaq nə olduğunu bilməzdilər. Şahrza mənimlə birlikdə Azərbaycan Dövlət İqtisad Universitetində dərslik və dərs vəsaitinin hazırlanmasında, yazılmasında iştirak edərək elmi-tədqiqat işi ilə məşğul olmağa başladı. Sonralar Şahrza Əliyev alimlik dərəcəsi almaq üçün mənim rəhbərliyimlə "Kadr hazırlığı xərclərinin uçotu və təhlili mövzusunda" dissertasiya işini kafedraya təqdim etdi. 1997-ci ildə müdafiə edərək iqtisad elmləri namizadi alimlik dərəcəsi diplomuna layiq görüldü. Onlar ailə başçılarıdılar. Şahrzanın oğlu İqtisad Universitetində, qızı isə Moskva Dövlət Tibb Universitetində, Rövşənin qızı isə Dövlət İqtisad Universitetində təhsil alırlar. Rövşən Quliyev 1992-ci ildən əvvəllər Bank sistemində, sonralar isə iş adamı olaraq istehsal sahəsində Azərbaycan Respublikasının quruculuğunda və onun inkişafında, yeni iş yerlərinin yaradılmasında fəal iştirak edir. Şahrza və Rövşənin uğurları məni həmişə sevindirir. Mənim onlardan istəyim odur ki, onlara yeni-yeni uğurlar qazansınlar, can sağlığı, ailələri ilə birlikdə xoşbəxt olsunlar.

DƏRC OLUNMUŞ ƏSƏRLƏR VƏ ELMİ MƏQALƏLƏR

1. «Улучшить учет в вузах» (статья). Бухгалтерский учет. Издательство «Финансы» г. Москва, 1971 г, 0,3 çap vərəqi

2. «Бухгалтерский учет в бюджетных учреждениях и некоторые вопросы его совершенствование» (статья), сборник статей аспирантов и диссертантов АзИНХа м.Д.Буниатзаде, г. Баку, 1972 г. 0,6 çap vərəqi

3. «Büdcə idarələrində smeta xərclərinin icrasına dair balans və hesabatların təhlil metodikası» (məqalə), SSRİ-nin yaranmasının 50 illiyinə həsr olunmuş «Təsərrüfat islahatların iqtisadi problemləri» mövzusunda Respublika simpoziumunun tezisləri. 1972-ci il, 0,7 çap vərəqi.

4. «Askota-170» modelli mühasibat maşını» (məqalə), Azərbaycan Xalq Təsərrüfatı İnstitutu, Elmi əsərlər, Bakı şəhəri, 1972-ci il, 0,8 çap vərəqi.

5. «Askota-170» modelli mühasibat maşını» (metodiki vəsait), Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun nəşriyyatı, Bakı 1972-ci il, 2,5 çap vərəqi.

6. «Büdcə idarələrində uçotun mexanikləşdirilməsinin gələcək inkişaf yolları» (məqələ), «Hesablama texnikası vasitələrinin tətbiqi» mövzusunda Respublika yığıncağının tövsiyələri, 1973-cü il, 0,3 çap vərəqi.

7. «Büdcə idarələrində uçotun mexanikləşdirilməsi

şəraitində təftiş və nəzarət» (məqalə), Azərbaycan Xalq Təsərrüfatı İnstitutu, Elmi əsərlər, 1974-cü il, 0,4 çap vərəqi.

8. «AH və orta ixtisaslı mütəxəssislərin hazırlanmasının planlaşdırılması və maliyyələşdirilməsi» (məqalə), Azərbaycan Xalq Təsərrüfatı Institutu, Elmi əsərlər, 1974-cü il 0,3 çap vərəqi.

9. «Büdcə idarə və müəssisələrində mühasibat uçotu» (dərs vəsaitı), Azərbaycan Xalq Təsərrüfatı İnstitutu, 1979, 5,0 çap vərəqi.

10. «Kibernetika möcüzələr yaradır» (məqalə), «Elm və həyat» jurnalı №5, 1980, 0,2 çap vərəqi.

11. «Optimallaşma iqtisadi inkişafın əsas mərhələlə-rindən biridir» (məqalə), «Azərbaycanın xalq təsərrüfatı» jurnalı №1,1983, 0,25 çap vərəqi.

12. Kalkulyasiya, mühasibat balansı, sintetik uçot. smeta, smeta dəyəri, qalıq, mühasibat uçotu, memorial order, kassa planı, material balansı, materialların normallaşdırılması, nağdsız hesablaşmalar və s. (kitabın bölmələri), Azərbaycan Sovet Ensiklopediyası №5-8, 1981-1982-ci illər, 1,0 çap vərəqi.

13.«Оптимизация взаимосвязи производства, заготовки, хранения, переработки, транспортировки и реализации сельскохозяйственных продуктов» (статья), Тематический сборник научных трудов в АзИНХа им. Буниад-заде, 1982, г. Баку, 0,35 çap vərəqi.

14. «Ərzaq proqramı və onun həyata keçirilməsi», «Elm və həyat» jurnalı, №11, 1982, 0,1 çap vərəqi.

15. «Рациональное использование ЭВМ - важный источник совершенствования системы управления” (статья), Сборник статей АзИНХа им.Буниадзаде, 1983, г. Баку, 0,5 çap vərəqi.

16. «Сосредоточение усилий всего коллектива”, (статья), Вестник высшей школы, г.Москва №, 1984, 0,1 çap vərəqi.

17.«Вопросы оптимизации качества товаров” (статья),

Тематический сборник научных трудов АзИНХа им.Буниадзаде, г.Баку, 1984,, 0,5 çap vərəqi.

18. «Kadr hazırlığının planlaşdırılmasının və təkmilləşdirilməsinin elmi-texniki tərəqqinin sürətlənməsində rolu» (məqalə), «Azərbaycan Xalq Təsərrüfatı» jurnalı №5, 1985, 0,8 çap vərəqi.

19. «О совершенствовании связи высшей школы с производством в области проведения Научно-Исследовательская Работа" (тезисы), «Актуальные проблемы укрепления связей обучения с производством (материалы межвузовского учебно-методического семинара совещания)>>, Баку, 1985, 0,1 çap vərəqi.

20. «Научно-технический прогресс и совершенствование связи обучения с производством» (статья), «Актуальные проблемы укрепления связей обучения с производством (материалы межвузовского учебно-методического семинара совещания), Баку, 1985, 0,1 çap vərəqi.

21. «Экономическое и социальное развитие Баку» (высшая школа и наука, статья), «Экономическое и социальное развитие», г.Баку, (1981-1985гг), 1982г, издательство «Коммунист» для служебного пользования, 1,6 çap vərəqi.

22.«Учитывая потребность отраслей» (статья), Вестник высшей школы, N 10, 1985г. ,от 13-15, 0,4 çap vərəqi.

23. «К вопросу совершенствования планирования подготовки и использования специалистов» (статья), Материалы Республиканской Научной Конференции организационно-экономические проблемы формирования и реализации научно-технической политики в регионе. Секция проблемы формирования и эффективного использования научного потенциала (28-29 ноября), Баку, 1985г, 0,2 çap vərəqi.

24. «Научно-технический прогресс и совершен-

ствование экономической подготовки инженерных кадров» (статья), Вопросы совершенствования экономической подготовки инженеров в техническом вузе (материалы Республиканской научно-методической конференции), г.Баку, 1985, 0,4 çap vərəqi.

25. «Azərbaycanın ali və orta ixtisas təhsili 1976-1983-cü illər» (statistik məcmuə), Azərbaycan Xalq Təsərrüfatı Institutu, 1984, 4,2 çap vərəqi.

26. «Azərbaycan SSR-də Respublika tabeliyində olan nazirliklərdə və baş idarələrdə rəhbər işçilərin və mütəxəssislərin ixtisasının artırılmasının planlaşdırılması üzrə metodiki göstəriş» (metodiki vəsait), Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, 1986, 4,0 çap vərəqi.

27. «Azərbaycan SSR ali və orta ixtisas təhsili on birinci beş illikdə və onun inkişaf perspektivlərinin iqtisadi-statistik təhlili» (kitab), Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili Nazirliyi, Xidməti istifadə üçün, 1986, 4,0 çap vərəqi.

28. «Büdcə uçotu və hesabatı» (kitab), Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun nəşriyyatı, 1987, 6,75 çap vərəqi.

29. «EHM tətbiq etməklə respublika gənclərinin perspektiv bölgü balansının tərtibi üzrə metodiki tövsiyələr» (metodiki vəsait), Azərbaycan SSR Ali və Orta ixtisas Təhsili Nazirliyi, 1987, 1,0 çap vərəqi.

30. «Прогностическая балансовая модель распределения молодежи республики по средам системы образования» (статья), «Народное хозяйство Азербайджана» N2, 1987г. ,г. Баку, 0,5 çap vərəqi.

31. «Respublika ali məktəblərində mütəxəssislərin hazırlanmasının kompleks planlaşdırılması» (məqalə), «Azərbaycanın xalq təsərrüfatı» jurnalı №6, 1987, 0,25 çap vərəqi

32. «Respublikada kadr hazırlığının və təhsil sisteminin perspektiv inkişafının planlaşdırılması» (məqalə), «Azərbaycanın xalq təsərrüfatı» jurnalı N 3, 1988, 0,25 çap vərəqi.

33. «Комплексная программа научно-технического прогресса Азербайджанской ССР на 1991-2010 гг. (по пятилетиям) проблемного раздела «высшая школа» (книга), Министерство народного образования Азербайджанской ССР, Баку, 1990г, 4,0 çap vərəqi.

34. «Təhsil sisteminin bəzi sosial-iqtisadi problemləri» (məqalə), «Azərbaycan məktəbi», jurnalı №4, 1991, 0,5 çap vərəqi.

35. «Ali təhsilli mütəxəssislərdən necə istifadə olu-nur» (məqalə), «İqtisadiyyat və həyat» jurnalı N1, 1991, 0,2 çap vərəqi.

36. «Respublikada kadr hazırlığı və təhsil sisteminin ınkişaf perspektivləri problemləri» (məqalə), «Xalq təhsilinin inkişafı problemləri» (elmi əsərlərin mövzu məcmuəsi), BDU nəşriyyatı, 1991, 0,25 çap vərəqi.

37. «Tədris müəssisələri, idarə və təşkilatlarda dövlət büdcəsi vəsaitindən istifadənin təhlili» (məqalə), «Xalq təhsilinin inkişaf problemləri», (elmi əsərlərin mövzu məcmuəsi), BDU, 1991, 0,25 çap vərəqi.

38. «Структурные изменения в подготовке специалистов для народного хозяйства с учетом требований н ТП) (статья), проблемы народного образования (тематический сборнику научных трудов) из-во Бакинского Университета, 0,25 çap vərəqi.

39. «О проблемах планирования образования в условиях рыночной экономики», статья, журнал «Игтисадият и хаят» №8, 1999г. Баку, 0,35 çap vərəqi.

40. «Проблема занятости населения Республики в условиях перехода к рыночной экономике» (статья), журнал «Игтисадият и хаят», 1991 г, Баку, 0,5 çap vərəqi.

41. «Alternativ təhsil və elmi əsaslandırılmış təhsil» (məqalə), Respublika elmi-praktiki konfransının tezisləri, ADİU, 0,1 çap vərəqi.

42. «Формирование базы данных специалистов с высшим и средним специальным образованием и ис-

пользование ее для прогнозирования подготовки кадров), Международная Конференция экономики и управления высшей школой 12-14 мая 1992г, г.Красногорск, материалы конференции, стр. 143-144, 0,05 çap vərəqi.

43. «Azərbaycan Respublikasında xalq təhsili». 1990-1992-ci illər (məqalə), AzQGİ Bakı şəhəri, 1992, 2,0 çap vərəqi.

44. «Təhsil sisteminin bəzi sosial problemləri», «Azərbaycan məktəbi» jurnalı №5, 1992,0,3 çap vərəqi.

45. Совершенствовании налоговой системы Азербайджана в области стимулирования экономики) (статья), «Audit» jurnalı №4, 2001, 5 səh.

46. «İstehsal edilmiş məhsul (iş və xidmətlər) üzrə xərclərin uçotu poblemləri», «Maliyyə və uçot» jurnalı N1, 2002, 4 səh.

47. «Büdcə və elmi idarələrdə mühasibat uçotu», dərs vəsaiti, Bakı, 1992, BDU, 8,75 çap vərəqi.

48. «Maliyyə orqanlarında büdcə uçotu və nəzarəti», dərs vəsaiti, ADİU, Bakı, 1996, 2,0 çap vərəqi.

49. «Büdcə və elmi idarələrdə mühasibat uçotu», dərslik, ADİU, Bakı, 1996, 9,5 çap vərəqi.

50. «Qiymətəmələgəlmə», dərs vəsaiti, BBU, 1998, 2,4 çap vərəqi.

51. «Dövlət maliyyəsi», dərs vəsaıti, BBU, 1998, 3,75 çap vərəqi.

52.«Bazar iqtisadiyyatına keçid şəraitində kommersiya bankı», dərs vəsaiti, BBU, 1998, 4,75 çap vərəqi.

53. «Büdcə uçotu», dərs vəsaiti, BBU, 2000, 12,5 çap vərəqi.

54. «Müasir şəraitdə yüksək ixtisaslı peşəkar mühasiblərin hazırlanması problemləri», ADİU, Bakı, 1997, Konfrans materialları tezisləri, 0,01 çap vərəqi.

55. «Fiskal maliyyə siyasətinin təkmilləşdirilməsi problemləri», Azərbaycan Respublikası EA, Azərbaycan XXI

əsrin astanasında Respublika Elmi-praktik Konfransı, Bakı, 1997, 0,01 çap vərəqi.

56. «Azad iqtisadiyyata keçid şəraitində qiymət siyasətinin bəzi istiqamətləri», Azərbaycan Respublikası EA, Azərbaycan XXI əsrin astanasında Respublika Elm praktik Konfransı, Bakı, 1997, 0,01 çap vərəqi.

57. «Bazar iqtisadiyyatı beynəlxalq standartlara uyğun informasiyalar tələb edir», ADİU, ET Konfrans tezisləri, Bakı, 1997, 0,01 çap vərəqi.

58. «Müasir bazar iqtisadiyyatı münasibətləri tələblərinə uyğun büdcə idarə və təşkilatlarında büdcədənkənar vəsaitlərin bəzi məsələləri», ADİU, ET Konfrans məruzələrinin tezisləri, Bakı, 1997, 0,01 çap vərəqi.

59.«Bazar iqtisadiyyatına keçid dövründə ali və orta ixtisas təhsil məktəblərinin maliyyələşdirilməsi məsələləri», ADBU, ET Konfransın tezisləri, Bakı, 1998, 0,01 çap vərəqi.

60. «Bank kredit verərkən kompaniyaların qiymətləndirilməsinin bəzi məsələləri», Azərbaycan XXI əsrin astanasında, II Respublika Elmi praktik konfransının materialları, Bakı, 1998, 0,1 çap vərəqi.

61. «Təhsilin maliyyələşdirilməsinin bəzi məsələləri», ADİU, Elmi praktiki Konfransmın materialları, Bakı, 1997, 0,1 çap vərəqi.

62. «Bazar iqtisadiyyatına keçid dövründə audit xidmətinin maliyyə resurslarının formalaşmasında rolu», «Audit» jurnalı №1, Bakı, 1999, 0,3 çap vərəqi.

63. «Yeni iqtisadi şəraitdə Azərbaycanda kiçik və orta sahibkarlığın inkişafı». Mövcud problemlər və ona dövlət köməyinin xüsusiyyətləri, «Audit» jurnalı №3, 2000, Bakı, 0,3 çap vərəqi.

64. «Bankların maliyyə nəticələrinin təhlili», «Audit» jurnalı №3, 2000, Bakı, 0,1 çap vərəqi.

65. «Azərbaycanın monetar siyasətinin inkişafı» (rus

dilində), «İqtisadiyyat və Audit» jurnalı №3, Bakı, 2001, 0,3 çap vərəqi.

66. «İqtisadi subyektlərə investisiya qoyulması», «Audit» jurnalı №2, Bakı, 2002, 0,2 çap vərəqi.

67. «Azərbaycanda beynəlxalq maliyyənin valyuta münasibətləri və onun iqtisadiyyata təsiri», «Müstəqil Azərbaycan Respublikası üçüncü minilliyin birinci yüzilliyində» mövzusunda elmi praktik konfransının tezisləri, 26 may 2001, MEA İU, Təhsil Nazirliyi, BBU, 0,2 çap vərəqi.

68. «Təftiş və nəzarət kursunun proqramı», ADİU, 1996, 0,5 çap vərəqi.

69. «Təftiş və nəzarət kursunun proqramı» (rus dilində), ADİU, 1996, 0,5 çap vərəqi.

70. «Dövlət büdcəsi kursunun proqramı», BBU, 1997, 0,5 çap vərəqi.

71.«Büdcə uçotu və hesabatı kursunun proqramı», ADİU, 1997, 1,0çapvərəqi.

72. «Maliyyə-kredit» ixtisası üzrə IY kurs tələbələrinin diplomqabağı istehsalat təcrübəsinin proqramı», BBU, 1998, 1.0 çap vərəqi.

73. «Sığorta işi fənni üzrə proqram», BBU, 1998, 0,3 çap vərəqi.

74. «Dövlət sığorta fənninin proqramı», BBU, 1998, 0,7 çap vərəqi.

75. «Büdcə uçotu fənninin proqramı», BBU, 1998, 0,9 çap vərəqi.

76. «Qiymətli kağızlar fənninin proqramı», BBU, 1998, 0,3 çap vərəqi.

77. «Beynəlxalq valyuta və kredit münasibətləri», BBU, 1998, 0,3 çap vərəqi.

78. «Bank uçotu fənninin proqramı», BBU, 1998, 0,3 çap vərəqi.

79. «Müəssisələrin maliyyəsi fənninin proqramı», BBU,

1998, 0,8 çap vərəqi.

80. «Qiymətlərin əmələgəlmə fənninin proqramı», BBU, 1998, 0,3 çap vərəqi.

81. «Statistika fənni üzrə proqram», BBU, 1998, 0,3 çap vərəqi.

82. «Pul, kredit və banklar fənni üzrə proqram», BBU, 1998, 0,3 çapvərəqi.

83. «Bank işi fənni üzrə proqram», BBU, 1998, 0,3 çap vərəqi.

84. «Əmanət işi fənninin proqramı», BBU, 1998, 0,3 çap vərəqi.

85. «Pul, kredit əməliyyatları fənni üzrə proqram», BBU, 1998, 0,3 çap vərəqi.

86. «Maliyyə» fənni üzrə proqram», BBU, 2001, 0,3 çap vərəqi.

87.«Büdcə prosesi və büdcə təsnifatı» dərs vəsaiti. ADİU, Bakı 2002. 4,87 çap vərəqi.

88. «Azərbaycan Respublikasının «Büdcə sistemi haqqında» Qanunu və 2003-cü ilin dövlət büdcəsi» «Audit» jurnalı N4, 2002. Bakı, 0,1 çap vərəqi.

89. «Maliyyə nəzarəti» dərs vəsaiti. ADİU, Bakı 2002. 5,8 çap vərəqi.

90. «Maliyyə» dərslik AZDİU. Maliyyə kafedrasının əməkdaşları ilə birlikdə, V fəsil, maliyyə nəzarəti. Bakı 2001. 1.87 çap vərəqi.

91. «Финансовый менеджер, его рол и функции в деятелъности предприятия» «Audit» jurnalı №4 Bakı 2003. 5 səh.

92. «Azərbaycan Respublikasında Əmlak sığortasının təşkilinin mövcud problemləri və təkmilləşdirilməsi»" «Audit» jurnalı, №2,3. Bakı 2003 səh 5.

93. «Dövlət büdcəsinin kəsiri və dövlət borcunun idarə edilməsi" «Audit» jurnalı № 1, Bakı 2004. 4 səh.

94. «Sığorta işi» dərs vəsaiti «Adiloğlu nəşriyyatı» Bakı 2004. 11,6 çap vərəqi.

95. «Dövlət maliyyəsinin idarə edilməsinin bəzi məsələləri» «İqtisadiyyat və Audit jurnalı» № 2. Bakı 2004. 4 səh.

96. «Maliyyə bazarının tənzimlənməsinin bəzi məsələləri» «İqtisadiyyat və Audit jurnalı» № 7. Bakı 2004. 4 səh.

97. «Sığorta» (hamı üçün) «Adiloğlu nəşriyyatı» Bakı 2005. 4,6 çap vərəqi.

98. «На пути к совершенству» «Руский Полис» журнал о страховании № 7 июль, Москва 2005, 2 стр.

99. «Молодо –не зелено» «Руский Полис» журнал о страховании № 2 февралъ, Москва 2005, 2 стр.

100. Sığorta fəaliyyətinin əsasları «İqtisad Universiteti» nəşriyyatı Bakı 2006. 17,1 çap vərəqi.

101. Sığorta təşkilatlarında marketinq işinin təşkili şərtləri. «Audit» jurnalı №-4 Bakı 2006. 4 səh.

102. Azərbaycan Respublikasında milli sığorta bazarının inkişaf tempi. «Maliyyə və uçot» jurnalı №-1 2006. 5 səh.

103. Sığorta təşkilatlarının fəaliyyətinə dövlət nəzarəti. «Maliiyə və uçot» jurnalı №-12 2006. 5 səh.

104. Taking the right approach. "The İnsurer" (Magazine for European İnsurance Markets) jurnal № 1 2005-ci il 2 səh.

105. Sığorta haqqında bir neçə söz. "Azərbaycan məktəbi" jurnalı. 2007-ci il № 2. 0,3 ç.v.

106. Dövlət maliyyəsinin idarə olunmasının bəzi məsələləri. "Maliyyə və uçot" jurnalı № 7 2007-ci il 0,5 ç.v.

107. Azərbaycanın sosial-iqtisadi inkişafında H.Əliyevin siyası irsi. "Maliyyə və uçot" jurnalı. 2008ci il Xüsusi buraxılış. 0,3 ç.v.

108. Büdcə proqnozlaşdırılması problemləri. "Audit" jurnalı №2-3. 2008-ci il 0,3. ç.v.

109. Büdcə proqnozlaşdırılmasında maliyyə bazarının

rolu. “Audit” jurnalı № 4. 2008-ci il 0,25 ç.v.

110. Dövlətin uçot siyasəti və onun büdcə proqnozlaşdırılmasıda rolu. “Audit” jurnalı № 1. 2009-cu il 0,5 ç.v.

Müdriklərdən kiminsə sözüdür: dünyada elə adam tapılmaz ki, kitab yazmaq bacarığı olmasın. Bu sözlərdən aydın olur ki, kim istəsə oturub kitab yaza bilər, amma kitab yazmaq hamıya nəsib olmur. Bu da ona görədir ki, hamı özündə yazmaq qabiliyyətini aşılaya bilmir, ya bu əziyyətə dözmək istəmir, ya da heç vaxt bu barədə düşünmür.

Mən bir də həyatımdan ona görə razıyam ki, taleyimə kitab yazmaq payı qismət oldu. Uzun illər pedaqoji fəaliyyətim zamanı çoxlu sayda kitablar yazmışam. Kitablarımın çoxu dərs vəsaiti kimi qəbul olunub, tələbə -müəlim kollektivinin elm-təhsil adamlarının karına gəldi. Mən bütün həyatım boyu praktiki təcrübəmi, qazandığım nailiyyətləri elmdə nəzəriyyəyə tətbiq edə bilmişəm. Bəlkə də sahə üzrə yazdığım elmi kitabların dəyəri bir də bu dediklərimlə bağlıdır.

Açığını desək iqtisadiyyatın sırf təsərrüfatla, praktika ilə bağlı elmi araşdırmaları bizim sahə üzrə demək olar ki, yeni idi. Bu sahədə boşluqların doldurulması üçün gördüm işləri dəyərli hesab eləyə bilərəm.Əlbəttə, mən çox istərdim ki, bu dediklərim özündən razılıq kimi qəbul edilməsin. Bu sahədə boşluqlar hələ çoxdur və mən əminəm ki, gələcəyimiz olan tələbələrim, gənclik daha fundamental əsərlərlə elmə gələcək, tədqiq olunmayan sahələri bir daha araşdıracaqlar.

Mənim indiyə qədər yazdığım kitabların, broşyuraların, dərslik və dərs vəsaitlərinin müxtəlif respublika və o zamankı ümumittifaq dövrü mətbuatında, jurnallarda çap etdirdiyim məqalələrin, məşğələlərin hətta oxuduğum mühazirələrin sayı həddən artıq dərəcədə çoxdur. Bu barədə hörmətli oxucular kitabda verilən “Dərc olunmuş əsərləri və elmi məqalələri”

bölümündən tanış ola bilərlər.

Bir də onunla fəxr edirəm ki, bizim nəsildə Qalaqayın kəndindən çıxmış ziyalılar çox olub. Onların arasında kitab müəllifləri də var, elmi əsərlər ortaya qoyan alimlər də yetişib. Elə bilirəm ki, bu ənənə-gələcəkdə də davam eldəcək, arxamızca gələn nəsillər elm işini davam etdirəcəklər.

Bu arada ulu babam Xankişinin qızı, babamın bacısı Güllü nənəmin oğlu İsrafil Adış oğlu Dəmirov haqda bir neçə söz deməyi özümə borc bilirəm. Elə yerinə düşər ki, böyük peyğəmbərimiz Həzrəti-Məhəmməd Əleyhissalamın bir-bir sözünü xatırlayaq: "Üləmaya hörmət qoyun, onlar peyğəmbərlərin varisləridir, Allah və onun Rəsuluna hörmət alimlərə hörmət deməkdir". Elm-bilik, ədəbiyyat, fəlsəfə, nücum sahəsində eləcə də digər yaradıcı adamlar haqda çox dahilər, üləmalar sözlər söyləyib, fikirlər səsləndiriblər. Məhz belə alim insanlardan biri Azərbaycan əczaçılarının müəllimi, ağsaqqal, respublikanın əməkdar əczaçısı İsrafil Adış oğlu Dəmirovdur. Professor İ.Dəmirov 1909-cu ildə Sabirabad rayonunun Qalaqayın kəndində anadan olub. 1930-cu ildə Bakı Əczaçılıq Texnikumunu, 1937-ci ildə Leninqrad əczaçılıq İnstitutunu bitirib. Pillə-pillə həm vəzifə, həm də elm yolunu addımlayıb.

O, uzun müddət Lelinqrad Əİ-nun farmakoqonoziya kafedrasının müdiri, professor A.F.Qammermanla elmi-pedaqoji sahədə sıx əməkdaşlıq edib. Professor Dəmirov Tibb İnstitutunda farmakoqonoziya kafedrasının 50 ilə qədər müdiri vəzifəsində çalışıb. Onun elmi işlərində Xalq təbabətindən istifadə, onun elmə tətbiqi məsələsi öncül yerlərdə durub.

1941-1945-ci illər-Böyük Vətən müharibəsi illərində İ.A.Dəmirovun işləyib hazırladığı üsula əsasən yabanı nardan limon turşusunun və sonra hematologiyada geniş istifadə olunan natrium-sitratın istehsalı təşkil edilmişdir.İ.A.Dəmirovun üsuluna əsasən yovşandan santonin istehsalı zavod miqyasında həyata keçirilirdi. İsrafil Dəmirovun 250-dən çox elmi əsərləri, həm

respublikamızda, həm də xaricdə nəşr edilmişdir. Onun "Azərbaycanın dərman bitkiləri", "Dərman bitkiləri", "farmakoqonoziya", "Maraqlı bitkilər", "Dərman otlarını necə yığmaq olar", "Kimya və təbabət", "Müalicəvi bitkilər" daha neçə-neçə dərs vəsaitləri, monoqrafiyaları, kitabları çap edilib.

İsrafil müəlimin geniş həyat təcrübəsi var idi.O, Azərbaycan Tibb elmi sahəsində misilsiz işlər görən bir alim idi. O, həm də geniş ictimai aləmdə tanınan bir ağsaqqal idi.

Uzun müddət ADTİ-nun əczaçılıq fakültəsinin dekanı vəzifəsində çalışmışdı. Bir alim kimi daşıdığı ictimai vəzifələrin də siyahısı geniş idi. Ümumittifaq Əczaçılar Elmi Cəmiyyəti Rəyasət heyətinin üzvü, Azərbaycan Əczaçılarının Elmi Cəmiyyətinin sədri, Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin "Farmakologiya və Xalq Təbabəti Elmi-İstehsalat Birliyi" nin Elmi Şurasının üzvü, Aptek Şurasının və Nazirliyin əczaçı kadrların attestasiya komissiyasının üzvü, həmçinin 1-ci Moskva Tibb İnstitunun müdafiə üzrə İxtisaslaşdırılmış Elmi-Şurasının üzvü kimi məsul vəzifəni daşıyırdı.

İsrafil müəllimin yüzlərlə yetirməsi indi əczaçılıq və tibb sahəsində yorulmaz fəaliyyətdədilər.

Əlbəttə, gənc nəslin, gələcəyimizin belə insanları tanımağı çox vacibdir. Israfil müəllim kimi alimlərin keçdikləri zəngin həyat yolundan, təcrübəsindən bəhrələnmək gəncliyimizin bir nömrəli işi olmalıdır. Odur ki, belə alimlərimiz haqda tez-tez yazılmalı, radio-televiziya verlişləri hazırlanmalıdır. Mənim bu kitabımda İsrafil müəllimi xatırlamağım xeyirxahım olmuş bir qohumum kimi də borcumdur.

Yuxarıda qeyd elədiyim kimi, mən Bəybala Aslan oğlu Xankişiyev xeyli sayda əsərlərin müəllifi olsam da, hörmətli oxucularımla sığorta ilə bağlı kitablarım haqda bir qədər geniş danışmaq istərdim.

Mənim "Sığorta" adlanan və hamı üçün nəzərdə tutulan kitabım 2005-ci ildə işıq üzü görüb. Bu kitaba qədər tələbələrimlə

apardığım mühazirələrdə sığorta ilə əlaqədar çox söhbətlərim, hətta mətbuatda çap etdirdiyim yazılarım olub. Qeyd elədiyim kimi, "Sığorta" bir elm sahəsi olaraq Azərbaycan İqtisadiyyatında çox da qocaman deyir.

Mən burada Ümummilli Liderimiz Heydər Əliyevin 1995-ci ildə Londonda "Adam Smit" Universitetindəki nitqindən sitat gətirmək istəyirəm: "Sığorta" –Azərbaycan üçün nisbətən yeni və axıra qədər öyrənilməyən sahədir. Biz şübhəsiz ki, sığorta işini inkişaf etdirməliyik, lakin bu işi düzgün və peşəkarcasına yerinə yetirməliyik.

Ulu öndərimizin bu dedikləri məni "Sığorta" ilə bağlı fikirlərimi cəm eləməyə, kitablarımı nəşr etdirməyə ruhlandırdı. Bu kitabda sığortanın mahiyyəti, əhəmiyyəti, sığortanın cəmiyyətdə rolu, sığorta haqqında qısa tarixi məlumat, Azərbaycanda sığortanın inkişafı, eləcə də, digər aktual məsələlər öz əksini tapmışdır. Kitabdan mütəxəssislər, alimlər, tələbələr və eyni zamanda əhali istifadə edə bilər. Çünki bu kitab, həm də geniş cəmiyyət üçün nəzərdə tutulub. Hər bir kəsin sığorta haqqında bilməsi, daha geniş biliklərə yiyələnməsi çox vacibdir, ona görə ki, sığorta günümüzün tələbi olub, bizim yaşayışımız üçün bir zəmanətdir. Belə ki, hər bir kəs özünün bu yolla maddi eləcə də, mənəvi təhlükəsizliyini qoruya bilər. İndi dünyada, demokratik cəmiyyətdə başqa cür yaşamaq mümkün deyil. Hər bir kəs cəmiyyət qanunlarını bilməli və qanunlardan öz xeyrinə istifadə etməyi bacarmalıdır.

Bütün dünyada olduğu kimi Azərbaycanda da, "Sığorta" haqqında qanunlar işlənib hazırlanıb, konsititusyamızda təsbit olunub özü də dünyanın ən sivil qanunları səviyyəsindədir. Bizim sığorta ilə bağlı qanunvericilikdə 25-ə qədər maddə və qanunlar Azərbaycan vətəndaşının xidmətindədir. Təbii ki, "Sığorta" adlı kitabımda bu maddələrin geniş izahı verilib.

Sosial sığorta nəzərdə tutulmuş hallarda vətəndaşların itirilmiş əmək haqlarının, gəlirlərinin və əlavə xərclərinin

kompensasiya edilməsinə, habelə itirilməsinin qarşısının alınmasına yönəldilmiş təminat formasıdır.

Sığorta həm də böyük bir mədəniyyətdir. Dünya xalqlarının əldə etdiyi, yetişdiyi nailiyyətlərdən biridir. Mən bu kitablarımda dünyanın, eləcə də Avropanın sığorta sahəsindəki qabaqcıl rolundan, mövqeyindən danışmışam. Dünyanın qazana bildiyi sivil qanunlar məhz Avropanın, Almaniyanın, Böyük Britaniyanın, Fransanın, eləcə də, Amerikanın sığorta qanunlarında təsbit olunub, insanın və vətəndaşın xidmətindədir.

Mərkəzi və Şərqi Avropa ölkələrinin sığorta bazarları 90-cı illərdən sonra inkişaf tempi ilə fərqləndi. Demək olar ki, Polşada sığorta bazarı ən böyük yer tutur. Mərkəzi və Şərqi Avropanın sığorta bazarında həyat sığortası üzrə sığorta haqları yığımının 51%-i (1,484 mlrd, ABŞ dol) digər sığorta növlərinə isə 51% (3,04 mlrd ABŞ dol) tək Polşanın payına düşür.

Müstəqil Dövlətlər birliyinin sığorta bazarı da son illərdə inkişaf tempi götürüb. Baltikyanı ölkələrdə sığorta haqlarının satabil artım da daim yüksəlir. Sığorta haqlarının artımı ümumiyyətlə dövlətlərin ümumi inkişaf səviyyəsi və əhalinin sayı ilə izah edilir.

Sığortanın ilk formalarının yaranması, çox qədim zamanlara gedib çıxır. Hətta quldarlıq zəmanəsində də elə bugünkü sığorta qaydalarına əsaslanan könüllü sazişlər olub. Bu xüsusən Azərbaycan ərazisində, türk xalqı arasında geniş yayılıb ki, bu da milli xarakterlə, sözün bütövlüyü ilə daha çox əlaqəlidir.

Azərbaycanda ilk sənədli sığortalar XIX əsrin ortalarında tətbiq edilməyə başladı, inqilaba qədər Bakıda sığorta işinin əsas hissəsini Xəzər dənizdə üzən gəmilərin sığortası təşkil edirdi.

Sığortanın növlərini sadəcə sadalamaqla bu söhbətə yekun vurmaq istəyirəm. Çünki bunları hər bir kəsin bilməsi vacibdir. ”Tibbi sığorta”, “Həyat sığortası”. “Əmlakın yanğından və digər risklərdən sığortalanması”, “Bədbəxt hadisələrdən sığorta” və.s. növlərindən əhali geniş istifadə edir və beləliklə də neqativ

hadisələrdən sığortalanmış olur.

Elmi və pedaqoji sahədə sığorta ilə bağlı tələbatı nəzərə alıb 2006-cı ildə daha təkmil "Sığorta fəaliyyətinin əsasları" adlı dərs vəsaitini çap etdirdim.Bu kitab əsasən Azərbaycan Dövlət İqtisad Universitetinin dərs vəsaiti hesab olunur. Kitab Azərbaycan Respublikası Təhsil Nazilriyinin 31 may 2006-cı il tarixli 409 saylı əmri ilə dərs vəsaiti kimi tövsiyə edilib.

Mən bu kitabın əziyyətləri, elmi yükü haqqında geniş danışmağı vacib saymıram, çünki bütün məsələlər, elmi araşdırmalar praktik və nəzəri problemlər bu kitabda çözülüb. Oxucuya bir onu etiraf etmək istəyirəm ki, bu kitab da ağır zəhmətlər, axtarışlar hesabına ərsəyə gəlib.

Çoxdandır ki, cəmiyyətimiz dünyanın bazar iqtisadiyyatına inteqrasiya şəraitində yaşayır. Artıq biz modern dünyanın adamlarıyıq. Gənclərimiz isə daha yeni və modern, hətta deyərdim ki, qloballaşmış bir dünyada yaşayacaqlar. Bəri başdan gələcəyimiz olan gənclərimizə sağlam ruhda böyümələrini, yeni-yeni texnologiyalara sahib ola biləcək bilik və vərdişlərə yiyələnmələrini, vaxta-zamana sahib olmalarını arzu edirəm. Bunun üçün hələ orta məktəb partasından başlayaraq bir çox qabaqcıl elmi vərdişlərə yiyələnmək üçün onları hazırlamaq gərəkdir.

Belə bir vacib məsələlərdən biri də sığorta, sığortanın təşkili növləri, sığorta bazarı, sığorta haqları kimi biliklərə yiyələnməlidir. Odur ki, bu mövzular orta məktəb dərsliklərinə salınmalı və tədrisi vacib olan məsələdir. Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikası Maliyyə Nazirliyinin Azərbaycan Təhsil Nazirliyinə ünvanlandığı 2004-cü il tarixli məktubun xüsusi əhəmiyyəti vardır. Məktubun məzmunu ilə tanış olun.

Bazar iqtisadiyyatına keçid şəraitində sığortanın təşkili prinsiplərində köklü şəkildə dəyişiklik edilməsi, sığorta bazarının formalaşması, sığorta xidmətlərinin genişlənməsi və onun keyfiyyətinin hərtərəfli şəkildə yüksəlməsi respublikamızda

istehsalın inkişafında mühüm rol oynayır.

Siyasi və iqtisadi stabillik yaranması nəticəsində xarici investisiyaların respublikaya daha çox həcmdə cəlb edilməsi sığorta işinin inkişafında zəmin yaratmşdır. Keçid dövründə sığorta xidmətləri çeşidinin genişləndirilməsi və sığorta maarifçiliyinin gücləndirilməsi əsas məsələlərdən biridir.

Sığorta fiziki və hüquqi şəxslərin gözlənilməz hadisələrdən müdafiəsi sistemində hələ də özünə layiqli yer tutumamış, insanların şüurunda siğortanın vacibliyi, onun üstün cəhətləri, sosial iqtisadi mahiyyəti barədə geniş informasiyaya nail olunmamışdır. Əhalinin müəyyən hissəsinin sığorta ilə bağlı məlumatları az olduğundan, təbii fəlakət və gözlənilməz hadisələr nəticəsində dəymiş zərərlərin ödənilməsi ilə əlaqədar bəzi problemlər yaranır.

Bütün bunlar sığorta maarifçiliyinin genişləndirilməsini zəruri edir. Bi işdə sığortanın tədrisi, xüsusilə də ümumtəhsil məktəblərində mühüm rol oynaya bilər.

Qeyd olunanlarla əlaqədar, nümunəvi tədris mövzularını baxmaq üçün Sizə təqdim etməklə, 2005/06-cı il tədris ilində nəzərə almağınızı xahiş edirik.

Azərbaycan Təhsil Nazirliyi Maliyyə Nazirliyinin bu töhfəsini qəbul elədi sığorta mövzusu orta məktəbin 9-cu sinifləri üçün nəzərdə tutulmuş insan və cəmiyyət proqramına daxil edilmişdir. Mən çox məmnunam ki, bu mövzu mənim “Sığorta işi” “Sığorta” (hamı üçün) kitablarımdan istifadə dərsliyə salındı.

SƏFƏRDƏ (EZAMİYYƏTDƏ) OLDUĞUM XARİCİ ÖLKƏLƏR

1. Bolqarıstan	1978-ci il Bolqarıstan İqtisad İnstitutunun professoru Marinin Neykovun dəvəti ilə qonaq sifətində (Sofiya, Rus, Qabrovo, Plovdiv, Varna və başqa şəhərlərində) olub.
2. Çexoslovakiya	1981-ci il. SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin rəsmi nümayəndə heyətinin tərkibində (nümayəndə)
3. Macarıstan	1984-cü il .SSRİ Ali və Orta İxtisas Təhsili Nazirliyinin rəsmi nümayəndə heyətinin tərkibində (nümayəndə)
4. Almaniya	1987-ci il. SSRİ Ali və Orta Təhsil Nazirliyinin Rəsmi nümayəndə heyətinin tərkibində (nümayəndə)
5. Kuba	1989-cu il. SSRİ Dövlət Təhsil Komitəsinin rəsmi nümayəndə heyətinin tərkibində (nümayəndə)

6. Türkiyə	1991-ci il. Azərbaycan SSR Xalq Təhsili Nazirliyinin rəsmi nümayəndə heyətinin tərkibində (nümayəndə)
7. Türkiyə	1992-ci il. Trabzon bölgəsi Ardvin şəhəri Azərbaycan Respublikası Xalq Təhsili Nazirliyinin Rəsmi nümayəndə heyətinin tərkibində (nümayəndə) (İstanbul, Bursa, Konya, Ankara şəhərləri)
8. Qazaxıstan	1995-ci il. Azərbaycan Respublikası adından nümayəndə kimi BMT-nin xətti ilə OESD-nin Beynəlxalq Konfransında iştirak edib.
9. İran	1996-cı il İran İslam Respublikasının davəti ilə Azərbaycan ziyalılarının tərkibində iqtisadçı alim kimi nümayəndə
10. Türkiyə	1996-cı il. BMT-nin xətti ilə OESD-nin «Beynəlxalq Uçot Standartları» mövzusunda seminar iştirakçısı.
11. Rusiya Federasiyası	1996-cı il BMT-nin xətti ilə OESD siyasi «Beynəlxalq Uçot Standartları» mövzusunda konfransda Azərbaycan Respublikasının nümayəndəsi

12. Moldova	1997-ci il BMT-nin xətti ilə OESD-nın «Beynəlxalq Uçot Standartları» mövzusanda konfransda Azərbaycan Respublikasının nümayəndəsi
13. Fransa	1998-ci il BMT-nin xətti ilə OESD-nin «Beynəlxalq Uçot standartları» mövzusunda konfransda Azərbaycan Respublikasının nümayəndəsi
14. Gürcüstan	1999-cu il. Qafqazda «Beynəlxalq Uçot Standartları»nı tətbiq etmək üçün məsləhətləşməyə məsləhətçi kimi dəvət olunub.
15. Yaponiya	2002-ci il. Makroiqtisadi idarəetmə və Yaponiyanın iqtisadi inkişaf təcrübəsi üzrə seminarda Azərbaycan nümayəndəsi kimi iştirak edib.
16. Türkiyə	2004-cü il Sığorta fəaliyyətinin təşkili, Beynəlxalq seminar. Azərbaycan nümayəndə heyətinin rəhbəri
17. İran	2005-ci il Sığorta işinin təşkili, Beynəlxalq konfrans.Azərbaycan nümayəndə heyətinin rəhbəri

Burada səfərdə olduğum ölkələr və bəzi səfərlərim haqda bir-iki kəlmə danışmaq istəyirəm.

Sovet Sosialist Respublikaları İttifaqı 1992-ci ildə dağıldıqdan sonra ilk dəfə idi ki, biz Təhsil Nazirliyinin

nümayəndələri: Arif Muradov, Ümumtəhsil və məktəbəqədər tərbiyə şöbəsinin müdiri, xarici əlaqələr, informasiya və kordinasiya şöbəsinin müdiri Həzrətqulu Ağabəyli və İqtisad şöbəsinin müdiri Bəybala Xankişiyev Türkiyə Respublikasına 20 günlük səfər etdik. Səfərdən əsas məqsəd Türkiyənin təhsil sistemi ilə tanış olmaq həm də , rusiya ilə qırılmış əlaqələri qardaş Türkiyə ilə bərpa etmək idi. Artıq Azərbaycan Respublikası, Rusiyaya müsabiqədən kənar tələbə qəbulu və tələbə mübadiləsi aparmırdı. Azərbaycan nümayəndələrindən başqa Orta Asiya ölkələrindən də: Qazaxıstan, Qırğızıstan, Özbəkistan və.s. respublikalardan iştirakçılar var idi. Tədbir iştirakçıları ilə birlikdə Türkiyənin İstanbul, Bursa, Əksişəhər, Anadolu, Konya və Ankara təhsil müəssisələrində olduq.

Nümayəndələri o dövrdə Türkiyənin baş naziri Süleyman Dəmirəl qəbul etdi.Türkiyənin Təhsil Nazirliyinin Kollegiyasında çıxışlar oldu. Qeyd etmək istərdim ki, o vaxtlar Türkiyə təhsil sisteminin maddi-texniki bazası, Azərbaycan təhsil sisteminin bazasından qat-qat üstün idi. Biz tələbə mübadiləsi aparmaq üçün niyyət protokolu imzaladıq. Hazırda isə Türkiyədə mübadilə yolu ilə təhsil alan tələbələrin sayı minlərlədir. Beləliklə, Türkiyə təcrübəsi karımıza gəldi.

1996-cı ildə mən 30 nəfər ziyalılardan ibarət nümayəndə heyətinin tərkibində İran İslam Respublikasında təcrübə mübadiləsi aparmaq məqsədi ilə 15 günlük səfərdə olmuşam. Səfərdə əsas məqsəd İran Respublikasının iqtisadiyyatının əsas aparıcı sahələrini öyrənməkdən ibarət idi. Bizim nümayəndələr Ərdəbil, Təbriz, İsvahan, Tehran, Məşhəd və.s. şəhərlərdə oldu. İranın elm, təhsil, səhiyyə, kənd təsərrüfatı, sənaye sahələrinin iş prinsipləri ilə tanış olduq. Şah rejimindən sonra İran respublikasının, sənaye, təhsil, səhiyyə, kənd təsərrüfatı və başqa sahələrinin inkişafı aydın hiss olunurdu. Bir sıra tarixi yerlərlə tanış olduq. Mənim Təbriz Universitetində iqtisad fakültəsinin azərbaycanlı tələbələri ilə çox səmimi görüşüm oldu.

İranda olarkən min hektarlarla meyvə, çuğundur plantasiyaları , heyvandarlıq, maldarlıq, qoyunçuluq fermaları, yeni Amerika, Avropa və.s. istehsal texnologiyaları ilə tanış olduq. Şəkər, süd məhsulları, şirə və.s. fabrikaları, elektrik stansiyaları ilə tanışlıq xüsusi əhəmiyyət kəsb etdi. Qeyd etmək istərdim ki, İranda kənd təsərrüfatı, xüsusilə süd sənayesi çox yüksək inkişaf səviyyəsindədir. İlan zəhərinin alınmasından əldə edilən gəlirlər çox yüksəkdir.

Qeyd etmək istəyirəm ki, bu sahənin təsərrüfat gəlirləri bizdə də böyük effekt verərdi, heyiflər olsun ki, bu sahəyə diqqət lazımi qədər deyildir. Ümumiyyətlə, mənim bütün xarici səfərlərim dövlət səviyyəli elmi və təcrübə mübadiləsi ilə bağlı olub. Adətən səfərdən qayıtdıqdan sonra televiziyada, mətbuatda və qəzet vasitəsi ilə çıxışlarım olub. Sonralar qazandığım təcrübə və biliklər elmi-konfranslarda, müşavirələrdə, tələbə auditoriyalarında fikir mübadiləsi ilə nəticələnib.

RƏHBƏRLİK ETDİYİM ASPİRANTLAR

1. Əliyev Şahrza Hacı oğlu	«Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində kadr hazırlığı xərclərinin uçotu və təhlili» mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət İqtisad Universiteti, 1997-ci il, 08.00.12. (ixtisas şifri)
2. Orucov İlkin Rövşən oğlu	«Bazar iqtisadiyyatına keçid şəraitində bankların fiziki şəxslərlə əməliyyatlarının təkmilləşdirilməsi yolları» mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət Iqtisad Universiteti, 2000-ci il, 08.00.10. (ixtisas şifri)
3. Məmmədov Fərid Aleksandroviç	«Bazar iqtisadiyyatına keçid şəraitində Bank sisteminin müəssisə və təşkilatların maliyyə vəziyyətinə təsirinin gücləndirilməsi» mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət Iqtisad Universiteti, 2001-ci il, 08.00.10.(ixtisas şifri)

4. Əliyev Müseyib	"Bazar münasibətləri şəraitində bankların fəaliyyətinin təkmilləşdirilməsi istiqamətləri" mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət iqtisad Universiteti, 2004-cü il 08.00.10 (ixtisas şifri)

ELMİ ŞURALARDA OPPONENTLİYİM

1. Əzizov Yalçın Saleh oğlu	«Keçid dövründə pul-kredit siyasəti dövlət tənzimlənməsi» İqtisad elmləri namizədi alimlik dərəcəsini iddia etmək üçün dissertasiya işi» 138, səh mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət «İqtisad İnstitutu» 2001-ci il, 08.00.10.(ixtisas şifri)
2. Əkbərov Malik Şahbaz oğlu	«Azərbaycan Respublikasında birbaşa vergilər və onların təkmilləşdirilməsi yolları». İqtisad elmləri namizədi alimlik dərəcəsini iddia etmək üçün dissertasiya işi. AzərbaycanDövlət iqtisad Universiteti, 2001-ci il, 08.00.10.(ixtisas şifri)

3. Şıxəliyev Mehman Məmmədismayıl oğlu.	«Zərərlə işləyən dövlət sənaye müəssisələrinin təsərrüfat fəaliyyətinin sağlamlaşdırılması problemləri». İqtisad elmləri namizədi alimlik dərəcəsini iddia etmək üçün dissertasiya işi. Azərbaycan RespublikasıMilli Elmlər Akademiyası "İqtisad institutu" 2001-ci il, 08.00.10.(ixtisas şifri)

RƏY VERMİŞ OLDUĞUM ƏSƏRLƏR, KİTABLAR VƏ DİSSERTASİYA İŞLƏRİ

1. Çingiz Nəbi oğlu Qurbanov	«Kommersiya banklarında mühasibat uçotu» adlı kitab, «Elm» nəşriyyatı, 1997-ci il, Bakı şəhəri, 17 çap vərəqi
2. Professor Vahid Novruzov	«Auditin əsasları» adlı kitab Azərbaycan Ensiklopediyası, «PPB» nəşriyyatı, 1997-ci il, Bakı şəhəri, 14,3 çap vərəqi
3. Professor İbad Abbasov	«Auditin nəzəri məsələləri» adlı kitab , «Elm» nəşriyyatı, 1997-ci il, 3,75 çap vərəqi
4. Dosent Qəhrəman Rəsul oğlu Rzayev	«Beynəlxalq mühasibat uçotu və audit» adlı kitab «Təhsil» nəşriyyatı, 2000-ci il, Bakı şəhəri, 10,75 çap vərəqi
5. Azərbaycan Respublikası Cəmiyyətləri İttifaqının Prezidenti Akif Əkbər oğlu Kərimov	«Sığorta» adlı kitab Sığorta QaPP «Poliqraf» nəşriyyatı, 2000-ci il, Bakı şəhəri, 15,5 çap vərəqi

6. Çaykovski Svetlana Timofeyevna	«Hesablama mərkəzlərinin sahə şəbəkələrinin tədqiqi və hazırlanması» (rus dilində) mövzusunda dissertasiya işi, Qazaxıstan SSR Alma-Ata Xalq Təsərrüfatı institutu, 1981-ci il, 08.00.13 (ixtisas şifrəsi)
7. V.V.Dolquşin	«Maşınqayırma müəssisələrində nəqliyyat tutulmalarının uçotu və istifadəsi»(rus dilində) mövzusunda dissertasiya işi RSFSR Moskva Maliyyə İnstitutu, 1973-cü il, 03.00.13 (ixtisas şifrəsi)
8. Viorel İvanoviç Çurkanu	«Moldova Respublikasında mühasibat uçotu islahatlarının prioritet istiqamətləri» mövzusunda iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işi, rus dilində. Moldova İqtisad Akademiyası, 1996-cı il, 08.00.12 (ixtisas şifrəsi)
9. G.Q.Çiramua	«Təsərrüfat fəaliyyətinin iqtisadi təhlilinin təkmilləşdirilməsi problemləri: nəzəriyyə, metodologiya, təcrübə» mövzusunda dissertasiya işi, Gürcüstan Dövlət Universiteti, 1998-ci il, 08.00.12 (ixtisas şifrəsi)

10. Abbasova Sevinc Ağaməmməd qızı	«Bazar iqtisadiyyatına keçid şəraitində istehsala məsrəflərin uçotunun və onların aşağı salınması ehtiyatlarının təhlilinin təkmilləşdirilməsi» mövzusunda iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işi, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, 2000-ci il, 08.00.12 (ixtisas şifrəsi)
11. Cavadova Mehriban Alim qızı	«Bazar iqtisadiyyatı şəraitində məsrəflərin uçotunun operativliyi və analitikliliyinin yüksəldilməsi» mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, 2000-ci il, 08.00.12 (ixtisas şifrəsi)
12. Səmədzadə Elşad Ziyad oğlu	«Bankların idarəetmədə rolu və onun səmərəliliyi problemləri» mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, 2000-ci il, 08.00.10 (ixtisas şifrəsi)
13. Oasımov Süleyman Mehralı oğlu	«Dənizdə neft və qazçıxarma sənayesində idarəetmə uçotunun təşkili problemləri və tətbiqi istiqamətləri» mövzusunda dissertasiya işi, Azərbaycan Dövlət İqtisadiyyat Universiteti, 2001-ci il, 08.00.12 (ixtisas şifrəsi)

14. Xələfov Elçin Abuzər oğlu	«Azərbaycan Respublikasında Bank fəaliyyətinin dövlət tərəfindən tənzimlənməsi » mövzusunda dissertasiya işi. Bakı Dövlət Universiteti, 2001-ci il, 12.00.02 (ixtisas şifrəsi)
15. Ataşov Bəyalı Xanəli oğlu	«Azərbaycan Respublikasının Ərzaq Kompleksinin formalaşmasının təşkilati-idarəetmə problemləri» mövzusunda iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim etdiyi dissertasiya işi, Bakı Dövlət Universiteti, 2001 -ci il 08.00.02 (ixtisas şifrəsi)
16. Manafov Qabil Nadir oğlu	«Sahibkarlıq fəaliyyətinim formalaşması və inkişafının elmi-praktiki problemləri» mövzusunda iqtisad elmləri doktoru alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı ADİU 2002. 08.00.01 (ixtisas şifrəsi)
17.Səlimov Rauf Ağaməmməd oğlu	«Проблемы реформирования официальной промышленной статистики Азербайджанской Республики в соответствии с международной практикой » mövzusunda iqtisad elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiya işi. Bakı BDU 2003. 08.00.11(ixtisas şifrəsi)

QƏZETLƏRDƏ ÇAP OLUNMUŞ MƏQALƏLƏR

1. «Rayonumuzun yetirmələri», «Muğan» qəzeti, Sabirabad şəhəri, 10 aprel 1980-ci il.

2. «Məktəb islahatı» «Azərbaycan müəllimi» qəzeti, Bakı şəhəri, 1985-ci il.

3. «Fəaliyyətini səmərəli işə sərf edir», «Ekonomist» qəzeti, Bakı şəhəri, 1989-cu il.

4. «Təhsilin proqnozlaşdırılması və planlaşdırılması» «Kommunist» qəzeti, Bakı şəhəri, 2 avqust 1990-cı il.

5. «Bizi sabah nə gözləyir?», «Azərbaycan müəllimi» qəzeti, N 81, 17 oktyabr 1990-cı il.

6. «Makroiqtisadi stabilləşmədə fiksal-maliyyə siyasətinin təkmilləşdirilməsi problemləri» «Vətəndaş» qəzeti, Bakı şəhəri, 1995-ci il.

7. «Bazar iqtisadiyyatı yeni uçot sistemi tələb edir» «Azərbaycan» qəzeti, 1 dekabr 1995-ci il.

8. «Bazar iqtisadiyyatı beynəlxalq standartlara uyğun informasiyalar tələb edir», «Naxçıvan» qəzeti 23 noyabr 1996-cı il.

9. «Məcburi iqtisadi gediş və xaos», «Naxçıvan» qəzeti, 9 aprel 1997-ci il.
10. «Qiymət və qiymətəmələgəlmə» «Vışka» qəzeti, 13 iyun 1997-ci il.

11. «Sahələr üzrə əmək haqqı necə dəyişir?» «Naxçıvan» qəzeti, 4 yanvar 1997-ci il.

12. «Şagirdlərə iqtisadiyyatdan nələri öyrətmək olar?» «Azərbaycan müəllimi» qəzeti, 23 yanvar 1997-ci il.

13. «Təhsil və iqtisadiyyat» «Azərbaycan müəllimi» qəzeti, 11 noyabr1997-ci il.

14. «İqtisadçı alimlərin elmi potensialını səfərbər etmək», «Vışka» qəzeti, 15 noyabr 1998 -ci il.

15. «İqtisadiyyat İnstitutunda auditin nəzəri məsələləri» «Qanun keşiyində» qəzeti, aprel 1998-ci il.

16. «Elm xadimlərimiz», «Azərbaycan müəllimi» qəzeti, Bakı şəhəri, 7 oktyabr 1997-ci il.

17. «Milli təəssübkeş, iqtisadçı alim» «Suqovuşan» qəzeti, Sabirabad şəhəri 8 oktyabr 1999-cu il.

18. «Pul, kredit və banklar (Təhsil müəssisələri üçün yeni dərslik)», «Xalq» qəzeti, Bakı şəhəri, 8 dekabr 2000-ci il.

DOSTLARIN ÜRƏK SÖZLƏRİ

BƏDİRXAN MUSAYEV
İqtisad elmləri doktoru, professor,
Dövlət Mükafatı Laureatı,
Türk Dünyası Araşdırmaları
Beynəlxalq Elmlər Akademiyasının
Qızıl medallı akademiki:

Fəxr etdiyim tələbəm

İnsan yaşadıqca keçmişinə nəzər salmağı, etdiyi xeyirxahlıqları, yetirdiyi davamçıları xatırlayır. Mən özümü həmişə xoşbəxt saymışam ki, xatırlamalı, öyünməli, fəxr etməli çoxlu tələbələrim olub. Onlardan biri də 70 yaşını qeyd etdiyimiz Bəybala Aslan oğlu Xankişiyevdir.

Bəybala müəllim həm tədrisdə, həm də idarəçilikdə uğurlu və məsul yol keçib.

1966-cı ildə Azərbaycan Xalq Təsərrüfatı İnstitutu yaradıldığı gündən Bəybala müəllimin həyat və fəaliyyəti bu təhsil

ocağı ilə bağlı olub və burada bir çox məsul vəzifələrdə çalışıb. Onun işgüzarlığı, qabiliyyəti, xoş rəftarı, gülər üzü həmişə qarşısına bağlı qapıları taybatay açıb. Belə ki, o, 1975-ci ildə Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili Nazirliyinin Plan-Maliyyə İdarəsinin rəisi vəzifəsinə irəli çəkildi. 1988-ci ildən isə Təhsil Nazirliyinin İqtisadiyyat İdarəsinə başçılıq etməyə başladı.

1991-ci ildə professor elmi rütbəsi almış Bəybala müəllim hal-hazırda AzDİU-nun "Maliyyə" kafedrasının professoru kimi gənc nəslin təlim-tərbiyəsində yorulmadan, qaynayıb daşan gənclik həvəsi və enerjisi ilə çalışır.

Azərbaycan iqtisadi təhsil sahəsindəki böyük xidmətlərinə görə ona Azərbaycan Respublikanın "Əməkdar iqtisadçı"sı fəxri adı verilmişdir.

Uğurlu elmi-pedoqoji fəaliyyəti ilə yanaşı, Bəybala müəllim Maliyyə Nazirliyinin aparatında da məsul vəzifələrdə işləmişdir.

O, çoxsaylı dərslik və dərs vəsaitlərinin, elmi məqalələrin müəllifidir və onun tədqiqatlarının nəticələrindən respublikanın maliyyə orqanlarında, büdcə idarələrində, bank və sığorta sistemində istifadə olunur.

Bəybala müəllim xoşbəxt insandır! Çünki harada, hansı vəzifədə işləməsindən asılı olmayaraq, hamıya sevinc gətirir, hamı da onu sevinclə qarşılayır.

Bəybala müəllim! 70 yaşınız mübarək olsun! Biz bu 70-i Sizin gələcək uğurlarınızın start meydançası, başlanğıc nöqtəsi kimi qəbul edirik. Sizə sağlam və mənalı həyat, xoşbəxtlik, həmişəkindən daha böyük uğurlar, qələbələr arzulayırıq.

ABBAS VƏFADAĞLI

Çayqarışan körpüsü

30-cu illərdəki azərbaycanlılara qarşı başlayan güclü təzyiqlə əlaqədar Nazlı xalamın ailəsi Göyçə mahalından Tovuz rayonuna köçmüşlər. Məndən 3 yaş böyük olan xalamın yeganə oğlu Kərəmlə xeyli vaxt idi ki, görüşməmişdim. 60-cı illərdə Bakıdakı görüşümüzdə o məni xoşsifət bir oğlanla tanış etdi. Bu oğlan Bəybala Aslan oğlu idi.

Bü görüşdən sonra ünsiyyətimiz yarandı. Bu kişi doğrudan da bəydir. Kəndimizdən Xalq Təsərrüfatı İnstitutunda təhsil alan uşaqlar Bəybala müəllimin yüksək elmi bacarığından, vətənpərvərliyindən, atalıq qayğısından, qəlbi, gözu tox kişiliyindən ürək dolusu danışırdılar. Həmin tələbələrdən bir çoxu indi respublikanın ən gözəl, tanınmış adamlarındandır.

Bəzən görüşlərimizdə Göyçənin təbiətini ona tərif edərdim. Bu vətən guşəsinə keçmişdə qış vaxtı gəliş-gediş çətin olurdu.

70-ci illərin bir iyun günü idi. Dağlar al-yaşıl geyimli, çöllər qırmızı. Göyçə gölü cilvələnmiş sonaları qoynuna almışdı.

Deyirlər sevərmiş:
Xeyirxah dağları, müdrik dənizi,
Hopmuş ümmanlara göylərin üzü.
Nazlanardı suda palma buludlar,
Min şükür, min şükür sənə ey Bahar!

İrəvanda bərk isti idi. Əliyə dedim ki, sür maşını çıxaq göl kənarına, orada əyləşərik.

Keçmiş Yelenovkanı keçdik. Qazax yolundan sağa-şərqə dönərək dayandıq. Elə bil gözümüz kimişə axtarırdı. Qışın zəhmindən qurtarmış Göyçə, indi düşmən əlində inləyən mahallarımızdan biri...

Niyə bəndə salır qışda qar səni,
Aramsız gözləyir hər bahar səni.
Alıb qucağına Araz-Kür səni,
Xəzərin ərköyün balası Göyçə.
və ya:
Dağlar bu diyarı alıb hasara,
Bülbül nəğmə deyir gələn bahara.
Əyər yolun düşsə Göyçə bahara,
Bulaqlar üstündə xalın var sənin.

Bu an bir ag jiquli Qazax yoluna doğru sürətlə irəlilədi, bir az keçdikdən sonra dayanıb, maşını geri sürdülər. Bəybala müəllim və onun qonağı, Bolqarıstanlı professor Marin Neykovun ailəsi ilə sevinclə görüşdük.

Dedim qardaş! Qış başlayandan üzümüz Allahdadır ki, bu qarlar ərisin, yollar açılsın. Səhər şənbə günüdür. Sizdən belə ayrılsam çox narahat qalaram.

Məşhur Çil kəndi ilə tanışlığımız başladı. Bəybala müəllim Azərbaycanın bu itirilmiş torpağına nəzər salır, Qarabağ haqqında da arabir söhbətimizə əlavələr edirdi. Orada azərbaycan məktəblərinin işi, təhsilin vəziyyəti və onun çəkisinin artırılması, bu sahədə Moskva hökuməti ilə apardıqları çətinliklərdən, arabir Azərbaycan Ali Təhsil naziri Qurban Əliyevin kəsərli hərəkətlərindən, erməni xislətinə dərin bələdliyindən söz açırdı.
Bolqarıstanlı qonağa: görürsən bu gölün ətrafında beş rayon, 160-a qədər kənd olub, əksəriyyəti azərbaycan kəndləri. Indi də gölün

güney tərəfi 60-a qədər kənd sırf azərbaycan kəndləridir. Qonağımızın: bəs niyə belə olub?, -sualına o, çiyni ilə cavab verdi.

Gedərkən dedi ki, gəlməyimə, bu yerləri görməyimə çox sevindim, camaatla söhbət etdim. Görürəm, burda təhsilə böyük maraq var, ancaq çox nigaran gedirəm.

Qonaqlarımızla Qaraqoyunlu dərəsindən keçərək Çayqarışan körpüsündə ayrıldıq.

VƏFADAR RZAYEV
Azərbaycanın Əməkdar İqtisadçısı

İşgüzar dövlət məmuru, bacarıqlı alim

Bəybala Xankişiyev 1939-cu ildə Sabirabad rayonunun Qalaqayın kəndində kasıb, lakin tərbiyəli və əməksevər dəmirçi ailəsində anadan olmuş və bu kənddə boya-başa çatmışdır.

O vaxtlar kimin ağlına gələrdi ki, bu kənd çocuğu gələcəkdə Azərbaycan Respublikasının Ali və Orta İxtisas Təhsili Nazirliyinin Plan-Maliyyə İdarəsinin rəisi, bu nazirliyin kollegiya üzvü və nəhayət Azərbaycan Maliyyə elminin professoru olacaq.

Azərbaycan Respublikasının nazirlik və baş idarələrində keçmişdə xidmət etmiş plan-maliyyə işçilərindən söhbət düşəndə Bəybala Xankişiyevin adı hörmətlə və özünəməxsus bacarığı ilə çəkilir. O, bu adı yorulmaz çalışqanlığı, böyük zəhməti, işgüzarlığı və insanpərvərliyi ilə qazanmışdır.

Mən Bəybala Xankişiyevi 1958-ci ildə Bakı Maliyyə-Kredit Texnikumunu bitirib, aldığı ixtisas üzrə işləmək üçün Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə göndərilən vaxtdan tanıyıram. Artıq bu ildən başlayaraq o, bu nazirliyin Bakı şəhərindəki Dövlət Sığorta İdarəsi sistemində müxtəlif vəzifələrdə çalışmış, 1965-ci ildə isə işdən ayrılmadan Azərbaycan Dövlət İqtisad Universitetini bitirmişdir.

Onunla bilavasitə iş şəraitində tanışlığım isə 1966-cı ildən

başlayır. Bu ildə Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutu bərpa edildikdən sonra onun ilk baş mühasibi 1975-ci ilədək Bəybala Xankişiyev olmuşdur. 1975-ci ildə Bəybala Xankişiyev Azərbaycan Ali və Orta Ixtisas Təhsili Nazirliyinin plan-maliyyə idarəsinə rəis vəzifəsinə irəli çəkilir və 1981-1988-ci illərdə bu nazirliyin Kollegiya üzvü təsdiq edilir. 1974-cü ildə "Büdcə idarələrində mühasibat uçotunun təkmilləşdirilməsi" mövzusunda namizədlik dissertasiyasını müdafiə edərək, iqtisad elmləri namizədi-alim adı alır. Bəybala Xankişiyevin mühüm dövlət işi ilə yanaşı, gənc iqtisadçı mütəxəssislərin hazırlanmasında da layiqli əməyi oimuşdur. O, 40 ilə yaxın müddətdə və hal-hazırda da Azərbaycan Dövlət İqtisad Universitetinin Maliyyə Kafedrasının professoru olmaqla, hamımız üçün təmiz və müqəddəs, cəmiyyətimiz üçün isə mizan tərəzisi sayılan müəllimdir.

Göründüyü kimi, Bəybala müəllim qulluq pillələrini geniş mexanizmli işlərinin hərtərəfli xüsusiyyətlərini təcrübədə əyani mənimsəməklə, pillə-pillə qalxmış və hansı peşədə qulluq edibsə, onu təmiz vicdanla və yüksək peşəkarlıqla icra edib.

Məlum idi ki, o zamanlar Azərbaycanın sənaye və kənd təsərrüfatı, sosial, infrakstruktur və iqtisadiyyatın digər mütərəqqi sahələri, onların inkişafı və genişləndirilməsi, habelə maddi-texniki təchizatı, xüsusən maliyyə və bank işləri keçmiş nəhəng Sovet imperiyası tərəfindən totolitar qaydada bilavasitə Moskvadan idarə edilirdi. Bu illər elə dövr idi ki, keçmiş Sovet İttifaqı tərkibindəki müttəfiq respublikalarda mütərəqqi sahələrin iqtisadiyyatı, planı və maliyyəsi, onun aparıcı sahəsi olan dövlət büdcəsi məsələləri yerlərdə müstəqil həll edilə bilməzdi. Bu hal keçmiş kommunist ideologiyasının dəyişməz və qəti qanunları ilə tənzim edilmişdi. Belə şəraitdə respublikanın başqa sahələri kimi qarşıdakı hər tədris ili üçün keçmiş Azərbaycan Respublikasının Ali və Orta İxtisas Təhsili Nazirliyinin ali, orta ixtisas, sonradan peşə təhsili və ümumtəhsil məktəblərinə hər bir ixtisas növləri və sinif komplektləri üzrə respublikanın tələbatına görə tələbə və

şagird qəbulu planları 3 mərhələdə: Azərbaycan Respublikasının Dövlət Plan Komitəsində, SSRİ Ali və Orta İxtisas Təhsilı Nazirliyində və son mərhələ olaraq, SSRİ Dövlət Plan Komitəsində baxılıb təsdiq edilirdi.

Azərbaycan üçün belə tale yüklü və geniş mexanizmli işlər Bəybala müəllimin bilavasitə iştirakı və rəhbərliyi ilə hər ildə həyata keçirilirdi. Nədənsə nazirliyin rəhbərliyindən bu mühüm işdə iştirakı olmurdu. Daha sonra, Azərbaycan dövləti və xalqı üçün müstəsna əhəmiyyətə malik Respublikanın gələn ilə Dövlət büdcəsi layihəsinin gəlir və xərclərinin həcmi SSRİ Dövlət Plan Komitəsi və SSRİ Maliyyə Nazirliyində formalaşdığına görə onun müdafiəsini Azərbaycan Respub-likasının Maliyyə Nazirliyinin rəhbər və mütəxəssisləri bilavasitə təmin etməklə bərabər, bu işin kadr hazırlığı xərcləri bölməsində 17 ildən artıq bilavasitə iştirak etmişdir.

Əlbəttə, yuxarıda göstərilən sabiq SSRİ-nin aparıcı nazirliklərinin yüksək ixtisaslı rəhbər və mütəxəssisləri qarşısında öz sahəsi barədə hesabat vermək və sifariş olunmuş göstəriciləri əsaslandırıb onları razı salmaq, respublika miqyaslı rəhbər işçidən yüksək bacarıq, hərtərəfli bilik və səriştə tələb edirdi. Məhz Bəybala müəllim də belə bir rəhbər işçilərdən biri olmaqla, o, işdə tələbkar, lakin sadə, qəlbi təmiz, səmimi və qayğıkeş xasiyyətə malikdir.

Mən, Vəfadar Rzayev hesab edirəm ki, professor Bəybala Xankişiyevin maliyyə sahəsindəki layiqli xidməti gənc maliyyə-plan işçiləri üçün nümunə ola bilər.

Azərbaycan Respublikasının Əməkdar İqtisadçısı, 45 ildən artıq fasilə vermədən Azərbaycan Respublikasının Maliyyə Nazirliyində, o cümlədən 11 il Maarif, mədəniyyət, təhsil, səhiyyə, elm, bədən tərbiyəsi, mətbuat, nəşriyyat və digər sahələrin planlaşması və maliyyələşməsinin, şöbə və idarə rəisi - Kollegiya üzvü, 17 il Maliyyə nazirinin 1-ci müavini vəzifəsində işlərkən, Bəybala müəllimin çox qısa və yığcam yazdığım gördüyü işlərin canlı şahidiyəm.

ZEMFİRA VERDİYEVA
AMEA-nın müxbir üzvü, Filologiya elmləri doktoru, professor

Bəybala müəllim haqqmda xoş xatirələrim

Mən Bəybala Xankişiyevi 1975-ci ildən tanıyıram. 1975-ci ildə mən Xarici Dillər İnstitutunun rektoru işlədiyim vaxt Bəybala Xankişiyev də Ali Təhsil Nazirliyində Plan-maliyyə şöbəsinin rəisi vəzifəsində çalışırdı.

Bəybala müəllim yüksək əxlaqi keyfiyyətlərə malik, uzaqgörən, elmi təfəkkürü və xeyirxahlığı ilə başqalarından fərqlənən, işində çox məsuliyyətli, dostluqda son dərəcə sədaqətli, xalqına namus və qeyrətlə xidmət edən bir insandır. Fikirlərimi faktlarla açıqlamaq istəyirəm.

Rektor işlədiyim dövrlərdə instituta xarici dillər və ictimai fənnlər üzrə görkəmli alimləri və professorları dəvət edirdim. Gəncliyimiz olan gənc tələbələrin hərtərəfli inkişafı üçün əlimdən gələni əsirgəməməyə çalışırdım. Bu sahədə böyük köməyə ehtiyac hiss edirdim. Belə çətin vaxtlarda Bəybala Xankişiyevlə məsləhətləşirdim. Onun qayğısı və yaxından köməyi nəticəsində istəyimə nail olurdum.

Müsabiqədən kənar Moskvada, Kiyevdə, Leninqradda və başqa şəhərlərdə ali təhsil almış mütəxəssislərin institututa dəvət olunması, yerləşdirilməsində də Bəybala müəllimin xidmətləri unudulmazdır.

Müstəqilliyə nail oldugumuz illərdə institutda «tərcümə»

fakültəsini açmağa çalışdım və buna nail ola bildim. Bunun nəticəsi olaraq respublikaya bir nəfər də olsun kənardan tərcüməçi dəvət etmədik. Hamısını özümüz hazırladıq. Bu işin ağırlığını dərk edərək yenə də Bəybala Xankişiyevə kömək üçün müraciət etdim. Bəybala müəllirn bu işdə mənimlə nəinki həmrəy olduğunu bildirdi, həmçinin bu ideyanı alqışladı və bu sahədə bizə böyük köməklik göstərdi. Bəybala müəllimin belə xeyirxahlıqlarından çox danışmaq olar. Təkcə onu demək kifayət edər ki, o xalqının və onun gələcəyi olan gənclərin ali təhsil almaları üçün yorulmadan çalışır, gəncləri xoşbəxt görmək arzusu ilə yaşayır. Bəybala müəllim hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetində çalışır. O, indi də əvvəlki illərdə olduğu kimi işində çox diqqətli və məsuliyyətlidir.

Bu alicənab, xeyirxah, dostluğa sədaqətli, xalqını dərin məhəbbətlə sevən və onu daima xoşbəxt görmək istəyən Bəybala Xankişiyevin özünü də sağlam, gümrah, uzun ömürlü, xoşbəxt görmək arztısu ilə Ulu Tanrıdan ona yardımçı olmağı diləyək.

ŞAMİL QASIMLI
Azərbaycan Müəllimləri
İnstitutunun Tədris İşləri üzrə prorektoru
professor, fəlsəfə elmləri doktoru

Yaxşı dost, xeyirxah insan

Bəybala müəllim haqqında danışmaq mənim üçün həm asandır, həm də çətin. Asandır ona görə ki, onu lap uşaqlıqdan tanıyıram, bizi bir-birimizə dostluq telləri bağlayır. Çətindir o mənada ki, uzun illər birlikdə keçib gəldiyimiz gözəl anlardan, xatirələrdən hansını deyim ki, bu gözəl dostuma, onun keçdiyi mənalı həyat yoluna layiq olsun. Etiraf edirəm ki, əziz dost haqqında söz demək çox çətindir...

Ancaq Bəybala müəllimin adı gələndə uzaq keçmişdə qalmış, indi xatirələrə bürünmüş Sabirabadlı günlərimiz kino lenti kimi gözlərim önündən gəlib keçir...

Hər ikimiz Sabirabadda dünyaya göz açmışıq. Suqovuşana gedən cığırları dönə-dönə əriş-arğac etmişik. Məktəbə də eyni vaxtda getmişik. Tale elə gətirib ki, mən rusca təhsil almışam, o isə doğma dilimizdə. Orta məktəbi qurtarıb Bakıya yollandıq, hərəmiz öz arzumuza, istəyimizə uyğun sənət seçdik. Mən Pedaqoji İnstitutun, dostum isə ADU-nin «İqtisadiyyat» fakültəsinin tələbəsi oldu. Bəybalanın lap orta məktəbdə oxuyarkən arzusu iqtisadçı olmaq idi. Atalar yaxşı deyib: niyyətin hara, mənzilin ora.

Yaşıdlarımız yaxşı bilirlər, o dövrdə tələbələrdən tələbat olduqca yüksək idi. Hər bir tələbə elmin pillələrini öz gücünə

çıxmalıydı...

İllər keçdi, ali məktəbi bitirdik. 1966-cı ildə Xalq Təsərrüfatı İnstitutu təşkil olundu. Tale elə gətirdi ki, o vaxt biz yenidən bir yerdə işləməli olduq. Gənc olmağına baxmayaraq Bəybala Xankişiyevin iş metodu, qabiliyyəti və səriştəli işgüzarlığı diqqətdən yayınmırdı. Hamı ondan razılıqla, ağız dolusu danışırdı, O, bu çətin, məsuliyyətli vəzifədə çalışarkən elmi iş yazmağa da vaxt tapırdı.

Xatirə çələngimizdə 1970-ci ildə bir ay Moskvada keçirdiyimiz günlər xüsusi yer tutur. O vaxt hər ikimiz namizədlik dissertasiyası üzərində çalışırdıq. Düz bir ay mehmanxanada bir yerdə qaldıq, mərkəzi kitabxanada bir yerdə işlədik. Moskva həyatı bizi daha da yaxınlaşdırdı. Birindən soruşurlar ki, qardaşın necə adamdır. Cavab verir ki. yoldaşlıq eləməmişəm. Bəybala müəllimin yoldaşlığı başqa bir aləmdir. İnsan nə qədər sadə, mehriban və səmimi olarmış...

Mən bir dost kimi fəxr edirəm ki, Bəybala müəllimdən söz düşəndə onun haqqında yalnız belə sözlər eşidirəm: Gözəl insandır! Bu sözlər onun qiymətidir.

Hələ 1975-ci ildə Bəybala müəllimin istedad və bacarığını nəzərə alaraq onu Ali və Orta Təhsil Nazirliyində idarə rəisi vəzifəsinə çəkmişlər.

İqtisadiyyatın elə sahələri var ki, o daha çox praktiki xarakter daşıyır. Belə sahələrdən biri mühasibat-uçot sahəsidir. Bəybala müəllim bu sahədə qabaqcıl mütəxəssis olmuşdur və bu gün də belədir.

Respublikanın ali məktəblərinin mühasibat işçilərinin əksəriyyəti onun yetirmələridir. Ölkəmizdə bu sahədə «Bəybala məktəbi» vardır və bu məktəb sayılan, şöhrəti olan məktəbdir.

Bəybala müəllim bu adı yüngül yolla qazanmayıb, ən çətin sahələrdə işləsə də yüksək mütəxəssis alim kimi bu günə kimi onun qələmindən onlarla kitab, monoqrafiya, kitabça və məqalələr çıxıb. Bu da bir həqiqətdir ki, maliyyə məsələləri üzrə Azər-

baycanda elmlər doktoru olmayıb. Bu sahədə 60-cı illərin sonlarında XTİ-nun «Maliyyə və Kredit» kafedrasının dosenti, iqtisad elmləri namizədi Aleksandr Abramoviç Trivusa «professor» adı verilmişdi. Azərbaycanda bu dərəcənin ikinci sahibi isə mənim dostum Bəybala Xankişiyev oldu. Və onu da deyim ki, bu dərəcəni ona SSRİ Ali Attestasiya Komissiyası verdi.

Bəybala müəllim haqqında çox danışmaq olar. O, gözəl insan, yaxşı dost, xeyirxah bir ziyalıdır, vətəndaşdır. Gözəl ailə başçısıdır; dörd övladı onunla fəxr edirlər ki, onların belə şəxsiyyətli ataları var.

Bu gün Bəybala müəllim ömrünün, yaradıcılığının yetkin çağındadır. Mən öz dostuma möhkəm can sağlığı, uğurlar və yenə də uğurlar arzulayıram.

MƏCİD AXUNDOV
Professor

Ustada alqış

İstedadlı tədqiqatçı, tanınmış alim, təhsil sisteminin ən mahir bilicisi, təşkilatçısı və idarəedicisi, görkəmli maliyyəçi, səmimi dost, sədaqətli və mehriban ailə başçısı, xalqın vətənpərvər oğlu, müəllimim, Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə" kafedrasının professoru Bəybala Aslan oğlu Xankişiyevə həsr olunur.

Bəybala demişlər atalar Sizə,
Bəy adı yaraşır gül çöhrənizə.
Layiqsiz hörmətə, birdə xoş sözə,
Bu səmimi insan gəlməsin gözə.

Əziz müəllimim, mehriban insan,
Bu dünya durduqca, sən də durasan.
Sevilib, sevinib qoşa qayıdıb,
Gülara xanımla xoşbəxt olasan.

Eyni şey deyəcək dindirsən kimi,
Zəka sahibi tək şöhrət tapmısan.
İstedadlı alim, müəllim kimi,
Hər kəsin qəlbində izlər salmısan.
Ustadım olmusan,mən də bir şagird,

Usta övladından olmayır şəyird.
Odur ki, usta tək formalaşmısan,
Bu səbəbdən mənə doğmalaşmısan.

Çalışıb, vuruşub xidmətinlə sən,
Təhsil sistemində qoymusan bir ad.
Olmusan hər zaman hər bir işində,
Süni alqışlara, təriflərə yad.

Qəlbimdə sonsuzdur sənin hörmətin,
Haqqında söz demək olduqca çətin.
Çünki cəmləşmişdir şəxsində sənin,
Bütün xoş sifəti doğma millətin.

Sizlə əməkdaşlıq nə qədər xoşdur,
Çünki çətinliklər qorxutmur Sizi.
Elmi tədqiqatlar o qədər çoxdur,
Bunlara qoşurduz həvəslə bizi.

Moskva səfəri yadımızdadır,
Necə hörmət-izzət sahibiydiniz.
Təhsildə dahi tək qoyduğunuz iz,
Bu gün də ağardır sahibində üz.

Təhsili yüksəkdə görmək istədik,
Təhsil proqnozunu birgə işlədik.
Bu işdə zəhməti biz bilmədik ar,
Bunda da Siz idiz əsil fədakar.

Əminəm mən Sizə, düşüncənizə,
Sizdən hər bir zaman xoş iz qalacaq.
Bircə yazdığımız məqalələr tək,
Hörmət-izzətimiz daim olacaq.

Zəkalı bir alim, mehriban ata,
Tanrıdan hər arzu, kamına çata.
Dörd gözəl qızının qoy hər birindən,
Nəvə, nəticələr selinə bata.

Maliyyə işində Əvəz əvəzsiz,
Onun da qiymətli müşaviri Siz.
Belə bir seçimi edər pərgarlar,
Zərə qiymət verər gözəl zərgərlər.

Uzatmaq çox olar təbrik sözünü,
Tanrı qoy çəkməsin Sizdən gözünü.
Məcid də söyləyir sözün düzünü,
Ustada sayacaq borclu özünü.

RAZİM ABDUL OĞLU ZEYNALOV
Azərbaycan Dövlət Neft Akademiyasının
Avtomatlaşdırma və Telemexanika
kafedrasının dosenti, texnika
elmlər namizədi

Etibarlı dost, kamil insan

Bəybala müəllim barədə söz deməkdən öncə onun valideynləri barəsində ürək sözlərimi demək İstəyirəm. Müdrik və sadə insanlar olan Aslan kişi və Nübar xanım Sabirabad ellərində özlərinin zəhmətkeşlikləri, mülayimlikləri və xeyirxahlıqları ilə seçilib fərqlənirdilər. Onlar həmişə insanlara düzgün yol göstərib, imkanları daxilində yaxşılıq edərdilər.

Bəybala müəllimin həyat yoluna nəzər salarkən gözümüz qarşısında bəzən hamar, bəzən isə kəşməkəşli, həm çətinliklərlə, həm də nailiyyətlərlə zəngin mənalı bir ömür canlanır.

Taleyin hökmü ilə mən, Bəybala müəllim ilə uzun müddət - uşaqlıq dövründən başlayaraq bu günə qədər çox yaxın ailəvi təmasda olub dostluq, qardaşlıq etmişik. Sabirabad bölgəsinin Qalaqayın kəndində qonşu olub bir məktədə getmişik. Kiçik yaşlarında peşə, yüksək ixtisas-təhsil almaq üçün Bakı şəhərinə gəlmiş və hər ikimiz texnikuma daxil olmuşuq. Dostum Bəybala ixtisas seçimində iqtisadiyyat sahəsinə üstünlük vermiş, mən isə texniki sahəni seçmişdim.

Bəybala Maliyyə-Kredit Texnikumunu müvəffəqiyyətlə bitirərək əmək fəaliyyətinə Bakı şəhərində sığorta müfəttişi

vəzifəsində başlamışdır.

Ali məktəb - tələbəlik dövrlərində tale bizi bir daha yaxınlaşdırdı. Günlərin birində kirayə qalmaq üçün mənzil axtardığım zaman təsadüfən məni Bəybalanın kirayə qaldığı otağa ikinci sakin kimi gətirdilər. Qeyd edim ki, bü təsadüfi görüş hər ikimizi çox sevindirdi. Biz beş ilə qədər bir otaqda iki qardaş, iki dost kimi çox səmimi, mehriban yaşadıq.

Bu isə bizi bir-birimizi daha yaxından tanımağa, xasiyyətimizin uyğunlaşmasına böyük səbəb oldu.

Bizim yeməyimiz, içməyimiz, gəzməyimiz bir yerdə olurdu. Belə şərait bizim dostluğumuzu və qardaşlığımızı bir daha möhkəmləndirmiş və əbədi etmişdir.

Tələbəlik dövründə də Bəybala çox zövqlə geyinərdi. O, həmişə səliqəli geyimi, səmimiliyi, sadə davranışı ilə tələbə yoldaşlarından fərqlənirdi. O illərdə Bəybalanın öz ad günlərini zövqlə, yüksək səviyyədə keçirməsi yaddaşımda böyük izlər buraxıb. Ad günlərində tələbə yoldaşları və dostlarının hamısı iştirak edərdilər.

Bu ad günlərinin əksəriyyətində o vaxtlar çox da asan olmağına baxmayaraq musiqiçilər də iştirak edərdilər.

Bəybalanın işgüzarlığı, məsuliyyətliliyi, humanistliyi, insanlara həmişə xeyirxahlıq və yaxşılıq etməyə çalışması onun yüksək səviyyəli peşəkar mütəxəssis olması üçün sürətlə yüksəlməsinə səbəb oldu.

Hal-hazırda da Bəybala müəllimin zəhmətsevərliyi və özünə qarşı tələbkarlığı onun müvəffəqiyyətlərinin əsasını təşkil edir.

O, yeni yaranmış Xalq Təsərrüfatı İnstitutunun baş mühasibi vəzifəsindən başlayaraq Təhsil Nazirliyinin Plan-Maliyyə İdarəsinin rəisi, İqtisadiyyat Universitetinin professoru vəzifəsinədək yüksəlmişdir. Mənə elə gəlir ki, Bəybala müəllim kimi eyni bir institutda mühasib vəzifəsindən başlayıb, professor vəzifəsinə qədər yüksəlmiş ikinci bir şəxs tapmaq çətindir.

Bəybala müəllimin yüksək ünsiyyət mədəniyyətinə malik olması onun istər çalışdığı kollektivdə, istərsə də tələbələr arasında sevilməsinin əsas səbəblərindəndir.

Bəybala müəllim yüksək səviyyəli maliyyə işçisi, böyük pedaqoq, elmi işçi olmaqla yanaşı, həmçinin vətənpərvər, qayğıkeş, səmimi, mehriban bir dostdur.

Uzun illər ərzində xalq təsərrüfatı üçün minlərlə mütəxəssisin hazırlanmasında yorulmadan çalışmış, yüzlərlə elmi məqalələr, dərs vəsaitləri və metodik vəsaitlər dərc etdirmişdir.

Qeyd olunanlarla yanaşı bu gün Bəybala müəllimə xas olan səmimi münasibəti, xoş və mülayim rəftarı, tələbələrə və yoldaşlarına olan xüsusi qayğını eyni zamanda özünəməxsus tələbkarlığını və prinsipiallığını da böyük hörmətlə xatırlamağı özümə borc bilirəm.

Bəybala müəllimi gözəl ailə başçısı, nəvələrini ürəkdən sevən baba kimi tanıyırıq.

Onu da qeyd etmək istəyirəm ki, Bəybala müəllimin həyatda qazandığı nailiyyətlərdə ailəsinin, xüsusi ilə də həyat yoldaşı Gülarə xanımın xüsusi əməyi və payı vardır.

Fikrimi yekunlaşdırıb Bəybala müəllimin Azərbaycan ziyalıları arasında nümunə göstərilə bilən bir şəxsiyyət olduğunu xüsusi olaraq qeyd edirəm.

ZİYAFƏDDİN QASIMOV
Respublika Nazirlər Kabinetinin şöbə müdiri

Ağsaqqal insan!

Hər dəfə Bəybala Aslan oğlu Xankişiyevdən söhbət düşəndə gözlərim qarşısında xeyirxah, səmimi, gülümsər simalı bir azərbaycanlı obrazı yaranır.

Yaxşı insan haqqında düşünərkən ilk növbədə onun hansısa xarakterik cəhətlərini xatırlayırsan. Bəybala müəllim də belə şəxslərdəndir.

Onunla tanışlığımızın 36 illik tarixi var. Altmışıncı illərdə mən Xalq Təsərrüfatı İnstitutunda təhsil alarkən, Bəybala Xankişiyev İnstitutda baş mühasib idi.

Əvvəllər münasibətlərimiz müəllim-tələbə münasibətləri səviyyəsində idi. Lakin Bəybala müəllim heç zaman aramızda olan yaş fərqini nəzərə çarpdırmaz, mənimlə həmyaş kimi rəftar edərdi. O, dostluqda elə bir şərait yaradırdı ki, yaşca kiçik olan adam da öz düşüncələrini, hisslərini onunla bölüşərdi. Sonralar bizim bu dostluğumuz ailələrin və nəsillərin dostluğuna çevrildi və bu günə kimi də davam edir. Hər insanın gənclik illərində, qanadlarının hələ bərkimədiyi dövrlərdə bir mənəvi dayağı olur. Çətin anlarında öz dərdini ancaq ona açıb məsləhətləşirsən. Mənim üçün də belə bir şəxs hələ özünün gənclik yaşlarında ağsaqqal olan Bəybala Xankişiyev idi.

Bizim münasibətlərimizin kökündə isə böyüklərimizin, ağsaqqallarımızın dostluğu dayanırdı.

İş elə gətirdi ki, institutu bitirdikdən sonra burada qalıb

işləyəsi oldum. Bəybala müəllim buna ürəkdən sevinir, məni hər cür həvəsləndirir, öz səmimi, xeyirxah məsləhətlərini əsirgəmirdi.

Sonralar Bəybala müəllim Təhsil Nazirliyində məsul işə dəvət edildi. Ona Nazirliyin ən mühüm idarəsini Plan-Maliyyə işlərini idarə etməyi tapşırmışdılar. Bir müddətdən sonra 1989-cu ildə mən də Təhsil Nazirliyində işləməli oldum. Beləliklə, yollarımız yenə də birləşdi.

Bir neçə il bir yerdə, bir sistemdə çalışdıq. Həyatda elə insanlar var ki, onlardan insana ancaq müsbət enerji gəlir. Mənim dostum da belə insanlardandır. Bəybala müəllimlə bir idarədə işləmək insana zövq verir.

Bəybala müəllim etik normalara olduqca həssas bir insandır. Onun səliqə-səhmanı, dəqiqliyi, qayğıkeşliyi, dostlarına və ailəsinə göstərdiyi diqqət və məhəbbət bir həyat məktəbidir.

Əgər sənin kefin yoxsa, ya da ki, bir qayğın varsa bu onun nəzərindən heç vaxt qaçmır. Mütləq səni sorğu-suala çəkir, məsələnin mahiyyətini öyrənib xeyirxah məsləhətini verməyincə rahat olmur. Elə bil ki, bu şəxs ancaq xeyirxahlıq etmək üçün yaranıb.

Əslən Sabirabadın Qalaqayın kəndindəndir. Kəndləri yol üstündə olduğundan Bəybala müəllim də olduqca qonaqpərvərdir. Evləri həmişə qonaqlı-qaralı olur. Onun ən gözəl xüsusiyyətlərindən biri də insanlar arasında dostluq münasibəti yaratmağıdır. Yetmiş illik həyatı dövründə bəlkə də yüzlərlə adamın bir-birilə səmimi, mehriban ünsiyyət yaratmağına səbəb olub.

Bəybala müəllim yaxşı yol yoldaşıdır. Vaxt olub ki, onunla həftələrlə yol yoldaşı olmuşuq. Səfər zamanı da öz qayğısını insandan əsirgəmir. Sən nəsə etmək üçün hazırlaşınca bir də görürsən ki, o bu işi səndən əvvəl edib.

1993-cü ildə mən Azərbaycan Respublikası Prezidentinin İcra Aparatında işləməli oldum. Bu gün isə Nazirlər Kabinetində işləyirəm. İş yerlərimiz ayrı olsa da bu bizim uzun illər davam

edən təmənnasız dostluğumuza xələl gətirməmişdir. Sevincli və kədərli anlarımızda həmişə bir yerdə oluruq.

Bəybala Xankişiyev isə həyatda iş yerlərini və dostlarını dəyişməyi sevmir. Amma buna baxmayaraq, onun dostları çoxdur.

Bəybala Xankişiyev sözün həqiqi mənasında müəllim, pedaqoq və psixoloqdur. Onun elmi titulları, dərəcələri çoxdur. İnsan yaxşı mütəxəssis, yaxşı alim ola bilər. Ancaq eyni zamanda həm alim, həm də gözəl insan olmaq hər bir şəxsə müyəssər olmur. Bəybala Xankişiyevlə dostluq və yoldaşlıq edənlərin hamısı gözəl bilir ki, onun üçün ən böyük dərəcə, ən ali rütbə insanlıqdır. Ömrünü təhsilə həsr etmiş bu insanın yazdığı bütün dərsliklər, elmi əsərlər tələbələr tərəfindən çox maraqla qarşılanır. Çünki o, həmişə çalışır ki, yazdığı elmi əsərlər də, məqalələr də mümkün qədər sadə və qavranılan olsun.

Adətən gənclər, tələbələr arasında olan insanlar özləri də gənc və təravətli qalırlar. Mehriban dostum, görkəmli alim, elm təşkilatçısı, fədakar insan, gözəl ailə başçısı, hal-hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin "Maliyyə" kafedrasının professoru olan Bəybala müəllim həmişə gənclik yaşındadır. Gənclik yaşı isə insanın öz qəlbindədir.

ŞAKİR BƏDƏLOV
Azərbaycan Dövlət İqtisad Universitetinin
«Maliyyə» kafedrasının
dosenti

Görkəmli alim-pedaqoq, gözəl insan, təmənnasız dost

Əziz və hörmətli Bəybala müəllimi 1960-cı ildən tanıyıram. 1960-cı ildə Azərbaycan Dövlət Universitetinin «İqtisad» fakültəsinin axşam şöbəsində təhsil alırdıq. Universitet həyatının ilk günlərində bir-bir tələbə yoldaşlarla tanış olurduq. İlk gündən nəzər-diqqətimi cəlb edən Bəybala müəllimin səmimiyyəti, mehribanlığı, təvazökarlığı, bir də dərslərdə fəallığı idi. Xüsusilə seminar dərslərindəki məzmunlu çıxışları, onun nəzəri məsələləri təcrübi faktlarla tez, çevik əlaqələndirə bilməsi onun geniş aridusiyaya malik olduğunu biruzə verirdi. Sonra mənə məlum oldu ki, o, «Maliyyə-Kredit» Texnikumunu əla qiymətlərlə bitirmiş və Maliyyə Nazirliyi sistemində mütəxəssis kimi çalışır. Bizim bir-birimizlə tanışlığımız dostluğa, qardaşlığa çevrildi. Mən I kursu bitirdikdən sonra «Maliyyə-kredit» ixtisasının gündüz şöbəsinə keçdim və Bəybala müəllim istehsalatda ixtisas üzrə işləməklə axşam şöbəsində təhsilini davam etdirdi və bizim görüşlərimiz xeyli ara verdi. Mən də 1965-ci ildə Az.XTİ-nu fərqlənmə diplomu ilə bitirdim və aspiranturaya qəbul olmağım məsləhət bilindi. 1966-cı ildən Az.XTİ-nun «Maliyyə-kredit» kafedrasına müəllim vəzifəsinə dəvət olundum. Mən yenidən Bəybala müəllimlə görüşdüm və ən əziz, ən etibarlı dostumla yaxınlaşdığıma çox

sevindim. Artıq, o, İnstitutun baş mühasibi vəzifəsində çalışırdı, həm də Aspiranturanın qiyabi şöbəsində təhsil almaqla elmi-tədqiqat işini də davam etdirirdi və nəhayət 1974-cü ildə Moskva Maliyyə İnstitutunun professoru Dedkov Yevgeniy Pavloviçin rəhbərliyi altında «Büdcə təşkilatlarında mühasibat uçotunun təkmilləşdirilməsi» yolları mövzusunda müvəffəqiyyətlə dissertasiya müdafiə etməklə iqtisad elmləri namizədi, alimlik dərəcəsi aldı.

Bəybala müəllim istehsalatda çalışmaqla qazandığı bilik və təcrübəni pedaqoji işlə əlaqələndirməyə, tədrisin daha canlı və səmərəli təşkilinə nail ola bilmişdir.

Bəybala müəllim səliqə-səhmanı, nizam-intizamı xoşlayan və ona daim riayət edən alim-pedaqoq kimi özünü tanıtmış, işinin çoxluğundan qətiyyən şikayətlənmir, işgüzarlıqda şəxsi nümunədir. İşləməkdən zövq alır. Onun gözəl xüsusiyyətləri çoxdur. Diqqəti cəlb edən bir cəhəti də odur ki, əli ilə Allahın ətəyindən bərk tutur və Qurani Kərimdə olan belə bir kəlamı həmişə yada salır ki, «Allah bütün bəndələrə mərhəmətlidir, onlara rəhmi gəlir, lakin ləyaqətliləri mükafatlandırır». Ona görə də bütün işləri layiqli görür və ləyaqətin uca zirvəsində durur. Bəybala müəllim həmişə çalışır ki, insanlara yaxşılıq etsin və kiməsə etdiyi yaxşılığı biruzə vermir, üzə vurmur, elədiyi xeyirxahlıqdan yorulmur, əksinə şəfqət tapır, sevinir və elədiyi yaxşılıq müqabilində heç nə istəmir və «Balıq bilməsə, xalıq bilər» deyir. Ona görə də Bəybala müəllimə müraciət edən, ondan öyrənmək istəyən çoxdur, onunla xoş münasibət qurmaq, onunla dostluq etmək istəyən çoxdur və onun qibtə ediləcək qədər dostları var.

Bəybala müəllimin tələbə kollektivi arasında da böyük hörmət-izzəti var, öz bilik və bacarığını var qüvvə ilə sərf edir ki, gənclər savadlı, bilikli, işgüzar olsunlar, yüksək ideallarla yaşasınlar, vətənə, xalqa, soy kökünə bağlı vətənpərvər kimi yetişsinlər.

Bəybala müəllimin uğurları çoxdur, lakin o heç vaxt

arxayınlaşmır, özündən razı qalmır, daim çalışır, irəliyə can atır. O, hazırda Azərbaycan Dövlət İqtisad Universitetinin «Maliyyə» kafedrasının professoru kimi elmi-pedaqoji işini uğurla davam etdirir.

Onun ictimai fəaliyyəti də çox genişdir. Azərbaycan Respublikası Auditorlar Palatasında Standartlaşdırma Komissiyasının, Maliyyə Nazirliyinin Mühasibat uçotu və hesabatı üzrə Metodologiya Şurasının, «Audit» jurnalının redaksiya heyətinin üzvüdür. Bəybala müəllimin Respublikamızda təhsilin inkişafında böyük əməyi var. İqtisadiyyatın inkişafındakı xidmətlərinə görə ona hələ 1990-cı ildə «Azərbaycan Respublikasının əməkdar iqtisadçısı» fəxri adı verilmişdir.

Bəybala müəllim vəfalı, təmənnasız və sağlam əqidəli, yüksək mənəviyyatlı, prinsipial dost kimi özünü tanıtmış, gözəl ailə başçısı, əxlaqi və etik normaların yüksək zirvəsində dayanan parlaq şəxsiyyət kimi xüsusi hörmətə malikdir.

Böyük qürur hissi ilə mən Bəybala müəllimə möhkəm can sağlığı, uzun ömür, yeni-yeni yaradıcılıq nailiyyətləri arzulayıram. Belə bir istedadlı vətəndaşın təkcə öz ailəsinə, qohumlarına yox, bütün xalqa, vətənə böyük gərəyi var.

ŞAHRZA ƏLİYEV
Təhsil Nazirliyinin İqtisadiyyat İdarəsinin Plan-Maliyyə sektorunun müdiri
İqtisad elmləri namizədi

Ağ saçların işığında yol gedən müdrik insan

Yaxşı yadımdadır. 1982-ci ilin yayı idi Təhsil aldığım D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunda (hazırkı Azərbaycan Dövlət İqtisad Universiteti) gənc mütəxəssislərin təyinat bölgüsü aparılırdı. Mən də institutu fərqlənmə diplomu ilə bitirirdim. Mənə bir neçə nazirlik, baş idarə və təşkilatda işləmək təklif olunmuşdu. Sifarişçi təşkilatların tərkibində Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin nümayəndəsi Bəybala Xankişiyev də iştirak edirdi. O məzunların şəxsi işi ilə tanış olduqdan sonra mənə Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin sistemində işləməyi təklif etdi. Bəybala müəllimlə xeyli söhbətdən sonra razılığımı bildirdim. İnstitutu bitirib nazirliyə təyinat üzrə gedəndən sonra Bəybala müəllimlə daha yaxından tanış oldum. Bakı Neft Texnikumunda baş mühasib vəzifəsinə təyin olunmağımı tövsiyə etdi. Onun zəmanəti ilə texnikuma işə qəbul olundum. Texnikumda işlədiyim bir il müddətində Bəybala müəllim məni daha yaxşı tanıdı. Az bir müddət ərzində texnikumun kollektivi arasında hörmət və nüfuz qazanmağım onu sevindirdi, nazirlikdə onunla görüş vaxtı işimi həmkarlarıma nümunə göstərdi.

1985-ci ildə hərbi xidməti başa vurduqdan sonra Bəybala müəllimin dəvəti ilə Respublika Ali və Orta İxtisas Təhsili Nazirliyinin mərkəzi aparatında işləməyə başladım. Onun rəhbərlik etdiyi Plan-maliyyə idarəsində böyük iqtisadçı vəzifəsinə təyin edildim. Bəybala müəllimin rəhbərliyi ilə elmi-pedaqoji tədqiqatlarımı da davam etdirdim.

Elmin yollarına yaxşı bələd olan, respublikada ixtisaslı kadr hazırlığına misilsiz əmək sərf edən bu cəfakeş alimin ilk dissertantı da mən oldum. Mən namizədlik dissertasiyası işi üzərində çalışdığım zaman Bəybala müəllim mənə deyərdi:

- Alim o şəxsdir ki, öyrəndiyi ixtisası, çalışdığı işi mükəmməl bilir, sənətinə hərtərəfli bələddir, xalqa fayda verir. Sən də ilk növbədə çalış ki, tədqiq etdiyin sahəni mükəmməl öyrənəsən, elmin çətin yollarında püxtələşəsən, kamil bir şəxsiyyət kimi formalaşasan.

Həyat Bəybala müəllimin dediklərini təsdiq etdi. Mən 1997-ci iidə iqtisad elmləri namizədi, respublikanın əməkdar iqtisadçısı, professor Bəybala Xankişiyevin rəhbərliyi ilə «Azərbaycan Respublikası Təhsil Nazirliyi sistemində kadr hazırlığına xərclərin uçotu və təhlili» mövzusunda uğurla dissertasiya müdafiə edərək iqtisad elmləri namizədi alimlik dərəcəsini aldım. Bəybala müəllimin tövsiyələrini, təkliflərini diqqətlə dinləyərək ilk dəfə olaraq ali təhsil müəssisələrinin fəaliyyətini təhlil edib maraqlı elmi nəticələrə nail oldum. Sevimli müəllimim Bəybala Xankişiyevlə birlikdə «Büdcə və elmi idarələrdə mühasibat uçotu» adlı dərs vəsaitini və dərsliyi nəşr etdirdik. Bu dərs vəsaitindən ali və orta ixtisas məktəblərinin tələbələri, təhsil sisteminin mühasibat işçiləri istifadə edirlər.

Mən Respublika Təhsil Nazirlıyinin Plan-Maliyyə İdarəsində baş iqtisadçı, maliyyələşdirmə, əmək və əmək haqqı şöbəsinin rəisi, sonralar isə Maliyyə-İqtisad Şöbəsinin rəisi vəzifəsinə təyin edilərkən həmişə Bəybala müəllimin nəzərlərini öz üzərimdə hiss etmişəm, onun qayğıkeşliyinin, ali vətənpərvərlik

duyğularının, yüksək insansevərliyinin qarşısında səcdə etmişəm.

Bəybala Xankişiyev Azərbaycan Dövlət İqtisad Universitetində işləsə də mən onu həmişə doğma kollektivimizdə görürəm. Yaxşı xatırlayıram: hər dəfə işlə əlaqədər onun otağına baş çəkən zaman çərçivədə yazdırıb stolunun görümlü yerində qoyduğu «Başqalarına işıq saçmaq üçün özün nur olmalısan» hikmətli kəlamı diqqətimi cəlb edərdi. Hər dəfə də bu hikmətli kəlamdan yeni mənalar əxz edərdim. Fikirləşərdim ki, Bəybala müəllim necə də bu kəlama layiqdir. Axı o, özü də nura bənzəyirdi. Yaraşıqlı qaməti, hər bir hərəkəti, səliqəli geyimi, sözü-söhbəti, öyüdü bizə kompas idi. Onun mədəni davranışı, intellekt səviyyəsi, bəşəri duyğuları, alicənablığı, xeyirxahlığı, millı-mənəvi dəyərlərimizi yüksək qiymətləndirməsi, dost qədrini bilməsi, haqqı-ədaləti hər şeydən uca tutması qəlbimizi qürur hissi ilə doldurardı, sözün düzü, həmişə ona oxşamaq istəyirdik.

Bəybala Xankişiyev respublikamızda milli kadrların hazırlanmasına tükənməz enerji sərf etmiş, bu sahədə qüvvə və bacarığını, bilik və təcrübəsini əsirgəməmişdir. Onun seçib yerləşdirdiyi kadrların bir çoxu təhsil sistemində özünü doğrultmuşdur. Möhtərəm Prezidentimiz, dünya şöhrətli siyasətçi və dövlət xadimi cənab Heydər Əliyevin keçmiş SSRİ hökumətində rəhbər vəzifədə işlədiyi dövrdə respublikanın təhsil sistemində görülmüş qlobal işlərin icraçılarından biri də məhz Bəybala Xankişiyev idi. O, keçmiş SSRİ Məkanının Dövlət Plan Komitəsində, Ali və Orta İxtisas Təhsili Nazirliklərində yüksək hörmət və nüfuza malik idi, idarəçiliyə, kadr hazırlığının aparılmasının optimal yollarına yaxşı bələd idi.

Gənc mütəxəssis olsam da mənə böyük etimad göstərər, daha çox inanar və etibar edərdi, ildə iki-üç dəfə nazirliyin ali orqanı olan kollegiya iclaslarında planlaşdırmaya, maliyyə işinə və iqtisadiyyata dair məruzələr edərdim. Bəybala müəllimin dəyərli təklifləri və tövsiyələri gələcək işimizə həmişə düzgün istiqamət verib. O, həmişə bilikli və bacarıqlı mütəxəssislərə

üstünlük verər, gəncləri irəli çəkir, bununla kifayətlənməyib onların əmək fəaliyyəti və şəxsi həyatı ilə də maraqlanardı.

Müstəqil Azərbaycan dövlət quruculuğunun aparıcı, strateji istiqamətlərindən biri olan milli təhsil sahəsində dövlət siyasətinə uyğun olaraq beynəlxalq təhsil standartları çərçivəsində islahatların həyata keçirilməsi, milli mənəviyyatımıza, mentalitetimizə və ideologiyamıza uyğunlaşdırılması istedadlı alim, əvəzsiz mütəxəssis Bəybala Xankişiyevi hədsiz dərəcədə sevindirir. Özü də bu yöndə yorulmaz işlər görür.

Həssas insan olan Bəybala müəllim həmsöhbətinə çox diqqətlidir. O, hər bir fikrini atalar sözü ilə, hikmətli kəlamla başlayıb öz münasibətini bildirir. Bu da onun zəngin mənəviyyata malik olmasını göstərir.

Qarabağın ağrı-acıları onun qəlbinin dərinliklərindən keçib gedirdi. Mən Xocalı soyqırımı zamanı Bəybala müəllimin ürək yanğısını, həyəcanını hiss etdim, göz yaşlarını gördüm. Ermənistanda yaşayan soydaşlarımızın ata-baba yurdlarından didərgin düşməsi onun qəlbini ağrıdırdı.

Bəybala müəllimin şəxsi-mənəvi keyfiyyətləri sanki ilahi sevginin bəhrəsidir. O, Lerikdə, doğma kəndimiz Lərmərudda olarkən ana təbiətin əsrarəngiz gözəlliklərinə heyranlıqla, məftunluqla tamaşa edərdi. Səyahətdə olmağı xoşlayan Bəybala müəllim rəqəmlərin poeziyasına, düzümünə nə qədər vurğundursa, bir körpə gülüşü, təzə-tər çiçəyin ətri, həzin musiqi onu ovsunlamağa bəs edir. Bəybala müəllim biz yeddi qardaşın arasındakı səmimi münasibət barədə çox məclislərdə danışır. O, qardaşlarımın atasındakı böyük-kiçikliyi, hörmət və ehtiramı görəndə deyərdi:

- Şahrzanın qardaşları bir-birini baxışları ilə başa düşür. Onların arasındakı əsil qardaşlıq münasibətlərinə heyran qalmamaq mümkün deyil.

Bəybala müəllim yaxşıya qiymət verən, pisi islah etməyə çalışan ziyalıdır, müdrik və nadir şəxsiyyətdir. Ziyalı nurdur,

işıqdır. Sanki onun ürəyindəki saflıq işığıdır saçlarına bəyazlıq verən, ömür yoluna güzgü tutan...

Mən Bəybala müəllimdə etibar, müdriklik, nikbinlik, ucalıq, dağ əzəməti, əyilməzlik, saflıq və vüqar gördüm və inanıram ki, onu qarşıda yeni zirvələr gözləyir.

Bəlkə də qələmə aldığım qeydlər onun ömür yolunun bir səhifəsidir.

Bəlkə də yaxşı tanıdığım görkəmli alimin və ustadımın tərifə ehtiyacı da yoxdur. Çünki professor Bəybala Xankişiyev hər cür tərifin, xoş sözün fövqündə qərar tutmuşdur...

RÖVŞƏN QULİYEV

Qayğıkeş insan, təşəbbüskar rəhbər

Səmimi insan, mehriban dost, ağsaqqal ziyalı, Azərbaycanın əməkdar iqtisadçısı, professor Bəybala müəllim Xankişiyevlə ilk tanışlığımız 1982-ci ilin əvvəllərində Azərbaycan Dövlət Xalq Təsərrüfatı İnstitutunda, təyinat bölgüsü vaxtı olmuşdur. Həmin il Bəybala müəllim bir necə nəfər əlaçı məzunun, o cümlədən mənim də təyinatımı Ali və Orta İxtisas Təhsili Nazirliyi sisteminə götürdü. Nazirliyin plan-maliyyə idarəsinin rəisi Bəybala müəllimin qayğısı və rəhbərliyi sayəsində bir gənc mütəxəssis kimi əmək fəaliyyətinə başladığım Təhsil Nazirliyində böyük iqtisadçı vəzifəsindən şöbə rəisi vəzifəsinə qədər yüksəldim. Təxminən on il müddətinə Bəybala müəllimlə birlikdə kadr hazırlığının planlaşdırılması, onun strukturunun təkmilləşdirilməsi, maliyyə intizamının möhkəmləndirilməsi sahəsində böyük nailiyyətlərimiz oldu. Bu nailiyyətlərin qazanılmasında bilavasitə Bəybala müəllimiin istər respublika səviyyəli, istərsə də o vaxtkı SSRİ səviyyəli aidiyyatı dövlət orqanlarında böyük nüfuza malik şəxsiyyət olması əsas rol oynadı. Onunla Moskvada SSRİ Ali və Orta Ixtisas Təhsili Nazirliyində və Dövlət Plan Komitəsində ezamiyyətdə olanda bunun bir daha şəhidi olmuşam. Həmin orqanların qarşısında qaldırılan, respublikamız üçün əhəmiyyətli məsələlər mütləq müsbət həllini tapırdı. İşdə həddindən artıq məsuliyyətli və tələbkar olan Bəybala müəllim çox səliqəli, qayğıkeş insan, işgüzar və təşəbbüskar

rəhbərdir. Təhsil Nazirliyi sistemində rəhbər iqtisadçı-mühasib kadrların hazırlanması məktəbi olmuşdur. Çox şərəfli olan o məktəbin xeyli məzunu vardır və həmin məzunlar bununla fəxr edirlər. Bəybala müəllim indi ömrünün ən mənalı dövrünü yaşayır. İstər elmi-pedaqoji fəaliyyətində, istərsə də peşəkar iqtisadçı kimi respublika iqtisadiyyatının inkişafı naminə ona uzun ömür, can sağlığı, yeni-yeni müvəffəqiyyətlər arzulayıram.

QƏHRƏMAN RZAYEV
Azərbaycan Dövlət İqtisad Universitetinin
Professoru,

Zəmanənin dəyişə bilmədiyi insan



Həyatda insanlar icra etdikləri əməlləri ilə, cəmiyyətdə tutduqları mövqe ilə və insani keyfiyyətləri ilə fərqlənir və digər xeyirxah münasibətləri ilə müsbət və mənfi xarakterlərini biruzə verirlər.

30 ildən artıq yoldaşlıq və dostluq etdiyim Bəybala Xankişiyev bu göstərilən müsbət keyfiyyətləri özündə cəmləşdirən insan kimi tanıdığım şəxsiyyətdir. Bəybala müəllimlə bu keçən müddətdə daimi olaraq həmişə anlaşılan dostluq münasibətləri olmuş və hansı vəzifə, ziyalı səviyyəsində olmasından asılı olmayaraq eyni, yüksək keyfiyyətli münəsibətləri müşahidə etmişəm. Bəybala müəllimin professor elmi rütbəsi, Respublikanın Əməkdar İqtisadçısı və uzun illər Azərbaycan Respublikası Təhsil Nazirliyində İdarə rəisi vəzifəsində və hazırda Azərbaycan Respublikası Maliyyə Nazirliyində işlədiyi vaxtdan özünün yoldaş və dostlarına qarşı münasibətlərini dəyişməyib.

Bəybala Xankişiyevi yüksək elmi təfəkkürə, geniş elmi dünya görüşünə malik olan ziyalı və iqtisadçı alim kimi tanıyıram. Onun son illərdə dərc olunmuş bir neçə elmi əsərləri respublikada mühasibat (maliyyə) uçotunun təkmilləşdirilməsi və öyrənilməsi üçün əsaslı mənbə olması ilə fərqlənir. Onun elmi, pedaqoji və fəaliyyəti dövründə respublikamızda gənc mütəxəssis kadrların

hazırlanması işi xüsusi diqqətə layiqdir.

Hörmətli Bəybala müəllim! Sizə möhkəm can sağlığı, geniş mənada böyük müvəffəqiyyətlər və ölkəmizin müasir iqtisadiyyatının formalaşdığı dövrdə icra etdiyiniz böyük işinizdə geniş fəaliyyətlər arzulayıram.

ARIF HƏSƏN OĞLU ZEYNALOV
Sinif yoldaşı

İllər ötdü

Bəybala Xankişiyevlə mən, ikimiz də Sabirabad rayonunun Qalaqayın kəndində dünyaya göz açmışıq.Qohumluğumuz da var. Birinci sinifə birlikdə, 1946-47-ci dərs ilində getmişik. Dördüncü sinifə qədər bir sinifdə oxuduq.

Hələ müharibənin ab-havası duyulurdu. Sinifdə bizdən bir neçə yaş böyük olan xeyli uşaqlar vardı, müharibə illərində oxuya bilməmişdilər. Bəybala məndən cəmisi üç ay böyük idi. Sinifdə hamı Bəybalanı böyük kimi qəbul erdi, çünki o, xarakter etibarilə hamıdan seçilir, daha sərbəst və bir az da əzmkar idi. Biz, hələ əlifbanın hərflərini öyrəndik, o, isə artıq kitab oxuya bilirdi, məktəbə çox hazırlıqlı gəlmişdi. Həm də o, hamıya qayğı lə yanaşardı.

O illərdə hələ adamlar yarı ac-yarı tox yaşayırdılar. Məktəbdə yeməkxana olmadığından hər birimiz çantamızda evdən gətirdiyimiz yeməklərlə keçinərdik. Elə uşaqlar vardı ki, yoxluq üzündən məktəbə yeməksiz gələrdilər. Burada Bəybala haraya çatar, elə edərdi ki, uşaqlardan heç kəs ac qalmazdı. O, bizi başa salar və gətirdiyimiz yeməklərdən sinif yoldaşlarımıza da pay ayırardı.

O, məktəbə hamıdan tez gələr və bizi məktəbin girişində bir müəllim ədasilə qarşılayardı.Uşaqlar arasında söz gəzirdi ki, Bəybala böyüyəndə mütləq müəllim olacaq, hətta bəziləri hesab

edirdi ki, o, məktəbin direktoru da ola bilər. Biz o vaxtlar müəllimdən böyük və müəllimdən şəxsiyyətdə böyük adam tanımırdıq. Hətta, elə bilirdik ki, müəllimlər çörək yemir, ikinci sinifdə Bəybala bizi başa saldı ki, müəllimlər də yemək yeyirlər, amma bir az başqa cür.

Mən Bəybala ilə oxuduğum o uzaqda qalmış uşaqlıq illərimizi heç vaxt unutmaram.O illərdə nədənsə, qış ayları çox sərt, şaxtalı keçərdi. Məktəbə gedəndə üşüməmək üçün Bəybalanın məsləhəti ilə, kəndarası axan, donub qalan buz bağlamış su kanalında sürüşə-sürüşə gedərdik. Çitdən olan çantalarımızı kürəyimizdən aşırıb sürüşə-sürüşə gedər və hətta mahnı da oxuyardıq. Bəybala deyərdi ki, bu da bizim səhər idmanımız.

İllər ötdü.....

Bizim sinif yoldaşlarımızın Bəybala haqqında olan arzuları çin oldu. O, nəinki məktəb müəllimi, hətta respublikanın aparıcı universitetinin dosenti, professoru, respublikanın əməkdar iqtisadçısı oldu.

O, uzun müddət Respublika Ali Təhsil Nazirliyinin idarə rəisi işlədi və məktəblərin, eləcə də ümumilikdə təhsilin inkişafına çox yardım etdi. Doğma məktəbimizi də unutmadı.

Bəybala indi də gənclərimizin təhsildə irəliləməsinə, inkişaf etməsinə yardımşı və təmənnasız məsləhətçisidir.

Mənim övladlarımın da təhsildə düzgün istiqamətdə götürməsində onun rolu böyük olmuşdur.

Bəybala ilə 4-cü sinifdən ayrılsam da daim əlaqə saxlamışdıq. Həm qohumluq, həm də dostluq əlaqələrimiz təmənnasız və səmimi idi. Tələbəlik illərində olan görüşlərimizi isə daha maraqlı və yaddaqalan idi. Mən Politexnik institutunda , o isə Xalq Təsərrüfatı institutunda oxuyurdu. Bəybala bəzən yataqxanada, bəzən də kirayədə qalardı. O, zəhmətkeş idi, hər şeyi özü həll etməyi xoşlayırdı.

Mən böyük dayım Zöhrabgildə, nənəm Arəstə xanımla və

anamın dayısı oğlu Efsirlə birlikdə qalardım. Nənəm də, dayımın həyat yoldaşı Bilqeyis xanım da bizə çox qayğı göstərər, bütün problemlərimizi həll edərdilər. Bilqeyis xanım Bəybalanın əmisi qızı idi, amma onları hamı bacı- qardaş hesab edirdi, çünki onlar çox mehriban idilər. Bəybala bizə gələndə nənəmlə Bilqeyis xanım mütləq turacplov hazırlayırdılar, Bilqeyis xanım plova mütləq zəfəran vurardı, deyərdi ki, Bəybala zəfəranlı plovu sevir.

Bəybala bizdə olan axşamlar çox şirin, şən və dolğun keçərdi. Nənəmlə Bəybalanın söhbətləri atalar sözləri və digər hikmətli fikirlərlə zəngin olardı. Mən, onlara qulaq asmaqdan doymazdım. Nənəm bizə deyərdi ki, baxın, Bəybala kimi oxuyun, ondan öyrənin, o, böyük adam olacaq. Bəybala isə çox təvazökar olduğundan bərk qızarardı, söhbəti başqa səmtə çöndərməyə çalışardı. O vaxtlar ayrı-ayrı ali məktəblər şənlik gecələri ("qoluboy oqonyok") təşkil edərdilər. Bizim institutda şənlik gecələri olanda təşkilatçılar xahiş edərdilər ki, Bəybalanı da dəvət edim. Hamı onunla maraqlanar, onunla təmasda olmağa çalışardılar. Bəybala kollektivə daxil olan kimi hamıdan seçilirdi....

Beləcə ali məktəb illəri də arxada qaldı....

HƏSƏNOV ƏLİ PƏNAH OĞLU
Azərbaycan Dövlət İqtisad Universitetinin dekanı, professor

Böyük alim, etibarlı dost

Öz zəhmətilə ucalan, vətənini və millətini hədsiz dərəcədə sevən əsl Azərbaycan oğlu, hamımızın fəxr etdiyimiz prof. Xankişiyev Bəybala Aslan oğlunu yarım əsrə yaxın bir dövrdə etibarlı dost, cəsarətli insan, ədalətli, müdrik alim, xalqı üçün xeyirxah və mənim üçün doğma olan bir şəxsiyyət kimi tanıyıram. Elə buna görə də prof. Xankişiyev Bəybala Aslan oğlu haqqında ürək sözlərimi yazmaq mənim üçün çox şərəflidir. Belə bir şəxsiyyət haqqında fikir söyləmək şərəfli olmaqla bərabər həm də çox çətin və məsuliyyətlidir. Xankişiyev Bəybala Aslan oğlu zəngin, dərin təfəkkürə malik, müdrik bir insan kimi özünü tanıtdı, yarım əsr zaman kəsiyində harada işləməyindən asılı olmayaraq yüksək səviyyədə ədalətini, xidmətini, elmini Azərbaycan xalqından əsirgəmədi. Belə bir insana – Bəyabala müəllimə layiq söz tapmaq hər adamın işi deyil. Bəybala müəllim əvəzedilməz və təmənnasız insandır.

Prof. Xankişiyev Bəybala uzun müddət ali məktəblərdə işləmiş, tədrislə məşğul olmuşdur. Hələ ADU-da işləyərkən intizamına, məsuliyyətinə, bacarığına, insanlara qayğısına görə fərqlənən, yeri gəldikdə imkansızlara əl tutmağıyla seçilmiş, yorulmadan elmi axtarışlarını davam elətdirmişdi. Bəybala müəllim 1966-cı ildə təzə yaranmış D.Bünyadzadə adına Az.XTİ-də baş mühasib işləməklə təyin edildiyi gündən professor-

müəllim, işçi və tələbə kollektivi arasında böyük nüfuza malik oldu, həm də elmi-tədqiqat işlərinə də böyük həvəs göstərmişdir. O, özünün işlədiyi sahədə gözəl məktəb yaratdı. Yeri gəlmişkən, qeyd etmək istərdim ki, Bəybala müəllimin həmin dövrdə yaratdığı məktəbin nümayəndələrindən çoxları hazırda müxtəlif ali məktəblərdə ali vəzifələrdə çalışır. Həmin adamlar bu gün də Bəybala müəllimin məktəbinin yetirməsi olduqlarından qürur duyurlar. Bəybala müəllim qısa müddətdə nəzəri biliklərini praktiki işlərlə vəhdətdə canlandırdı, iqtisad elmləri namizədi alimlik dərəcəsinə layiq görüldü.

Prof. Bəybala Xankişiyev 1975-ci ildən etibarən Respublika Təhsil Nazirliyində idarə rəisi vəzifəsini tutur. Bu vəzifədə uzun müddət işləyərkən respublikada kadr hazırlığı işində ağlasığmaz dərəcədə işlər görmüşdü. Belə ki, keçmiş Sovetlər İttifaqı məkanında çətin olmasına baxmayaraq yeni ixtisaslar üzrə kadr hazırlanmasında, zəruri kafedra və fakültələrin açılmasında, ümumiyyətlə, təhsilin inkişafında böyük işlər gördü. Bir məqamı yada salmasam özümü bağışlamaram. D.Bünyadzadə adına Az.XTİ Leninqrad Maliyyə İqtisad İnstitutunun filialına çevrilərkən əmtəəşünaslıq ixtisaslarına tələbə qəbulu dayandırıldı. Bu işin bərpası üçün 3 ilə yaxın əmək sərf edildi. Bu ixtisaslara tələbə qəbulunun Moskvadan alınmasında Bəybala müəllimin əməyi danılmazdır. Əmtəəşünaslıq ixtisaslarının bugünkü yüksək səviyyədə inkişafı onun gərgin əməyinin nəticəsidir.

Bəybala müəllim çox müdrik, kinsiz, zəhmətsevər, humanist, ədalətli, xeyirxah, gözəl ailə başçısı olmaqla yanaşı, həm də çox sanballı və bu gün tələbələr tərəfindən sevilə-sevilə oxunan elmi əsərlərin müəllifidir.

Prof. Xankişiyev Bəybala Aslan oğluna bir yaxın dostum kimi nə arzu edərdim? Polad kimi möhkəm can sağlığı, uzun ömür, şərəfli, mənalı həyat, ailədə xoşbəxtlik və onun bütün arzularının həyata keçməsini arzulayıram. Arzum budur ki, Bəybala müəllim Allahdan başqa heç kəsə möhtac olmasın.

ƏLİ QULU OĞLU ALLAHVERDİYEV
İqtisad elmləri doktoru, professor

Peşəkar təşkilatçı, qayğıkeş alim, xeyirxah insan

Professor Bəybala Aslan oğlu Xankişiyev orijinal təfəkkürə, özünəməxsus təlim-tərbiyə üslubuna, sadə ifadə və deyim tərzinə, məna və təsvir yükünə malik yaradıcı alim, şəxsiyyəti etibarı ilə kamil, fəlsəfi mühakimə və düşüncəyə, aydın duyuma, yüksək nitq mədəniyyətinə malik zəkalı ömür sahibi, böyük pedaqoq, gözəl ailə başçısı, zəhmətkeş alimdir. Azərbaycanda maliyyə sisteminin elmi əsərlər üzərində qurulmasında xüsusi rolu olan Əməkdar İqtisadçı, professor B.Xankişiyevin fəaliyyəti gənc nəslə örnək ola bilər. 0,5 ilə yaxındır ki, mənala həyatını respublikanın maliyyə sisteminin elmi əsaslar üzrə təşkilinə sərf edir.

Gənc yaşlarından əmək fəaliyyətinə başlayan Bəybala müəllim sonralar dövlət əhəmiyyətli vəzifələrdə çalışmışdır. O, bir çox dərslik, dərs vəsaiti və monoqrafiyaların müəllifidir.

Çoxlarından fərqli olaraq Bəybala müəllimdə bir çox müsbət keyfiyyət: müdriklik, kəskinlik, qohumcanlılıq, peşəsinə sədaqət mövqeyində dönməzlik, yaşamaq və yaratmaq üçün gənclik eşqi, “sahibsiz” və istedadlı gənclərə xeyirxahlıq vardır. Yaxşı yadımdadır 1969-cu ilin payız aylarında biz qohumumuzun evində keçirilən tədbirdə məni Bəybala müəllimə təqdim etdilər. Bəybala müəllim hal-əhval tutduqdan sonra mənə tövsiyələrini

dedi. Qeyd etdi ki, yüksək qiymətlərlə instituta qəbul olmusan. Gələcəkdə yaxşı mütəxəssis olmaq istəyirsənsə institut illərində əla oxuyub, yüksək nəzəri biliklər əldə etməlisən... Bəybala müəllimin tövsiyyələrinə həmişə çalışmışam əməl edəm.

Professor Bəybala Xankişiyevin çəkdiyi əmək boşa getməmişdir. Böyük şairimiz Hüseyn Cavid deyirdi:

Bəxtiyarsan, əgər çəkdiyin əmək
Cahan sərgisinə versə bir çiçək

Professor B.Xankişiyev yüksək ixtisaslı elmi kadrların hazırlanması sahəsində də əhəmiyyətli işlər görmüşdür. Onun elmi rəhbərliyi altında bir çox elmlər namizədi yetişdirilmişdir. O, elmi fəaliyyəti ilə yanaşı, həm də bacarıqlı təşkilatçıdı. Bəybala müəllim uzun müddət Təhsil Nazirliyində "Plan-Maliyyə" idarəsinə rəhbərlik etmiş, Maliyyə Nazirliyində nazirin müşaviri vəzifəsində çalışmışdır.

B.Xankişiyev yaratmaq, mübarizə aparmaq üçün doğulan insanlardandır... Ulu Zərdüşt alimləri həyatın yol göstərənləri adlandırırdı. Bu fikir sanki Bəybala Xankişiyev haqqında deyilib.

Bəybala müəllim həm də gözəl ailə başçısıdır. O, ailədə çox ciddi, həmdə həddindən artıq qayğıkeşdir. Böyüdüb boya-başa çatdırdığı övladlarına həyat yoldaşı Gülarə xanımla əsil Azərbaycanlı tərbiyəsi vermişdir.

Çox hörmətli Bəybala müəllim, hesab edirəm ki, elmi fəaliyyətdə, ümumiyyətlə əldə etdiyim uğurlarda Sizin də özünəməxsus rolunuz olub. Sizin haqqınızda deyilməli olan, yazılmalı olan, ümumiyyətlə, Bəybala Xankişiyev şəxsiyyətinə layiq olan bir yazını təqdim edə bilmədim, düşündüyüm, lakin sözlə ifadə edə bilmədiyim çox saylı xoş fikirləri çatdıra bilmədim. Təəssüflənmirəm, Allah qoysa, Sizin 80 illiyinizdə söz verirəm ki, mənim düşüncəmdə, şüurumda özünə yer tutan Bəybala Xankişiyev haqqında layiq olduğunuz sözlərimi çatdıra biləcəyəm.

Bəybala Xankişiyev bəxtiyardır, müdriklik çağındadır. O hələ cahan sərgisinə çox çiçəklər, qönçələr bəxş edəcəkdir. Bəybala müəllimin keçdiyi mənalı, məzunlu həyatının 70 illiyini, səmərəli elmi-pedaqoji fəaliyyətini ürəkdən təbrik edir, ona Ulu tanrıdan möhkəm cansağlığı, uzun ömür, səadət və işlərində uğurlar arzulayıram.

ŞƏDTAT CƏFƏROV
Respublikanın ilk poliqrafcı alimi,
"Vətən" nəşriyyatının direktoru,
Azərbaycan Jurnalistlər Birliyinin üzvü

Xoş təsadüflər

1981-ci il 19-20 noyabr tarixdə Bakıda Mühasibat uçotuna həsr edilmiş ikinci Ümumittifaq elmi-praktiki konfrans keçirilmişdir. Konfransı keçirmək üçün Azərbaycan SSR Ali və Orta İxtisas Təhsili naziri Əliyev Qurban Həsən oğlu sədr, t.e.d, professor Azərbaycan Xalq Təsərrüfatı institutunun rektoru Ələkbərov Zeynal Mamed oğlu sədr müavini, SSPİ Maliyyə Nazirliyinin İdarə rəisi Bezrukix Petr Stepanoviç i.e.n, dosent sədr müavini, Azərbaycan SSR Maliyyə Naziri Baxşəliyev Baxşəli Həsən oğlu sədr müavini olmaqla təşkilat komitəsi yaradılmışdı. Komitəyə daha 2 iqtisad elmləri doktoru, professor: Paliy Vitaliy Fedoroberoviç və Şeremet Anatoliy Daniloviç sədr müavinləri və 36 nəfər üzvlərdən ibarət heyət daxil edilmişdi.

Təşkilat komitəsinin üzvləri arasında SSRİ-də tanınmış alimlər, elmlər doktorları, professorlar, iqtisad elmlər namizədləri və dosentlər var idi. Mən Sədtat Cəfərov və Bəybala Aslan oğlu Xankişiyev də təşkilat komitəsinə daxil edilmişdir. Bəybala müəllimlə mənim ilk tanışlığım konfrans zamanı olmuşdur. O vaxt hər ikimiz iqtisad elmlər namizədi olmaqla yanaşı məsul vəzifələrdə çalışırdıq. Mən keçmiş Azərbaycan KP MK-nın "Kommunist" nəşriyyatının direktor müavini, o isə Azərbaycan

SSR Təhsil Nazirliyinin Plan –Maliyyə İdarəsinin rəisi vəzifəsində işləyirdi. Bəybala müəllim iştirak etdiyi bütün iclaslarda o öz mövqeyini çox aydın və lakonik şəkildə bildirməyi bacarır, bununla da konfrans iştirakçılarının diqqət mərkəzində olurdu.

1992-ci ildə mən "Azərbaycan" nəşriyyatının baş direktoru vəzifəsində işləyirdim. O vaxtlar, respublikamızın müstəqilliyinin ilk çağlarında istehsalatın əksər sahələri ciddi iqtisadi çətinliklərlə qarşılaşırdı. Bu poliqrafiya sahəsində də belə idi. Belə ki, Rusiya dövləti ilə iqtisadi əlaqələr zəif olduğundan poliqrafiya materiallarını respublikaya vaxtında gətirmək mümkün olmurdu. Ona görə də qəzetlərin çapı tez-tez dayanırdı. Belə çətin bir dövrdə Hesabdar Assosiyasının Prezidenti Bəybala Xankişiyev nəşriyyata gəldi. Köhnə dost kimi hal-əhval tutduq. Məlum oldu ki, Bəybala muəllim Hesabdar qəzetinin təsisçisidir və bu qəzetin fəailiyyət göstərməsi üçün iş otaqlarına ehtiyacı var. Bəybala müəllimin istəyinə əməl edib 2 otaq ayırdıq və "Hesabdar" qəzeti "Azərbaycan" nəşriyyatının binasında fəaliyyətə başladı.

Təxminən bu ilin avqust ayının əvəllərində naşir dostum Həsənov Mirisrafil Misirxan oğlu bir tanışının 70 illik yubileyinə həsr olunmuş kitabının çap etməyə kömək etməyi xahiş etdi. Məlum oldu ki, kitab qısa bir zaman kəsiyində nəşr olunmalıdır. Kitabın 18 illik fasilədən sonra görüşdüyüm dostum, professor Bəybala Xankişiyevin 70 illik yubileyinə həsr olduğunu bildikdə bütün kollektivin üzvlərini kitabın vaxtında işıq üzü görməsi üçün işə cəlb etdim. Kitabın redaktəsi və korrekturası ilə Mülayim Vəliyeva, rəngli şəkillərin, üz qabığının dizayn işi ilə Elşən Tarverdiyev məşğul olmağa başladı. Bir müəllif kimi Bəybala müəllimlə işləmək çox asan oldu, çünki 100 dən çox elmi əsər və məqalələrin müəllifi olduğundan nəşriyyat işini yaxşı bilir, çətinlikləri dəf etməkdə öz köməyini əsirgəmirdi.

Ömrümün 55 ilini nəşriyat-poliqrafiya işinə həsr etmişəm

və çox şadam ki, respublikamızın Əməkdar iqtisadçısı, professor Bəybala Xankişiyevin kitabının nəşrində bizim "3 saylı Bakı Mətbəəsi" ASC kollektivinin zəhməti vardır. Mən Bəybala müəllimə cansağlığı və bundan sonra da neçə-neçə əsərlərinin işıq üzü görməsini arzu edirəm.

XANKİŞİ SƏMƏD OĞLU XANKİŞİYEV
Əmi oğlu, Azərbaycan Dövlət İqtisad Universitetinin "Biznes inzibatçılığı" fakültəsinin dekanı, iqtisad elmləri namizədi

Əgər qohumluq əlaqələrini bir yana qoysaq mən Bəybala Xankişiyevi təvəzökar, gözəl insan, obyektiv və təmənnasız şəxsiyyət, insanlığın nümunəsi, təcrübəli pedaqoq, görkəmli alim, məhsuldar tədqiqatçı, fədakar təşkilatçı və ədalətli rəhbər kimi tanıyıram. Bütün bu keyfiyyətləri o yaşadığı 70 illik ömrü, həmçinin ondan 52 ili ictimai və elmi-pedaqoji fəaliyyəti ilə qazanmışdır. Bu keyfiyyətlərin hər biri ilə bağlı Bəybala müəllimi ayrıca xarakterizə etmək və faktlarla qeyd etmək olar.

Bəybala sıfırdan başlayan dayaqsız, arxasız yüksək zirvələr fəth edən insanlardandır. Bütün çətin anlarda, hətta ən çıxılmaz vəziyyətlərdə belə o həmişə öz savadına və bacarığına güvənmişdir.

Professor Bəybala Xankişiyevin respublikanın görkəmli tədqiqatçı alimlərdən biri kimi Azərbaycan iqtisadiyyatının çox mühüm problemləri, xüsusən maliyyə, büdcə sığorta, kredit və uçot problemləri sahəsində çox yüksək səviyyədə araşdırmalar aparmaqda, zəruri tövsiyələr verməkdə və ümumiləşdirmələr etməkdə müstəsna xidmətlər olan elm xadimlərindən biridir.

Bəybala Xankişiyevin hələ sovetlər dövründə (Azərbaycan Respublikası Təhsil Nazirliyinin maliyyə-plan idarəsinin rəisi işlədiyi müddətdə) Azərbaycan təhsilinin inkişafında müstəsna xidmətləri olan bir şəxsiyyətdir. O, heç vaxt vəzifəsindən istifadə

edərək tabeliyində olan əməkdaşların əməyinə şərik çıxmamışdır. O, təşkilatçılıq nümunəsidir. Həmişə tez və yaxşı nəticənin əldə olunması üçün cəhd göstərmişdir.

Bəybalanın zəhmətsevərliyini bir nümunə kimi qiymətləndirmək lazımdır. Ondan işdə intizamlığı, səmimi ünsiyyət qaydalarını, kollektivi birləşdirmək, idarə etmək yollarını, yaranmış narazılıqları yoluna qoymağı, gözəl ailə başçısı olmağı və ümumiyyətlə həyatda çox şeyi öyrənmək lazımdır.

VAQİF KƏRİMOV
istefada olan
Polkovnik

Bəybala müəllimlə mənim ilk tanışlığım 1956-cı ilin sentyabr ayından başlanmışdır. Göstərilən tarixdə hər ikimiz Bakı Maliyyə-Kredit Texnikumunun 1-ci kurs tələbəsi olmuşuq.

Tələbəliyin ilk günündən axıra kimi Qasım İsmayılov küçəsi, ev 121 ünvanında yerləşən yataqxanada bir otaqda yaşayaraq birlikdə çörək yoldaşı və dost olmuşuq. Növbə ilə 2 gündən bir xörək bişirib yemişik.

Bəybala müəllim çox zəhmətkeş idi. Tələbə olmaqla yanaşı, dostluğa da çox mehriban və diqqətli idi.

Yataqxanada vaxtımızın çox hissəsini dərslərin öyrənilməsinə sərf edirdik və ikimiz də əlaçı təqaüdü alırdıq. Hər ikimiz texnikumu əla diplomla bitirdik.

1965-ci ildən başlayaraq Bəybala müəllim ilə şəxsi dostluğumuz ailəvi dostluğa çevrilmişdir. Ailəmizin hər bir üzvü də bir-birləri ilə çox mehriban idilər. Ailə üzvlərimiz səmimi olaraq ya bizdə, ya da Bəybala müəllimin mənzilində görüşərdilər.

Bəybala müəllim istər Xalq Təsərrüfatı İnstitutunda, istərsə də Xalq Təhsil Nazirliyində işləyəndə zəhmətkeşliyiylə, bacarıqı, hörməti sayəsində uzun müddət mərkəzdən Azərbaycan Respublikası üçün çoxsaylı ştat vahidləri və pul vəsaitləri ala bilmişdir. İnstitutlarda, Texnikumlarda əlavə fakültələr, kafedralar açılmasında və çoxsaylı ziyalı kadrların işlə təmin olunmasında Bəybala müəllimin əməyi az deyildir.

Mən də o dövrlərdə Respublikanın DİN-nin Maliyyə-Plan

İdarəsində idarə rəisinin müavini vəzifəsində işlədiyim üçün Moskva şəhərində SSRİ Maliyyə Nazirliyində, Dövlət Plan komitəsində Bəybala müəllimlə tez-tez görüşərdik və Azərbaycan Respublikası üçün əlavə olaraq aldığımız ştat vahidləri və pul vəsaitləri haqqında fərəhlə danışardıq.

Həyat dəyişildi, hər ikimiz yaşa dolduq. Artıq 50 il arxada qaldı. Baxmayaraq hal-hazırda böyük vəzifədə çalışmırıq, həyat davam edir, hər ikimiz müvafiq nazirliklərdə çalışırıq və bir-birimizlə əlaqə və dostluq davam edir.

FƏRHAD ƏLİYEV
Azərbaycan Republikası Təhsil Nazirliyinin Mühasibat Uçotu və Hesabat sektorunun müdiri

Bəybala müəllim məktəbinin yetişdirməsi olduğum üçün fəxr edirəm

Taleyimə çox şükür edirəm ki, əmək fəaliyyətimin ilk illərindən Bəybala Aslan oğlu Xankişiyev kimi gözəl və qayğıkeş bir insanla rastlaşmışam.İllər ötdükcə onun qeyri-adi bir insan olmasına bir daha əmin olursan.

Bəybala müəllim mənim üçün gözəl bir insan, tələbkar və həm də tələbkarlığı qədər insanlara qarşı hədsiz qayğıkeş olan bir müəllimdir.O, təhsil və maliyyə sahəsində öz inkişaf yolu olan, böyük nüfuza malik iqtisadçı alimdir.

Bəybala müəllim Respublikamızın Təhsil sisteminin inkişafında, onun maddi-texniki bazasının yaxşılaşdırılmasında, tədris müəssisələrinin maliyyə təminatının ildən ilə artırılmasında və bununla respublikada kadr hazırlığında böyük imkanlar yaradılmasında, bir mütəxəssis alim kimi gənc maliyyəçilərin, mühasib və iqtisadçıların yetişdirilməsində,onların yaradıcılıq imkanlarınm üzə çıxarılmasında böyük əməyi olan bir insandır.

Onun həyat fəaliyyəti hər bir gəncə örnək ola biləcək bir dağ yoludur. Zəhmətə qatlanıb bu yolun daşlı-kəsəkli cığırları ilə irəliləməyə dözmək bacarığı olan insanlar, Bəybala müəllim kimi bu dağın parlaq zirvələrinə yüksələ bilərlər.

Bəybala müəllimin öz məktəbi vardır. Onun həyat

məktəbində dərs alanlar gözəl mütəxəssis olmaqla yanaşı, çalışdıqları sahədə böyük yaradıcılıq, təşkilatçılıq qabiliyyətləri nümayiş etdirirlər. Belə insanlar iqtisadiyyatımızın bütün sahələrindədir. Onları hamımız tanıyırıq.

Bəybala müəllim həyat fəaliyyətində obyektivliyi, ədalətliliyi, düzgünlüyü müdafiə edən, bu prinsipləri üstün tutan bir insandır. Gəncləri sevən, gənc mütəxəssislərin inkişafına şərait yaradan bir şəxsiyyətdir.

Bəybala müəllim haqqında mənim deməyə sözüm çoxdur. Mənim bir mütəxəssis kimi formalaşmağımda, həyatda, cəmiyyətdə öz yerimi tutmağımda onun rəhbərliyi altında Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili Nazirliyində çalışdığım dövrün (1975-1993-cü illər) təcrübəsinin müstəsna əhəmiyyəti olmuşdur.

Bəybala müəllim vətənə, torpağa bağlı, zəhməti sevən və bu keyfiyyətləri başqalarına aşılamağı bacaran bir şəxsdir.

Birgə əmək fəaliyyəti dövrlərində onun həmişə yenilikciliyə, islahatlara can atan yorulmaz bir insan olduğunu müşahidə etmişəm.

Mənim təhsil sahəsində uzun müddət fəaliyyət göstərməyimə, taleyimi bu sənətə bağlamağımda Bəybala müəllimin böyük rolu olmuşdur.

Mən, 1974-cü ildə Azərbaycan Respublikası Ali və Orta ixtisas Təhsili Nazirliyinin Plan-maliyyə şöbəsində gənc mütəxəssis kimi, adi iqtisadçı vəzifəsində böyük nüfuza malik olan mərhum Yusif Babaş oğlu Quliyevin rəhbərliyi altında çalışarkən, Bəybala müəllim o vaxt keçmiş D.Bünyadzadə adına Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun baş mühasibi vəzifəsində uğurla fəaliyyət göstərirdi. Bəybala müəllimi ali məktəbin baş mühasibi vəzifəsində çalışdığı zaman, Nazirliyin tabeliyində olan ali məktəb baş mühasiblərindən o öz intellektual səviyyəsinə, peşə bacarığına, ünsiyyətdə səmimiliyinə və mədəni davranışıma görə o biri baş mühasiblərdən müsbət mənada

fərqlənirdi.

Onun Nazirliyin rəhbərliyi və kollektivi arasında da bir peşəkar mütəxəssis və bir insan kimi böyük nüfuzu və hörməti olduğunu həmişə hiss etmişəm.

Bəybala müəllim öz peşəsini sevən və gənclərə sevdirməyi bacaran yaradıcı bir mütəxəssisdir. O hələ ali məktəbdə baş mühasib işlədiyi zamandan öz peşəsinə yaradıcı yanaşmış büdcə müəssisələrində uçotun düzgün aparılması və təkmilləşdirilməsinə çalışmış, büdcə müəssisələrinin balans hesabat göstəricilərinin həm büdcə və həm də büdcədən kənar vəsaitlər üzrə hərəkətinin təhlilini vermiş, uçotun şəffaflaşması istiqamətində səmərəli elmi yaradıcılıq işi aparmış, nəticədə bir praktik mütəxəssis kimi iqtisadiyyat elminə öz yeni töhfəsini vermişdir.

1974-ci ildə müvəffəqiyyətlə namizədlik dissertasiyası müdafiə edərək iqtisad elmləri namizədi elmi dərəcəsi almış və bu fakt Azərbaycan Respublikası Ali və Orta İxtisas Təhsili naziri, hamımızın hörmət bəslədiyi, böyük dövlət xadimi, gənclərin inkişafına şərait yaradan gözəl insan Əliyev Qurban Həsən oğlunun diqqətindən qaçmadı və onu Nazirliyin mərkəzi aparatında işləməyə dəvət edərək, yaranmış vakant vəzifəyə - Nazirliyin Plan-maliyyə şöbəsinə rəis vəzifəsinə təyin etdi. O dövrdən də Bəybala müəllimin rəhbərliyi altında birgə fəaliyyətimiz olub. Bəybala müəllim kimi təcrübəli mütəxəssis və səmimi bir insanın başçılıq etdiyi bır şöbədə və Nazirlikdə əmək fəaliyyətimiz 20 ilə yaxın davam etdi. Bu dövr ərzində Bəybala müəllimin işə tələbkar, məsuliyyətli yanaşmaq məktəbini keçmiş, onun layiqli davamçısı olmağa çalışmışam. İşlədiyim dövr ərzində ondan ancaq qayğı, bir mütəxəssis kimi inkişaf etməyimə şərait yaradan, işdə ədalət, obyektivlik prinsiplərini əsas tutan, işçinin fərdi bacarıq və fəaliyyətini qiymətləndirməyi bacaran tələbkar bir insanın, bir rəhbərin keyfiyyətlərini görmüşəm. Belə ki, 1975-ci ildən 1982-ci ilə kimi bir idarədə işlədiyim dövrdə vəzifə pillələrində iqtisadçı, aparıcı iqtisadçı, baş iqtisadçı və Nazirliyin

məsul bir idərəsinə - Nəzarət və Təftiş idarəsinə rəis vəzifəsinə irəli çəkilməyimdə böyük etimad və dəstəyini görmüşəm. Sonrakı fəaliyyətimdə də Bəybala müəllimin məktəbində aldığım dərslərin, mənim bir mütəxəssis kimi inkişafıma təkamülverici bir qüvvə rolu oynayırdı.

Bu böyük ürəkli insanın, alimin, müəllimin, əzizimiz Bəybala Aslan oğlu Xankişiyevin məsləhətlərinə ehtiyacımız bu gün də var. Mənim keçirdiyim həyat və ornək yolum o böyük şəxsiyyətin adı ilə, məktəbində aldığım bilik və təcrübə ilə bağlıdır. Ona möhkəm can sağlığı və uzun ömür arzulayıram.

RƏFAYIL VƏKİL OĞLU QARAYEV

Dayım Bəybala müəllim haqqında ürək sözlərim

Hər el, hər oba öz yetirdiyi övladlarıyla, tanınmış oğullarıyla sayılıb seçilir. Bu mənada kənd mühitindən çıxmış ziyalılar, respublika səviyyəsində özlərini təsdiqləyənəcən doğulub boya-başa çatdıqları kəndləri təmsil edənəcən uzun və çətin bir yol keçməli olurlar.

Mən, dayım Bəybala müəllimi də belə ziyalılardan hesab edirəm. O, mənim doğma dayımdır. Amma ona həmişə müəllimim, ağsaqqalım, elimizin üzdə olan, tanınan bir ziyalısı kimi baxmışam, lap uşaq vaxtlarından bütün qohumların və kənd camaatının onunla fəxr etdiyini görmüşəm.

Müəllimlərim onu həmişə bizə örnək göstəriblər. Böyüklü-kiçikli kənd camaatının ona bu hörməti, üstəlik mənim doğma dayım olmağı özümü dərk etdiyim vaxtdan içimdə, qəlbimin dərinliklərində mənəvi bir məsuliyyət hissi formalaşdırıb. Orta məktəbdə sinifdən-sinfə keçərkən müəllimlərimdən, valideynlərimdən qabaq dayımın şəxsiyyəti, onun adı-sanı qarşısında özüm-özümə hesabat vermişəm. Tək mən yox, bacı və qardaşlarım, həmçinin yaxın qohumlarım da uşaq vaxtlarından Bəybala müəllimin yolunu tutmağa, ona oxşamağa çalışıblar. Bəlkə buna görədir ki, 25 bacı uşağından 21-i ali və orta ixtisas təhsili alaraq hazırda müxtəlif sahələrdə çalışırlar.

Şəxsən biz ailədə 8 uşaq olmuşuq. Bunların 4-ü ali və 2-si isə orta ixtisas təhsili alıb. Buna görə də hər şeydən əvvəl, hamıdan öncə dayıma minnətdarıq. Bacı, əmi, bibi, dayı uşaqlarının eləcə

də digər qohumların Bakıya oxumağa və məsləhətə gələnlərin ilk döydüyü qapı, qaldıqları ev dayımın ocağı olub. Bu böyük qəlbli insan qapısını döyənlərin hər birini mehribanlıqla qəbul edib, onlara öz məsləhətlərini verib.

Aradan neçə illər keçəndən sonra bütün bunları bir insanın şəraiti, imkanı hüdudlarında götür-qoy edəndə onun nə qədər geniş qəlbli, xeyirxah, istiqanlı olduğunu bir daha dərk edirsən.

Mən ali məktəbdə oxuyarkən onun mənə təkcə mənəvi yardımını, dayağını yox, həm də maddi köməkliyini hər ay, hər həftə, bəlkə də hər gün hiss etmişəm. Bir çətinə, dara düşəndə hamıdan qabaq onun məsləhətinə, onun köməyinə ehtiyac duymuşam.

Bəybala müəllimi tanıyan, onunla ünsiyyətdə olan hər bir adamda doğmalığından, yadlığından asılı olmayaraq mütləq onun xeyirxahlığından bir nişan olmalıdır. Məhz onun bu cür mənəvi dayağının, böyük təşkilatçılıq bacarığının nəticəsidir ki, yaxınları, dostları, doğmaları arasında sözün əsl mənasında böyük bir ziyalı ordusu yetişmiş, onların hər biri öz qabiliyyətinə, istedadına uyğun həyatda layiqli mövqe qazanmışlar.

Bəybala müəllimin yetirmələri həkimdən müəlliminə, mühəndisdən iqtisadçısına hamı onun adını, hörmətini həmişə uca tutub və tutmaqda da davam edir. Dəfələrlə müxtəlif məclislərdə dayım olduğunu belə bilmədikləri halda tanıdığım və tanımadığım insanlar onun təhsil sistemindəki xidmətlərindən, xeyirxah əməllərindən, gözəl insani keyfiyyətlərindən danışdıqları vaxt qürur hissi keçirmişəm. Şəxsən mən öz dayım haqqında belə düşünürəm ki, onun bizə sərf etdiyi o böyük zəhməti, çəkdiyi əziyyəti heç nə ilə ödəmək, qaytarmaq mümkün deyildir.

Atalar sözüdür: «Oğul dayısına, qız bibisinə çəkir»,- deyirlər. Dayımın bizə göstərdiyi xeyirxahlığın yüzdə birini mən də öz yaxınlarıma, qohumlarıma və digərlərinə göstərə bilirəmsə özümü xoşbəxt sayıram. Onun qarşısındakı mənəvi borcumu az da olsa bu yolla ödəyə biləcəyimə inanıram.

RAFİQ İSGƏNDƏROV
Azərbaycan Texniki Universitetinin
dosenti, iqtisad elmləri namizədi

Tələbəlik illəri

Xalq arasında bəzən belə deyirlər ki, həyata necə qədəm qoyursansa, bütün ömrünü eləcə də başa vuracaqsan. Bəybala müəllim seçdiyi həyat kredosuna həmişə sadiq qalmaqla yüksək amallar uğrunda səy və bacarığını sərf etməklə, lazım gəldikdə öz prinsipiallığı ilə heyrətamiz və yeganə düzgün mövqe ayrılığı göstərməklə çətin həyat problemlərini müvəffəqiyyətlə həll etməyə qadir şəxsiyyətlərdəndir.

Məhz bu keyfiyyətlərinə görə həmişə onu tanıyanlar heç bir mübaliğəyə varmadan onun məsləhətlərinə dərin ehtiyac duyaraq onunla daha yaxından təmasda olmağa çalışırlar.

Uzaq tələbəlik illərindən mənim yaddaşımda həkk olunub qalan və bütün həyatım boyu yadımdan çıxmayan Bəybala obrazı canlı tarix nümunəsidir. Oxuduğumuz dövrdə o, bütün qrup tələbələrindən təkcə xarici görünüşü ilə deyil, həm də daxili təmkini, istedadı, bilik və həyat təcrübəsi ilə hələ o vaxtlar əsaslı surətdə fərqlənirdi. Onun dərs prosesinə yanaşma tərzi, eləcə də tələbə-müəllim münasibətlərini yüksək həssaslıqla duyması bizim hər birimiz üçün əsl örnək idi. Mənim daima diqqətimi cəlb edən bir cəhəti də qeyd etmək yerinə düşərdi ki, hələ o vaxtlar bütün qrup tələbələri ona yarıciddi tərzdə «müəllim» deyə müraciət

etməklə tələbə qayğılarımızın həllini bilavasitə onun məsləhət və köməyinə arxalanmaqla yerinə yetiriləcəyinə inanırdılar.

Allahın hər kəsə bəxş etdiyi ömür salnaməsi Allahın özünün iradəsi və hökmü ilə tənzimlənir, desək yanılmarıq. Çünki bizim hər birimizin qəlbinə yaxın olan Bəybala müəllim hələ çox gənc yaşlarında Ulu Tanrımıza böyük etiqad göstərməklə qrup tələbələri arasında mehriban, səmimi insani münasibətlərin yaradılmasında önəmcil nümunə göstərirdi. Onun devizi - «İnsan mənəviyyat üçün yaşamalıdır, mənəviyyatı qoruyan, yaşadan insan əbədi qalacaq» deməkdə hər kəsi saflığa və mübarizliyə səfərbər edir.

Böyük öndər Mustafa Kamal Paşanın vaxtıilə söylədiyi «Xalqa əfəndilik yoxdur, xalqa xidmət vardır və hər kim xalqa xidmət edə bilirsə, o da əfəndi ola bilər» sözləri Bəybala müəllim kimi şəxslərin keçdiyi həyat yollarına tamamilə şamil edilməlidir. Şəxsiyyətin yaradıcısı kütlə və mühitdir, çünki şəxsiyyət kütlədən törəyir və bütün cəmiyyət min bir zəhmət hesabına Bəybala müəllim kimi nadir insanlar yetişdirir. Cəmiyyətin istəyi nə qədər böyük olarsa, ondan törəyən və ya onun yetişdirdiyi tarixi şəxsiyyət də bir o qədər böyük olacaqdır fikri isə Bəybala müəllimin timsalında sözün həqiqi mənasında eynilik təşkil edir.

Mənim şəxsiyyətinə böyük hörmətlə yanaşdığım Bəybala müəllim həmişə bizlərə səmimi ürək hökmü kimi tövsiyə etdiyi - «İnsan mənəviyyat üçün yaşamalıdır, mənəviyyatı qoruyan, yaşadan insan əbədi qalacaqdır» - sözləri bütün zaman kəsiyində insanın özünün yüksək dəyərliliyini qoruyub saxlamağa kömək edir.

Xalqımızın böyük eposu «Dədə Qorqud» boylarından bizə aşılanan yurdsevərlik hissi Bəybala müəllimə doğma olduğu üçün dəyərli bir şəxsiyyət kimi yetişdi. Qədim Azərbaycan torpağı Bəybala müəllim kimi təəssübkeş, millətini, xalqını sevən böyük yurd oğlu yetirmiş, vətənin onunla fəxr etməyə haqqı vardır desək

heç də səhv etmərik. «Dədə Qorqud» eposunda söylənilən

Qum qumlamayım quma yurdum!
Qumla sığın keyinə qonşu yurdum!
Alaca atlı kafirdən sana yurdum!
Səni yağı nə yerdə darımış, gözəl yurdum!

Azərbaycan torpağı Bəybala müəllim kimi minlərlə yüksək savadlı və zəngin həyat təcrübəsinə malik olan şəxsiyyətlərə, indi əvvəlkindən daha çox böyük ehtiyac duyur.

Etiraf etmək lazımdır ki, cəmiyyətin tərəqqisi böyüməkdə olan nəslin fəallığından onların konstruktiv-yaradıcı işlərdə iştirakından etnik-mənəvi üstünlüklərə yiyələnməsindən çox asılıdır. Bəybala müəllimi gənc nəslin yetişməsində qayğısını əsirgəməyən bir ziyalıdır, həmişə də bu üstünlükləri qoruyub saxlayır. Bu keyfiyyətlər onun öz təbiətindən vətənə-xalqa dərin ehtiramından, zəngin və sağlam təməl üzərində formalaşan dünya görüşündən irəli gəlir.

Vaxtilə bir nəfərin dahi Nizami Gəncəviyə «Ayın işığı, gülün ətri var, bəs insanın nəyi var?» sualına böyük şairin cavabı belə olub: «Ulu əcdadlarımızın yenilməz insanlığı və tükənməz xeyirxahlığı bizlərə bəxş edilən ən dəyərli həyat töhfəsidir». Bəybala müəllim kimi şəxsiyyətlər tükənməz xeyirxahlığı, məhz ulu əcdadlarımızdan, babalarımızdan alır.

Belə tükənməz insani dəyərlərə malik olan Bəybala müəllim bütün yüksəkliklər içərisində ən yüksək zirvəni tutur. Qədim və zəngin tarixi keçmişə malik Azərbaycan xalqının yaratdığı maddi və mənəvi dəyərlərdən bəhrələnən insanlar öz dünya görüşləriylə, həyata fəlsəfi baxışlarıyla, əxlaqi və davranış keyfiyyətləriylə həmişə seçilib.

Bəybala müəllim hələ tələbəlik illərindən qaynar elmi fəaliyyət sahələrinə dərin maraq göstərirdi. Bu gün də onun

qələmindən çıxan müxtəlif səpgili məqalələr, dərsliklər və dərs vəsaitləri, monoqrafiyalar hər bir ziyalının masaüstü canlı məlumat mənbəyi kimi ən etibarlı, yaxın köməkçisinə çevrilib. Bəybala müəllimin müəllifi olduğu bir çox əyani dərs vəsaitləri öz aktuallığı ilə həmişə digərlərindən seçilməklə, çox həsəd edici uzun omürlülüyə və nəzəri-təcrübi əhəmiyyətə malik olub. Yetişməkdə olan yeni iqtisadçılar nəsli üçün əhəmiyyətli bilik mənbəyidi. Bəybala müəllim haqqında yazmaq və onun, malik olduğu bənzərsiz insani keyfiyyətləri sadalamaq, kiçik həcmli yazılarda tam dolğunluğu ilə göstərmək olduqca çətin və müşkül işdi.

Mən Bəybala müəllimə Allahdan uzun ömür, möhkəm can sağlığı və bütün həyatı boyu yenilməz müvəffəqiyyətlər, ailə xoşbəxtliyi arzulayıram.

BALAZAMAN RAMAZAN OĞLU İMANOV
İqtisad elmləri namizədi, dosent

El oğlu

Azərbaycan Respublikasının Əməkdar İqtisadçısı, professor Bəybala müəllimin elmi fəaliyyəti haqqında mətbuatda və yüksək elmi yığıncaqlarda geniş və ətraflı danışıldığı üçün mən onun bir el oğlu tək insani və xeyirxah əmələri haqqında söhbət açmaq istərdim.

Bəybala müəllimin insanlıq keyfiyyəti haqqında danışarkən deməliyəm ki, o, bütün gördüyü işlərində, hərəkətində və əməlində üzərindəki məsuliyyəti hiss edir, hər şeyi qabaqcadan görürmüş kimi ehtiyatla hərəkət edir. Adamla, insan arasında olan fərqi aşağıdakı şeirdə açıq görmək olar:

Hamıya adam deyirlər,
Ancaq, hamısı insan deyildir.
Bəzisi təkcə adamdı,
Bəzisi həm adam.
Həm də gözəl insandı,
Tək adam olanın,
Yalnız şəkli vardı.
İnsan-adam olanın,
Fəlsəfi elmi vardı.

Mərifəti, əxlaqı,
Gözəl rəftarı vardı.
Natiq söhbəti, ağlı,
Dərk etdirir Allahı,
Lütfündəki paklığı
Göstərir insanlığı.

Bəybala müəllim adi kişi yox, sözün əsl mənasında Nər kişidir. Bu amil onun insanlara etdiyi xeyirxah əməllərində daha aydın görünür. Daha doğrusu, onun yanına bir iş üçün gələn şəxsi heç vaxt əliboş geri qaytarmayıb. Onda olan bu xeyirxah əməllər ona ana südü ilə, ata kökü ilə keçib. Daha doğrusu, şair demişkən:

Möcüzəli bayatısı, laylası,
Ürəklidir oğul, ata yanında.
Halal südlə tutulubsa mayası,
Nər gücü var o igidin canında.

Bəli, dünyaya gələn dəmirçi oğlu Bəybala dəmirçi kürəsində «yana-yana» püxtələşir, həyata möhkəm iradə, gözəl xasiyyətlə qədəm qoyur. Kürədən aldığı hərarəti qəlbinin odu ilə işıqlandıraraq ətrafında olanların ürəyinə nur saçır, onlara həyan olur. Bunlarla yanaşı Bəybala müəllim yaxşı ata - ailə başçısı və böyük alimdir. Həm yaxşı alim olmaq, həm də gözəl insan olmaq hər bəşər övladına xas deyildir. Bunu aşağıdakı şeirdə daha aydın duymaq olar:

Alimlik, insanlıq yüzdə birdədir,
Hər mənəmdə bir zərrəsi görünür.
İnsan-Alim olmaq yüksək zirvədir,
O, zirvədən Yer kürəsi görünür.

İncədən incədir, zərifdən zərif,
Mərifət bağından min cür gül dərib.
Fitri istedaddır, Yaradan verib
Qüdrətində nər qüvvəsi görünür.

Bəli, mənim el oğlum belə fitri istedada malik, nər qüvvəli bir insandır. Bəybala müəllim haqqında, vərəqlərə sığmayan ürək dolu sözüm var. Amma Əlişir Nəvai demişkən:

Gözəldir qərəzsiz, biçimli kəlam,
İki qat gözəldir, olarsa yığcam.

Odur ki, sözümü şeirlə bitirib ona uzun ömür, möhkəm can sağlığı arzulayıram:

Qardaş, bir çörəyi Allah kəsə,
Bəndə çörək verə bilməz.
Xətir, hörmət etməyənlər,
Xətir, hörmət görə bilməz.

Zatı qırıq olan kəslər,
Böhtan atar, şəri səslər.
Əsli-kökü müqəddəslər
Dondan-dona girə bilməz.

XANKİŞİYEVA SEVİNC BƏYBALA QIZI

Qayğıkeş ata

Atamla bağlı söyləyəcəyim fikirlər mənim həm uşaqlıq xatirələrim, həm də bu günümlə bağlıdır. Bu fikirlər hər bir övlad kimi mənim də öz valideynlərim haqqında minnətdarlıqla xatırladığım, etiraf edəcəyim duyğulardan, təəssüratlardan irəli gəlir.

Atam bizi kiçik yaşlarımızdan səhər tezdən yuxudan oyanmağa alışdırmışdı. O, çox aydın şəkildə bizə başa salmışdı ki, səhər tezdən yuxudan oyanmaq, səhər idmanı ilə məşğul olmaq uşağın sağlam böyüməsi, düzgün formalaşması üçün çox vacib amildir. Ona görə də biz yaşadığımız hər günümüzü dəqiq və faydalı bir gündəlik rejimə əməl etməklə qura bilirik. Hətta tez-tez xatırlayıram ki, biz hər gün səhər ertədən radionun səsinə yuxudan ayılardıq- yəni günümüz radionun səsi ilə başlardı. Atamın yaşadığımız hər günümüzü düzgün bölə bilməmiz haqda qayğıkeş tələbkarlığı sağlam həyat tərzimin formalaşmasına çox kömək etmişdi.

Atam insanları çox yaxşı tanıyır. Uşaq vaxtlarında mənə elə gəlirdi ki, insanlardan kimin yaxşı, kimin isə pis olmasını hisslər sayəsində müəyyənləşdirmək olar. Atamın sayəsində sonralar başa düşdüm ki, bu məsələdə təkçə hissiyyat kifayət deyil. O, özünün zəngin həyat təcrübəsi, geniş dünyagörüşü sayəsində mənə insanları necə tanımaq barəsində çox düzgün istiqamət verirdi. Belə ki, o məndən kiminlə yoldaşlıq, dostluq

münasibətləri qurmaq barədə də məsləhətlərini, tövsiyələrini bizdən əsirgəmirdi. Hətta bəzən elə hallar da olurdu ki, gələcək mənafeyimiz naminə bizə müəyyən qadağalar da qoyurdu. Özümə rəfiqə seçəndə, ailə həyatı quranda, münasibətdə olduğum insanları tanımaq istəyəndə atamın həyat təcrübəsi, məsləhətləri tövsiyələri həmişə köməyimə çatıb.

Atamdan danışarkən onun qayğıkeş və səmimi ailə başçısı kimi rəftarını xüsusi vurğulamaq istəyirəm. Atam həmişə anama çox hörmətlə yanaşıb, onun qayğılarını bölüşüb, nəvaziş və hörmətlə davranıb. Onun bir baxışı kifayət idi ki, biz müəyyən şeyin yerində olmadığını başa düşək. Atamın ailə başçısı kimi bütün qayğıkeşliyi, səmimiliyi, mehribanlığı ilə bərabər zəhmini, nəzarətini də həmişə öz üzərimizdə hiss edirik. Onu da bildirmək yerinə düşər ki, atamın bizim üçün geyim seçimində verdiyi tövsiyələri, zövqü də ürəyimizcə olub.

Atam təhsilə çox böyük əhəmiyyət verir. O, mənə çox dərindən təlqin etmişdi ki, istər orta, istərsə də ali məktəbi mükəmməl şəkildə bitirmək təkcə hansısa sənəd və ixtisas xatirinə yox, həm də kamil, həyatın mənasını, fəlsəfəsini qavrayan bir insan kimi formalaşmaq üçün vacibdir.

Zəhmətkeş bir insan kimi hələ uşaq yaşlarından bizi əməyə, zəhmətə alışdırmağa başlamışdı. Demək olar ki, hər bazar günü bağa gedər, atamla birgə bağı belləyər, su daşıyıb ağacları sulayırdıq. Atam deyir ki, zehni əməklə fiziki əməklə çulğalaşdırmaqla daha gümrah, sağlam düşüncəli olmaq olar.

Atam bizim istirahətimizə də xüsusi qayğı ilə yanaşırdı. Yay aylarında bizi Moskva ətrafı, Yessentuki və s. kimi kurort şəhərlərinə özü ilə istirahətə aparırdı.

